**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**“MAGİSTRATURA MƏRKƏZİ”**

Əlyazması hüququnda

**Məmmədova Nərmin İnsaf qızı**

“**Sənaye müəssisələrinin ərazi üzrə təşkili məsələləri**”
mövzusunda

# MAGİSTR DİSSERTASİYASI

İxtisasın şifri və adı: 060405 “Sənayenin təşkili və idarəedilməsi”

İxtisaslaşma: “Müəssisənin iqtisadiyyatı”

Elmi rəhbər: i.e.d, prof. T. Ə. Hüseynov
Magistr proqramının rəhbəri: i.e.n,dos. A.S. Mehtiyev
Kafedra müdiri: i.e.n,dos. Ə.V. Hacıyev

**BAKI - 2016**

# MÜNDƏRİCAT

**GİRİŞ**............................................................................................................ 3

**FƏSİL I.Sənayenin ərazi üzrə yerləşdirilməsinin nəzəri məsələləri**.................... 6

**1.1** Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin mahiyyəti və prinsipləri........... 6

**1.2** Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinə təsir edən amillər....................... 11

**1.3** Sənaye müəssisələrinin yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması metodikası................................................................................................................ 19

**FƏSİL II. Respublikanın regionlarında sənaye müəssisələrinin ərazi üzrə təşkilinin müasir vəziyyəti**................................................................................ 27

**2.1** Respublikanın regionlarında sənaye istehsalının müasir vəziyyətinin təhlili......... 27

**2.2** Regionlarda sənaye müəssisələrinin inkişaf problemlərinin təhlili....................... 49

**FƏSİL III. Sənaye istehsalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi istiqamətləri**.............................................................................................................. 58

**3.1** Azərbaycanda regionların iqtisadi inkişafının əsas istiqamətləri.......................... 58

**3.2** Regionlarda sənaye istehsalının perspektiv inkişaf istiqamətləri.......................... 65

**3.3** Müasir şəraitdə regionlarda sənayenin ərazi üzrə təşkilinin dövlət tənzimlənməsinin əsas istiqamətləri......................................................................... 72

Nəticə və təkliflər........................................................................................................ 88

İstifadə edilmiş ədəbiyyat............................................................................................. 91

Резюме......................................................................................................................... 94

Summary...................................................................................................................... 95

# Giriş

**Mövzunun aktuallığı:** Müasir şəraitdə ölkənin dövlət müstəqilliyinin təmin olunması, milli iqtisadiyyatının bazar prinsipləri əsasında formalaşdırılması digər şərtlərlə yanaşı ölkə sənayesinin ərazi üzrə düzgün və səmərəli təşkili səviyyəsindən birbaşa asılıdır. Sənaye müəssisələrinin ölkə miqyasında səmərəli yerləşdirilməsi məhsuldar qüvvələrin ərazicə təşkili məsələlərinin bir cəhəti olmaqla, milli iqtisadiyyatın inkişafı və sosial tərəqqini təmin edə biləcək mühüm təsərrüfat tədbirlərindən biridir. Sənaye istehsalının səmərəli yerləşdirilməsi təbii sərvətlərdən səmərəli istifadəni, əhalinin məşğulluq səviyyəsinin yaxşılaşdırılmasını, əmək məhsuldarlığının yüksəldilməsi və iqtisadi resurslardan qənaətlə istifadə əsasında istehsalın səmərəliliyinin yüksəldilməsini, iqtisadi rayonların optimal şəkildə sosial-iqtisadi inkişafını təmin edir. Sənaye müəssisəsinin yerləşməsi regionda nəqliyyatın, rabitənin və digər sahələrin inkişafına, istehsalın enerji və xammalla təminatının, rayonlararası və sahələrarası əlaqələrin mürəkkəbləşməsinə, ətraf mühitin qorunmasının əhəmiyyətinin artmasına və s. təsir göstərir. Bütün bunların nəticəsi olaraq ərazi üzrə səmərəli yerləşdirmə müəyyən mənada həm cəmiyyətin, həm də ölkənin inkişafında müsbət rol oynayır.

Keçmiş Sovetlər məkanında 70 ildən artıq bir dövrdə məhsuldar qüvvələrin yerləşdirilməsində və ərazi təşkilində obyektiv iqtisadi əsası olmayan prinsiplərdən istifadə olunmasının mənfi nəticələri müasir dövrdə özünü biruzə verir və regionların formalaşmasına böyük təsir göstərir, indiyə kimi regionlararası fərqlənmələr müşahidə olunur. Belə ki, respublikamızın hər bir regionu güclü potensial imkanlara (sənaye əhəmiyyətli təbii sərvətlərə, ucuz işçi qüvvəsinə) malik olmasına baxmayaraq, hal-hazırda ölkə miqyasında sənaye müəssisələrinin ərazi üzrə yerləşdirmə səviyyəsi bu potensial imkanların mövcudluğuna uyğun gəlmir. Belə ki, 2014-cü ildə ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin böyük hissəsi bir regionda cəmlənmişdir. Yəni ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin 57,6 faizi Abşeron iqtisadi rayonunda (Bakı

şəhəri daxil olmaqla) yerləşir. Bunun nəticəsi olaraq istehsal olunan sənaye məhsulunun 89,5 faizi bu rayonun payına düşür.

Belə bir şəraitdə yerli resurslardan səmərəli istifadə edilməsi və ölkədə yaranmış bir sıra sosial və iqtisadi problemlərin səmərəli həllinin ən mühüm şərtlərindən biri fikirmizcə sənaye istehsalının ərazi quruluşunun təkmilləşdirilməsidir. Bütün bunlar isə bu sahədə elmi araşdırmaların aparılmasını zəruri edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın məqsədi sənaye istehsalının ölkə ərazi və regionları üzrə yerləşdirilməsinin kompleks və hərtərəfli təhlili əsasında onun təkmilləşdirilməsinə və regionlarda sənaye istehsalının səmərəliliyinin artırılmasına dair nəzəri və praktiki cəhətdən əsaslandırılmış təklif və tövsiyyələr verməkdən ibarətdir.

Tədqiqatın məqsədinə uyğun olaraq magistr işi yazılarkən qarşıya aşağıdakı vəzifələr qoyulmuş və həllini tapmışdır:

– sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin mahiyyət və prinsiplərini vəona təsir edən amilləri araşdırmaq;

– sənaye müəssisələrinin yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması metodikasını müəyyənləşdirmək;

– müasir şəraitdə ölkənin regionlarında sənayenin müasir vəziyyətini təhlil etmək;

– regionlarda sənaye müəssisələrinin inkişaf problemlərini təhlil etmək;

– regionlarda sənaye istehsalının perspektiv inkişaf istiqamətlərini müəyyənləşdirmək;

– ölkə ərazisində sənaye müəssisələrinin ərazi üzrə təşkilinin dövlət tərəfindən tənzimlənməsi yollarını göstərmək.

**Tədqiqatın obyekti** Azərbaycan sənayesi və onun ərazi üzrə yerləşdirilməsidir.

**Tədqiqatın predmetini** sənaye istehsalının ərazi strukturunun formalaşması qanunauyğunluqları, bazar mexanizminin və dövlət siyasətinin istehsalın ərazi üzrə təşkilinə təsiri məsələləri, bazar münasibətləri şəraitində sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin təkmilləşdirilməsi metod və üsulları təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsasını** iqtisad elminin klassiklərinin istehsalın ərazi üzrə səmərəli təşkili haqqında müddəaları, əcnəbi iqtisadçı alimlərin sənaye istehsalının ərazi üzrə təşkili problemlərinə həsr edilmiş elmi tədqiqatları, dünya ölkələrinin təcrübəsi, respublikamızın iqtisadçı alimlərinin bu mövzu ilə əlaqədar nəzəri fikirləri və s. təşkil edir.

Dissertasiya işi yazılarkən müəllif tərəfindən problemlə əlaqədar Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanun, qərar və proqramlardan, respublika prezidentinin fərmanlarından, hökumətin qərar və sərəncamlarından, dövlət proqramlarından və digər normativ sənədlərdən istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi-yeniliyinə aşağıdakıları aid etmək olar:

– sənaye müəssisələrinin yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması metodikası müəyyənləşdirilmişdir;

– respublikanın hər bir iqtisadi rayonunun sənaye potensialı araşdırılmış və ondan səmərəli istifadə yolları göstərilmişdir.

– ölkə ərazisində sənaye müəssisələrinin ərazi üzrə təşkilinin dövlət tərəfindən tənzimlənməsi yolları araşdırılmış və səmərəli təkliflər verilmişdir.

**Dissertasiya işinin həcmi, quruluşu:** Dissertasiya işi giriş, üç fəsil və nəticədən ibarət olub, 1,5 intervallı kompyuter yazısı ilə95səhifədən ibarətdir. İşin sonunda 48 ədəbiyyat göstərilmişdir.

# I FƏSİL

# SƏNAYENİN ƏRAZİ ÜZRƏ YERLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ MƏSƏLƏLƏRİ

## 1.1.Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin mahiyyəti və prinsipləri

İstehsalın intensivləşdirilməsi, onun səmərəliliyinin artırılması və bunun əsasında xalqın maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsi istənilən dövlətin iqtisadi strategiyasının əsasını təşkil edir. Bu problemlərin müvəffəqiyyətli həlli müəyyən mənada sənaye istehsalının ərazi üzrə düzgün yerləşdirilməsinin yaxşılaşdırılmasından, dövlətlərin, regionların təsərrüfatlarının daha da ixtisaslaşdırılmasından və proporsional inkişafından, onların malik olduğu yerli ehtiyatlardan daha səmərəli istifadə etmək məqsədilə müxtəlif səviyyəli ərazi-istehsal komplekslərinin formalaşması və inkişafından asılıdır. Sənaye istehsalının səmərəli yerləşdirilməsi, cəmiyyətin inkişafına göstərdiyi müsbət təsir ilk növbədə sənaye istehsalının mahiyyətindən irəli gəlir.

İqtisadiyyatın inkişafının müasir mərhələsində sənaye istehsalının düzgün yerləşdirilməsinin mühüm əhəmiyyəti vardır. Ölkənin sosial-iqtisadi inkişafını elmi-texniki tərəqqi əsasında sürətləndirmək sahəsində qarşıda duran vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsi müəyyən mənada sənaye istehsalının səmərəli yerləşdirilməsindən asılıdır (14.s.6-7).

Sənaye istehsalının səmərəli yerləşdirilməsi isə öz növbəsində cəmiyyətin inkişafının mühüm ictimai-iqtisadi problemləri ilə qarşılıqlı əlaqədədir. Sənaye istehsalının səmərəli yerləşdirilməsi ictimai istehsalın dinamizminin, səmərəliliyinin artırılmasını təmin edir. Bununla yanaşı sənaye istehsalının səmərəli yerləşdirilməsi ictimai əməyə qənaət olunmasını, əmək ehtiyatlarından və digər imkanlardan məqsədəuyğun istifadə edilməsi yolu ilə bir regionun kompleks qaydada səmərəli inkişafını təmin edir. Əhalinin maddi rifah halının yüksəldilməsi şəhərlə kənd, zehni əməklə fiziki əmək, mədəni-məişət xidmət səviyyəsinə görə rayonlar arasındakı fərqlərin aradan qaldırılmasında mühüm rol oynayır.

Qeyd etmək lazımdır ki, sənaye istehsalının yerləşdirilməsinin müasir formaları təsərrüfatın ərazi üzrə təşkilinin təkmilləşdirilməsinə və regionların iqtisadiyyatının formalaşmasına dərin təsir göstərir. Təsərrüfatın regional strukturu bunun əsasında daim dəyişir, istehsal və sosial infrastruktur yenidən qurulur və genişlənir. İstehsalın müasir sahələrinin tərkibinin genişləndirilməsi əsasında ixtisaslaşdınlmanın daha da inkişaf etdirilməsi regionların iqtisadiyyatının strukturunun keyfiyyətcə dəyişməsinə gətirib çıxarır. Eyni zamanda, rayonlararası və rayondaxili istehsal əlaqələri genişlənir. Müxtəlif səviyyəli ərazi istehsal birləşmələrinin miqdarı artır.

İctimai istehsalın ərazi üzrə təşkili müəyyən qanunauyğunluqların təsirinin nəticəsidir. Bu qanunauyğunluqlar öz növbəsində hər hansı bir cəmiyyətdə iqtisadi qanunların spesifik təzahür formalarıdır. Xalq təsərrüfatının iqtisadi qanunlarla bağlı ərazi üzrə təşkilinin qanunauyğunluqlarını bilmək təkcə onların obyektiv istiqamətini və xarakterini müəyyən etmək deyil, həm də bu qanunauyğunluqları tətbiq etməyi bacarmaq, yəni onlardan iqtisadiyyatın konkret inkişaf mərhələsində, ayrı-ayrı rayonların konkret sosial-iqtisadi şəraitində istifadə etməyi bacarmaq deməkdir. Qanunauyğunluqlardan istifadə mexanizmi sənaye istehsalının ərazi üzrə təşkilinin elə metodlarının seçilməsini nəzərdə tutur ki, bu zaman seçilən metodların geniş miqyasda təzahürünə imkan verilməli, həm də qanunauyğunluqlar biri-biri ilə qarşılıqlı əlaqədə olmalıdır (14.s.7).

Ümumiyyətlə, buradan belə nəticə çıxır ki, xalq təsərrüfatının elmi surətdə əsaslandınlmış ərazi təşkili və idarə edilməsi dövlət siyasətinin əsas qaydalarının, yəni xalq təsərrüfatının ərazi üzrə təşkili prinsiplərinin işlənib hazırlanması ilə nəticələnir.

Müasir şəraitdə sənaye istehsalının səmərəli yerləşdirilməsində istifadə olunan elmi cəhətdən əsaslandırılmış prinsiplər aşağıdakılardan ibarətdir: (11.s.261-263)

**Sənaye istehsalının xammal mənbələrinə və istehlak rayonlarına yaxınlaşdırılması prinsipi.**

Bu prinsipə riayət olunması ən vacib məsələlərdən biridir. Çünki bu prinsipə riayət etməklə ölkə ərazisində mövcud olan təbii resursların səmərəli şəkildə təsərrüfat dövriyyəsinə cəlb olunması məsələsini həll edir, əlavə nəqliyyat xərclərini azaldır, yəni xammalın uzaq məsafələrə daşınmasının qarşısını alır, müəssisələrin ixtisaslaşması səviyyəsini və onların optimal ölçüsünü müəyyən edir, nəticə etibarilə ictimai istehsalın iqtisadi səmərəliliyini yüksəldir.

**Sənaye istehsalının ölkə ərazisi üzrə birqərarda yerləşdirilməsi prinsipi.**

Sənaye müəssisələrinin ərazi üzrə təşkilində bu prinsipə riayət olunması ilə ölkəmizin bazar iqtisadiyyatına keçid dövründə mövcud olan ən aktual sosial-iqtisadi problemlərinin həllində köməklik göstərmək olar, yəni bu prinsipə riayət olunması ölkənin iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının tarazlığını təmin edir, onların təbii resurslarından və əmək ehtiyatlarından səmərəli istifadə məsələsini həll edir, əhalinin qeyri-mütəşəkkil miqrasiyasının qarşısını alır, bundan əlavə bu və ya digər sosial problemlərin həllində də köməklik göstərir.

**İqtisadi rayonlar arasında səmərəli əmək bölgüsü və onların təsərrüfatlarının kompleks inkişafı prinsipi.**

Bu prinsipin rəhbər tutulması iqtisadi rayon təsərrüfatlarının kompleks inkişafını təmin etməklə həm də onların sənaye istehsalı üzrə ixtisaslaşma istiqamətlərini müəyyən edir. İqtisadi rayonun xüsusiyyətləri, onun xalq təsərrüfatı kompleksində rolu və yeri, təbii iqtisadi şəraiti nəzərə alınmaqla rayonun sənaye profili müəyyən olunur, sənayenin həmin rayon üçün səciyyəvi olan aparıcı sahəsinin inkişafına üstünlük verilir.

İqtisadi rayonların kompleks inkişafını təmin etmək üçün yerli xammala istinad olunmalıdır. "Kompleks" inkişaf naminə uzaq rayonlardan xammalın daşınması yolverilməzdir.Çünki belə halda arzu olunan nəticəyə nail olmaq qeyri-mümkün bir işə çevrilir, komplekslikdən alınan iqtisadi və sosial səmərə lüzumsuz nəqliyyat xərcləri hesabına azalır.

**İqtisadiyyatın beynəlmiləlləşdirilməsi və beynəlxalq əmək bölgüsündə iştirakının zəruriliyi prinsipi.**

Bu prinsip bazar iqtisadiyyatı şəraitində dünya ölkələri ilə xarici iqtisadi fəaliyyətə girmək məqsədilə birgə müəssisələrin yaradılmasında və inkişafında mütləq nəzərə alınmalıdır. İqtisadiyyatın beynəlmiləlləşdirilməsi və beynəlxalq əmək bölgüsündə iştirakının zəruriliyi prinsipinin rəhbər tutulması ölkə sənayesinin sahə quruluşunu təkmilləşdirməklə məhsuldar qüvvələrin ərazicə səmərəli təşkilinə təminat verir, dünya ölkələri ilə qaşılıqlı iqtisadi faydalanma əsasında əməkdaşlıq etməyi ön plana çəkir.

Burada daha bir məsələ xarici investorların sərmayə qoymaq istəklərinin dövlətin müvafiq qurumları tərəfindən diqqətlə öyrənilməsinin zəruriliyidir. Xarici investorun sərmayəsini yönəltmək üçün hansı sahəni seçməsinə müstəqillik verilməlidir. Bu təbiidir, çünki onun məqsədi gəlir əldə etmək olduğundan, o, bu işdə özünün səriştəliliyinə, şəxsi təsrübəsinə, qorxu və cəsarətinə əsaslanır. Lakin həmin sənaye obyektinin harada inşa edilməsi məsələsi məhsuldar qüvvələrin yerləşdirilməsinə dair prinsiplər nəzərə alınmaqla həll olunmalıdır.

Sənaye istehsalını yerləşdirməzdən əvvəl inşa olunacaq müəssisənin ölçüsü müəyyən edilərkən onun məhsullarının ixracat imkanı diqqətdən yayınmamalı, qonşu ölkələrin həmin məhsula ehtiyacları nəzərə alınmalıdır.

**Ölkənin xarici təcavüzdən müdafiəsi və ətraf mühitin qorunması prinsipi.**

Bu prinsipə əməl olunmasının çox böyük sosial-iqtisadi əhəmiyyəti vardır. Belə ki, müasir dövrdə ölkənin xarici təcavüzdən müdafiəsi və ətraf mühitin qorunması problemi dünyanın bütün ölkələri üçün ən aktual problemlərdəndir. Keçmiş SSRİ-nin tərkibində olduğumuz dövrdə bu prinsipə heç cür riayət olunmamışdır. O dövrdə respublikamızda sənayenin ərazi üzrə yerləşdirilməsini mərkəz həll edirdi. Bunun nəticəsidir ki, Azərbaycanda ekologiya bərbad hala düşmüşdür.

Azərbaycan Respublikasında sənaye istehsalının yerləşdirilməsinin elmi cəhətdən əsaslandırılmış prinsipləri ilə yanaşı özünəməxsus cəhətləri də mövcuddur ki, onları nəzərə almamaq olmaz. Bu cəhətlər aşağıdakılardan ibarətdir: (11.s.263)

– Azərbaycan Respublikasının sənaye profilini müəyyən edən neft tədricən tükənən və bərpası mümkün olmayan təbii sərvətlər sırasına daxildir;

– Perspektivdə sənayenin sahə və ərazi quruluşlarının optimallaşdırılması və zənginləşdirilməsi;

– Xammaltutumlu sənaye sahələrinin inkişafından əmək və elmtutumlu sənaye sahələrinin inkişafına keçmək;

– Miqrasiyaya laqeydliyin mövcudluğu və artıq əmək resurslarından yerlərdə istifadəyə nail olmaq;

– Ənənəvi sənaye mərkəzlərində ehtiyat ərazinin tükənməsi, elmi idarələrin və tədris müəssisələrinin həmin mərkəzlərdə təmərküzləşməsi, yüksək təhsil senzinə malik azad əmək resurslarının pərakəndəliyi;

– təbii-iqtisadi imkanların gerçəkləşməsində yeni müəssisə və müəssisə filiallarının yerləşdirilməsində dəqiq əsaslandırılmaların aparılması;

– sənaye istehsalı üzrə beynəlxalq əməkdaşlıq və respublikamızın əlverişli nəqliyyat-coğrafi şəraitə malik olması;

– filial və ya müəssisənin yerləşdiriləcəyi rayon seçilərkən əhalinin ənənəvi sənətkarlıq yönümünün, dini adətlərinin və s. amillərin nəzərə alınması.

Bazar iqtisadiyyatı münasibətləri şəraitində qeyd edilən prinsiplərin nəzərə alınması istehsalın ərazi üzrə səmərəli təşkili baxımından çox ciddi əhəmiyyət kəsb edir. Çünki, istehsalın ərazi üzrə təşkilinin prinsiplərinin müəyyən olunmasında yol verilmiş səhvlərin sonradan düzəldilməsi ciddi itkilərlə müşaiyət olunur.

## 1.2. Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinətəsir edən amillər

Sənaye müəssisələrinin ərazi üzrə yerləşdirilməsində elmi cəhətdən əsaslandırılmış prinsiplərə riayət etməklə yanaşı, bu prosesə təsir edən müxtəlif amillər də mütləq nəzərə alınmalıdır. Sənayenin ərazi üzrə yerləşdirilməsinə təbii amillər, əmək ehtiyatları, texniki amillər, istehsalın ictimai təşkili formaları, nəqliyyat amilləri və sosial qəbildən olan amillər təsir göstərir. Bütün bu amillər bir-birinə təsir göstərir. Sənayenin yerləşməsinə onların təsir dərəcəsi ölkənin ayrı-ayrı iqtisadi rayonlarının məhsuldar qüvvələrinin inkişaf səviyyəsindən, sənayenin ayrı-ayrı sahələrinin iqtisadi xüsusiyyətlərindən asılıdır. Gələcək müəssisələrin tikilməsi və istifadə edilməsinin iqtisadi göstəriciləri həmin amillərin düzgün nəzərə alınmasından asılıdır. Sənayedə ictimai əmək məhsuldarlığının səviyyəsini və deməli, sənaye istehsalının ayrı-ayrı sahələrini yerləşdirərkən əldə edilən iqtisadi səmərəliliyi həmin amillər müəyyənləşdirir. (13.s.141-142)

İndi isə həmin amillərin bəzilərinin sənayenin ərazi üzrə yerləşdirilməsinə təsir xüsusiyyətlərini nəzərdən keçirək.

Qeyd etdiyimiz kimi, sənaye müəssisələrinin ərazi üzrə yerləşdirilməsinə təsir göstərən amillərdən biri təbii amillərdir. Həmin təbii amillərə aşağıdakılar aiddir - ölkənin ayrı-ayrı regionlarının faydalı qazıntıları, regionlarda əhalinin məskunlaşma coğrafiyası, su enerjisindən istifadə olunmasının mümkünlüyü, təbii su yolunun mövcudluğu, meşə resurslarının kəmiyyət və keyfiyyət xarakteristikası, regionun iqlim şəraiti və s. Sənaye istehsalının yerləşdirilməsinə təsir göstərən təbii amilin formaları sənayenin ayrı-ayrı sahələrinin yerləşdirilməsində özünəməxsus xüsusiyyətdə təsir bağışlayır. Belə ki, hasiledici sənaye sahələrində, su energetikasında təbii şərait müəssisələrin tikintisinə və istifadə edilməsinin bütün texniki-iqtisadi göstəricilərinə bilavasitə təsir göstərir. Regionda mövcud olan faydalı qazıntıların yatım xarakteri, ehtiyatların kəmiyyət xarakteristikası, qazıntıların fiziki-kimyəvi xassələri hasiledici sənaye müəssisələrinin təmərküzləşmə səviyyəsini, hasilat metodlarını, çıxarılan

maddələrin ilkin emalının xarekterini müəyyən edir. İqtisadi səmərəlilik göstəricilərinin kəmiyyəti mədən müəssisələrinin ölçüsündən, hasilat texnikasından, çıxarılan maddələrin xassələrindən asılıdır. Məlumdur ki, xüsusi əsaslı vəsait qoyuluşları, məhsulun maya dəyəri və əmək məhsuldarlığı kimi göstəricilər kömürün, filizlərin kimyəvi xammalların açıq üsulla çıxarıldığı iri mədən çıxarma müəssisələrində, tərkibində faydalı komponentlərin faizi çox olan faydalı qazıntıların çıxarılmasında daha əlverişli olur. Əlverişli təbii şərait daha az istismar xərcləri ilə iri su elektrik stansiyaları yaratmağa imkan verir. Təbii şərait hasiledici sənayenin yerləşdirilməsi vasitəsilə emaledici sənayenin bir sıra sahələrinin yerləşməsinə də təsir göstərir. Belə ki, qara və əlvan metallurgiya müəssisələri filizlərin çıxarıldığı yerə, ağac emalı müəssisələri oduncağın tədarük edildiyi yerə meyl edir; enerji tutumlu sahələr ən çox yanacaq və elektrik enerjisi mənbələrinin yaxınlığında yerləşdirilir.

Təbii amilin formalarından biri olan su ehtiyatı sənayenin bir çox sahələrinin, məsələn, qara metallurgiya müəssisələrinin, su elektrik stansiyalarının, kimya sənayesinin və digər sahələrin yerləşdirilməsinə mühüm təsir göstərir. Regionda kifayət qədər su ehtiyatının olmaması, hətta metallurgiya üçün lazımi qədər xammal ehtiyatı olduqda belə qara metallurgiya zavodlarının yaranmasını ləngidə bilər.

Təbii amil kimi iqlim şəraiti də sənayenin ərazi üzrə yerləşməsinə özünəməxsus formada təsir göstərir. Belə ki, iqlimi soyuq olan rayonlarda mənzil, paltar, qida məsrəfləri iqlimi isti olan rayonlara nisbətən çox olur. İqlimi soyuq olan rayonlarda müəssisələri tikərkən əsaslı vəsait qoyuluşları iqlimi isti olan rayonlardakından çox olur və onun istismar xərcləri də yüksəkdir.

Qeyd etmək lazımdır ki, müasir dövrdə elmi-texniki tərəqqinin yüksək səviyyədə inkişaf etməsi nəticəsində sənaye istehsalının yerləşməsinə təsir edən təbii amillərin təsirini texniki amillər qismən də olsa zəiflədir. Belə ki, əgər təbii amil sənaye müəssisələrinin yerləşməsini xammal bazasından, təbii resursların olub-olmamasından asılı edirsə, texniki amil, əksinə həmin məsələdəki gərginliyi bir çox hallarda ciddi surətdə

azaldır. Mineral xammal və yanacaq növlərinin hasilatı, saflaşdırılması və emalının yeni metodları əvvəllər istifadəsi qeyri-mümkün olan yataqları sənayenin istifadə dairəsinə müvəffəqiyyətlə cəlb etməyə imkan verir. Qeyd etmək lazımdır ki, elmi-texniki tərəqqi sənayenin bir çox sahələrinin yerləşməsinə təbii amilin təsirini yalnız zəiflədə bilər, amma onu tamamilə aradan qaldıra bilməz Buna görə də müasir şəraitdə, dövlət və ya sənaye fəaliyyəti ilə məşğul olan hər bir sahibkar fəaliyyətə başlayacağı sənayenin yerləşməsini planlaşdırdıqda, müəssisələrin yaradılacağı rayonun seçilməsini, rayonların istehsal ixtisaslaşmasını və faydalı qazıntıların ayrı-ayrı yataqlarının öyrənilməsini və iqtisadi cəhətdən hərtərəfli səciyyələndirilməsini, iqtisadi cəhətdən ən səmərəli variantı seçmək məqsədi ilə hər varianta miqdar cəhətdən iqtisadi qiymət verməlidir.

Təbii şəraiti iqtisadi cəhətdən qiymətləndirmədən və onların təsirini nəzərə almadan ölkənin ayrı-ayrı iqtisadi rayonları üzrə sənayenin səmərəli yerləşdirilməsi mümkün deyil. Bunun üçün ölkənin rayonları üzrə xammalın, yanacağın və enerjinin potensial ehtiyatları barədə, onların öyrənilməsi dərəcəsinə, ayrı-ayrı ehtiyatların kəmiyyət xarakteristikasına və keyfiyyət xassələrinin təsnifatına dair ümumi məlumatlara malik olmaq lazımdır.

Qeyd etdiyimiz kimi, sənaye istehsalının yerləşdirilməsinə təsir göstərən ən mühüm amillərdən biri də elmi-texniki tərəqqidir. Sənaye istehsalının yerləşdirilməsinə elmi-texniki tərəqqinin bir neçə əsas istiqamətləri, elektrikləşdirmə, kimyalaşdırma, texnoloji proseslərin xarakteri və təkmilləşdirilməsi bilavasitə təsir göstərir.

Elektrikləşdirmə məlum olduğu kimi, sənayenin bütün sahələrinin yerləşdirilməsinə bu və ya digər dərəcədə təsir göstərir. Əsasən, sənayenin enerjiyə daha çox tələbatı olan sahələri (elektrometallurgiya, süni liflər istehsalı və s.) ucuz elektrik enerjisinin istehsalının cəmləşdiyi regionlarda, yəni zəngin yanacaq ehtiyatları olan zonalarda yerləşdirilir. Müasir dövrdə elmi-texniki tərəqqinin yüksək inkişafı nəticəsində, elektrik enerjisinin uzaq məsafələrə verilməsi ayrı-ayrı sənaye müəssisələrinin istənilən yerdə yerləşdirilməsində təbii-coğrafi şəraitin təsirini azaltmağa imkan verir. Bununla yanaşı

elektrikləşdirmənin sənaye istehsalının yerləşdirilməsinə təsiri nəqliyyat xərclərinin azaldılması vasitəsilə həyata keçirilir. Belə ki, dəmir yol nəqliyyatının elektrikləşdirilməsi xammal, material və hazır məhsulun daşınması zamanı nəqliyyat xərclərinin azaldılmasına imkan verir.

Müasir şəraitdə elmi-texniki tərəqqinin əsas istiqamətlərindən biri olan kimyalaşdırmanın sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinə təsiri getdikcə artmaqdadır. Belə ki, maddələrin kimyəvi üsullarla emal edilməsi emaledici sənaye sahələrinin yerləşdirilməsini təbii şəraitin təsirindən qismən də olsa azad edir. Bundan əlavə elmi-texniki tərəqqinin inkişafı nəticəsində kimyalaşdırmanın əhatə dairəsinin genişləndirilməsi müxtəlif növ və xassəli enerji və xammal ehtiyatlarını emal etmək üçün yeni imkanlar açır. Bu da müxtəlif regionlarda bir çox istehsalın xammal bazasını genişləndirir, sənayenin ərazi üzrə təşkilinin elmi cəhətdən əsaslandırılmış prinsiplərini düzgün həyata keçirməyə, xüsusən də sənaye istehsalının ölkənin ərazisi üzrə birqərarda yerləşdirilməsinə imkan yaradır.

Elmi-texniki tərəqqinin digər istiqamətləri olan avtomatlaşdırma və kompleks mexanikləşdirmənin də sənaye istehsalının yerləşdirilməsinə təsiri böyükdür. Belə ki, təbii amil kimi mövcud olan əmək resurslarının məhdudluğunu zəiflədə bilər və bununla da əmək resursları məhdud olan regionlarda sənaye istehsalının yerləşdirilməsinə geniş şərait yaratmış olar.

Sənaye istehsalının yerləşdirilməsinə qeyd etdiyimiz amillərlə yanaşı istehsalın ictimai təşkili formaları da, məsələn, təmərküzləşmə, ixtisaslaşma, kooperativləşmə və kombinələşmə ciddi surətdə təsir göstərir.

İstehsalın təmərküzləşməsi, bir sözlə, iri müəssisələrin bir yerdə cəmlənməsi, təbiidir ki, bu da güclü xammal, yanacaq-energetika bazasının yaradılmasını tələb edir. Təmərküzləşmə prosesi nəticəsində yaranan iri müəssisələr böyük həcmdə xammal, material və energetika istehlak etdikləri, onların özlərinin istehsal etdikləri məhsulların

istehlakçılarının çoxluğu və hazır məhsulların daşınma radiusunun böyüklüyü böyük həcmdə nəqliyyat xərcləri tələb edir.

İstehsalın ictimai təşkili formalarından biri olan ixtisaslaşdırma, təmərküzləşdirmə formasında olduğu kimi nəqliyyat amili ilə sıx surətdə bağlı olur. İxtisaslaşdırılmış müəssisələrdə istehsal olunmuş məhsulların istehlakçılara çatdırılma məsafəsinin böyüklüyü, digər tərəfdən xammal və materialların digər müəssisələrdən ixtisaslaşdırılmış müəssisəyə daşınma prosesi yük daşıma işlərini xeyli dərəcədə artırır (11. s. 265).

İstehsalın ictimai təşkili forması olan kooperativləşmənin sənayenin yerləşdirilməsinə təsiri, ərazi-istehsal komplekslərinin yaradılması zərurətini meydana çıxarır. Ərazi-istehsal komplekslərinin yaradılması, əsasən, bu kompleksə daxil olan ayrı-ayrı müəssisələr arasında rayondaxili və rayonlararası kooperasiya əlaqələrinin yaranmasının zəruriliyini tələb etdiyindən, sənaye istehsalının yerləşdirilməsində bu amilin nəzərə alınması vacibdir. Kooperasiya əlaqələrini nəzərə almadan yerləşdirilən sənaye obyektlərinin iqtisadi səmərəliliyini düzgün müəyyən etmək olmaz. Sənaye istehsalının ərazi üzrə təşkili zamanı kooperasiya əlaqələri tələb edən, xüsusən maşınqayırma, kimya, yüngül sənaye sahələrinin yerləşdirilməsi də elmi cəhətdən əsaslandırılmış prinsiplərə əsaslanmalıdır.

İstehsalın kombinələşdirilməsi sənayenin müxtəlif ərazilərdə yerləşdirilməsinə təsir göstərir. Kombinələşdirmə zamanı tullantıların bir çox növləri sənayenin müxtəlif sahələri üçün ilkin xammal olur ki, bu da həmin istehsal üçün təbii xammal ehtiyatları olmayan rayonlarda müxtəlif istehsal sahələrini yerləşdirməyə imkan verir. Kombinələşdirmə nəqliyyat amilinin yerləşdirməyə təsirini bir qədər azaldır, çünki bir istehsaldan alınan yarımfabrikatlar və ya yarımməhsullar sonradan bilavasitə həmin kombinatın başqa istehsallarında emal edilir.

Sənaye istehsalının yerləşdirilməsinə ciddi surətdə təsir göstərən amillərdən biri də nəqliyyat amilidir. Sənaye sahələrində istehsal olunan məhsulların maya dəyərinin həcmi ölkə ərazisi üzrə sənaye istehsalının necə yerləşdirilməsindən də asılıdır. Səna-

yenin ərazi üzrə yerləşdirilməsinin yaxşılaşdırılması xammalın və hazır məhsulun həddən artıq uzaq məsafələrə səmərəsiz daşınmasını azaltmağa imkan verir. Bu da öz növbəsində sənaye məhsullarının ayrı-ayrı növlərinin maya dəyərində xammal, material və yanacağın daşınma xərclərinin payını xeyli dərəcədə azaltmağa geniş şərait yaradır. Buna görə də nəqliyyatın təsiri altında sənayenin bəzi sahələri xammal mənbələrinin yaxınlığında, digərləri onların məhsullarının istehlak yerlərində, digər sahələr isə ucuz enerji mənbələrinin yaxınlığında yerləşdirilir. Bütün bunlar aşağıdakı cədvəldəki kimi qruplaşdırılır:

Cədvəl 1.1

| Sənayenin | | |
|---|---|---|
| xammalmənbələrinə | enerjimənbələrinə | istehlakrayonlarına |
| doğrumeyledənsahələri | | |
| qarametallurgiya | elektrometallurgiya | metaltutumuazolanmaşınqayırmaistehsalları |
| əlvanmetallurgiya | elektrokimya | neftemalı |
| maşınqayırmanınmetaltutumluistehsalları | yüngülmetallar | şüşə, mebel, tikiş, trikotaj |
| əsaskimya | süniliflər | un, ət-süd |
| pambıqtəmizləmə, yun, konservvəs. | | pambıqparça |

Bir faktı da qeyd etmək lazımdır ki, sənaye istehsalının ərazi üzrə təşkili prosesində nəqliyyat amilinin təsirini hasilat sənaye obyektlərinin yerləşdirilməsinə aid etmək olmaz. Ona görə ki, faydalı qazıntı məkanca haradadırsa hasilat sənayesi də orada yerləşdirilməlidir. Lakin emaledici sənaye müəssisələri hasilat sənayesindən fərqli olaraq ərazi üzrə yerləşdirilərkən həm hasilat sənaye obyektlərinin yanında, həm də tamamilə başqa rayonlarda təşkil oluna bilər. Emaledici sənaye obyektlərinin yerləşmə yerini seçərkən nəqliyyat amilinin təsiri nəticəsində çoxvariantlıq yaranır ki, onlardan da ən əlverişlisini seçmək üçün yaranan variantları texniki-iqtisadi cəhətdən əsaslandırmaq lazımdır.

Yeni bazar iqtisadiyyatı sisteminə keçmiş Azərbaycan Respublikasında sənaye istehsalının ərazi üzrə təşkili işində nəqliyyat amilinin rolu olduqca böyük olacaqdır.

Qeyd etmək lazımdır ki, respublikamızın xarici ölkələrlə iqtisadi əlaqələrini genişləndirmək üçün çox əlverişli nəqliyyat coğrafi şəraiti mövcuddur və bunu gələcəkdə genişləndirmək üçün əlavə imkanlar da vardır.

Hal-hazırda yaxın xarici ölkələrə istehsal olunan məhsulu ixrac və idxal etmək üçün sərfəli dəmir yolu şəbəkəsi və dəniz nəqliyyatından istifadə etmək imkanı kifayət qədərdir. Bunlarla yanaşı son vaxtlar TRASEKA proqramı çərçivəsində həyata keçirilən “Tarixi İpək Yolu”nun bərpası da respublikamızda sənaye istehsalının yerləşdirilməsi işinə müsbət təsir göstərəcəkdir.

Sənaye istehsalının ərazi üzrə təşkili işinə təsir göstərən həlledici amillərdən biri də demoqrafik amillərdir. Demoqrafik amillərə: ölkənin ayrı-ayrı rayonlarında əmək ehtiyatlarının kəmiyyət və keyfiyyət xarakteristikası, kadrların ixtisas səviyyəsi, əmək qabiliyyətli əhalinin sənaye istehsalına cəlb olunma imkanları və s. aiddir.

Əmək ehtiyatlarının coğrafiyası hər şeydən əvvəl sənayenin çox zəhmət tələb edən sahələrinin yerləşdirilməsinə təsir göstərir. Ölkənin ərazisi üzrə əhalinin yerləşməsi ictimai istehsalın yerləşməsinin nəticəsi olsa da, yeni sənaye obyektlərinin tikilməsi yerini seçərkən həmin dövrdə məhsuldar qüvvələrin ərazi üzrə təşkilinin faktiki vəziyyətini nəzərə almaq lazımdır. Ayrı-ayrı rayonlarda əmək ehtiyatlarının strukturunu və ixtisas tərkibini nəzərə almaq lazımdır. Lakin vaxtilə Azərbaycan Respublikasında bu amillər nəzərə alınmadan ölkənin rayonları üzrə sənaye obyektləri qeyri-bərabər yerləşdirilmişdir və bunun nəticəsində ölkənin ucqar rayonlarında bir çox sosial-iqtisadi problemlər yaranmışdır. Belə ki, ucqar rayonların əhalisinin respublikanın paytaxtına və yaxud da xarici ölkələrə miqrasiyasına səbəb olmuşdur.

Yeni yaradılacaq sənaye obyektinin yerləşmə yerini seçərkən sosial qəbildən olan amilləri, xüsusən ətraf mühitin qorunmasını, əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, qeyri-istehsal sahələrinin inkişaf etdirilməsini və bunlarla yanaşı xalqa məxsus olan milli adət və ənənələri mütləq nəzərə almaq lazımdır.

Sənaye istehsalını ərazi üzrə səmərəli yerləşdirmək üçün yuxarıda sadalanan amillərlə yanaşı sənayenin ayrı-ayrı sahələrinin yerləşmə xüsusiyyətləri də nəzərə alınmalıdır. Sənaye sahələrini yerləşdirərkən aşağıdakı xüsusiyyətlər nəzərə alınır:

– sənaye sahəsində istehsal edilən məhsulun iqtisadi təyinatı, kütləvilik dərəcəsi və ölkənin iqtisadi rayonları üzrə istehlakçı miqyasları, məhsulun daşınmaya davamlılığı;

– sahədə istehlak olunan ilkin xam materialların xarakteri, ölkənin ərazisi üzrə xammal ehtiyatları mənbələrinin yayılma dərəcəsi, sənaye xammalının ən mühüm növlərinin daşınmaya davamlılığı;

– sahənin texniki bazası, tətbiq edilən texnologiyanın xarakteri, istehsalın istilik və enerji tutumu, suya tələbat dərəcəsi, istehsal tullantılarının xarakteri və s;

– müəssisənin tipi, onların ölçüsü, strukturu, ixtisaslaşma xarakteri və kombinələşmə imkanı;

– həmin sahənin rayonun iqtisadi kompleksinin ixtisaslaşmasına və profilinə təsir dərəcəsi, sahənin müəssisələrinin iri yaşayış məntəqələrinin əmələ gəlməsinə təsiri.

Göstərilən bu xüsusiyyətlərin yerləşməyə təsiri sənayenin ayrı-ayrı sahələrində bir-birindən fərqli olur. Belə ki, elektrik stansiyalarını yerləşdirərkən, mineral yanacağın əksər növlərinin daşınmaya az davamlı olmasını və hidravlik ehtiyatların daşına bilinməməsini; elmi-texniki tərəqqi nəticəsində elektrik enerjisinin uzaq məsafələrə verilməsinin mümkün olmasını, iri elektrik stansiyalarının iqtisadi rayonların ixtisaslaşmasına təsirini nəzərə almaq lazımdır. Lakin onu da qeyd etmək lazımdır ki, elektrik stansiyalarının yerləşdirilməsinə enerji istehlakçılarının yerləşməsi və xarakteri, yüksək voltlu veriliş xətlərinin inşasının dəyəri və istismar xərcləri, elektrik enerjisini uzaq məsafələrə verərkən itkilərin kəmiyyəti, elektrik enerjisinin və istiliyin istilik elektrik stansiyalarında kombinələşdirilmiş istehsalının mümkün olması da təsir göstərir.

Sənayenin aparıcı sahələrindən olan qara metallurgiya müəssisələrini yerləşdirərkən metallurgiya istehsalının material tutumunu, ilkin xammalın və hazır məhsulun çətin daşınmasını, istehsal edilən məhsulun nomenklaturasını, müəssisənin tipini (tam

metallurgiya dövrəli kombinat, zavod, emal zavodu), istehsal prosesində çoxlu miqdarda su tələb olunmasını, həçinin iri metallurgiya kombinatlarının sənayenin bir sıra sahələrinin və iri şəhərlərin yaranmasına təsirini nəzərə alırlar. Metallurgiya istehsalının material tutumlu olması müəssisənin filiz və kömür hasil olunduğu yerlərdə yaradılmasını şərtləndirir.

Kimya sənayesinin müxtəlif sahələrini yerləşdirərkən: istifadə olunan xammalların qeyri-məhdud dairəsini, sənayenin bir çox sahələrinin tullantılarının və yanaşı məhsullarının kompleks emalolunma imkanlarını, bir xammal növündən və müxtəlif xam material növlərindən eyni məhsul növünü almağın mümkün olmasını, ölkənin bütün iqtisadi rayonlarında yayılmış xammal növləri əsasında sintetik materialların geniş istehsal imkanının olmasını nəzərə almaq lazımdır.

Maşınqayırma sənayesini yerləşdirərkən: maşınqayırmanın ayrı-ayrı sahələrinin istehsal etdiyi məhsulun xarakterini; sahənin metaltutumluluq dərəcəsini; maşınqayırma məhsulunun kütləvilik səviyyəsini; bu və ya digər iqtisadi rayonda sənayenin və xalq təsərrüfatının başqa sahələrinin ixtisaslaşmasını; iqtisadi rayonun sənaye cəhətdən inkişaf səviyyəsini; ixtisaslaşmanın, xüsusilə detallar üzrə ixtisaslaşmanın və maşınqayırma müəssisələrinin kooperativləşməsinin geniş imkanlarını; hər bir iqtisadi rayonda, hər yerdə maşınqayırmanın bir çox məhsul növlərinin istehlak edilməsini nəzərə alırlar.

Bir sözlə, sənaye istehsalının ərazi üzrə təşkili işində təsir göstərə bilən hər bir amil və xüsusiyyət ayrı-ayrılıqda tam öyrənilməli və elmi cəhətdən əsaslandırılmalıdır.

## 1.3.Sənaye müəssisələrinin yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması metodikası

Sənaye müəsisələrinin iqtisadi cəhətdən əsaslandırılmış yerləşdirilməsi ölkənin təbii və əmək resurslarınn effektiv istifadəsi, səmərəsiz daşınmalara xərclərin azaldıl-

ması, əhalinin sənaye istehsalı məhsullarına tələbatının daha dolğun şəkildə ödənilməsi üçün zəmindir.

Sənaye müəssisələrinin xammal və enerji mənbələrinə yaxın yerləşdirilməsi həmin regionun inkişafına, həmçinin təbii xammal ehtiyatları və enerji mənbələri ilə zəngin olan ətraf ərazilərin də öyrənilib mənimsənilməsinə, ondan kompleks istifadəyə kömək edir. Ağır sənaye müəssisələrinin belə xammal və enerji mənbələrinə yaxın yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması lazımsız xərclərdən qurtulmaq deməkdir. Bundan fərqli olaraq hazır məhsul istehsal edən yüngül sənaye müəssisələri isə istehlakçıya yaxın yerləşdirilir. Bu isə iqtisadi cəhətdən belə əsaslandırılır ki, hazır məhsul istehlakçıya çatdırılarkən ziyan olmasın, müəssisələr lazımsız yol məsrəflərindən xilas olsun. Hər iki halda əsas məqsəd istehsalın səmərəliliyini artırmaq, istehsal xərclərini azaltmaq və əmək məhsuldarlığını artırmaqdan ibarətdir.

Ölkə ərazisində müəssisələrin, istehsal qruplarının yerləşdirilməsi hər zaman elmi əsaslandırma tələb edir. Bunun üçün xüsusi metodlar mövcuddur, onların köməyi ilə yerləşdirilmə variantları seçilir, istehsalın effektivliyi və təsərrüfatın ərazi təşkilinin effektivliyi qiymətləndirilir. İstehsalın yerləşdirilməsinin yüksək effektivliyinin əldə olunması elmin və təcrübənin başlıca vəzifəsidir.

Təsərrüfat subyektlərinin yerləşdirilməsinin nəzəri konsepsiyalarının formalaşmasının başlanğıcını adətən alman alimi İ. Tyunenin 1826-cı ildə "Kənd təsərrüfatına və milli iqtisadiyyata qarşı münasibətdə təcrid olunmuş dövlət" kitabının işıq üzü görməsi ilə əlaqələndirirlər. Öz tədqiqatlarında İ.Tyunen sərhədləri daxilində kənd təsərrüfatı məhsulunun vahid satış bazarının və ölkənin sənaye malları ilə təmin edilməsi mənbəyi mərkəzi şəhərin olduğu abstrakt, iqtisadi cəhətdən təcrid olunmuş dövləti nəzərdən keçirirdi.

Digər alman alimi –V.Launxard (1882-ci il) ayrı-ayrı sənaye müəssisəsinin xammal mənbələrinə və məhsulun satış bazarlarına nisbətdə optimal yerləşdirilməsini tədqiq etmişdi. İstehsal xərcləri tədqiq olunan bütün ərazi üçün bərabər şəkildə qəbul olunurdu.

Müəssisənin optimal yerləşdirilməsi yeri daşınan yüklərin və məsafələrin çəki nisbətlərindən asılı olaraq dəyişirdi (28.s. 56).

İstehsalın yerləşdirilməsi nəzəriyyəsinə alman iqtisadçısı A. Veber də öz töhfəsini vermişdir. Özünün 1909-cu ildə dərc olunmuş “Sənayenin yerləşdirilməsi haqqında: xalis ştandort nəzəriyyəsi” işində o, istehsalın yerləşdirilməsinin amillərinin, onların təsirinə, ümumilik dərəcəsinə və təzahürünə görə ətraflı təsnifatını hazırlamışdı. Yerləşdirmənin əsas amilini o, təsərrüfat fəaliyyətinin yerləşməsindən asılı olaraq onun üçün üzə çıxan iqtisadi faydanı göstərirdi. Bu fayda istehsal üzrə və müəyyən sənaye məhsulunun satışına görə xərclərin ixtisarından ibarətdir və məhsulun istehsalı üzrə ən az xərclərlə hazırlanmasının optimal yerinin seçimi deməkdir (28.s. 65).

Məhsuldar qüvvələrin yerləşdirilməsinin xüsusiyyətlərinin yeni istiqamətlərindən biri İsveç alimi T.Xaqerstrandın “İnnovasiyaların (yeniliklərin) diffuziyası” nəzəriyyəsidir, ona əsasən bütün sosial-iqtisadi inkişaf prosesi – innovasiyaların (diffuziyanın) yaranmasının və yayılmasının nəticəsidir. Yeniliklərin diffuziyası məkan-zaman prosesidir, onun mahiyyəti “uzun dalğaların” gedişatında istehsalın aparıcı sahələrinin dəyişdirilməsi ilə bağlı olan makroiqtisadi və regional inkişaf çərçivələrində innovasiyaların ocaqlarının yaranmasının və onların iqtisadi məkanda diffuziyasının sürətinin başlıca rol oynamasından ibarətdir.

Fransız iqtisadçısı F. Perrunun “Artım qütbləri” nəzəriyyəsi də geniş tanınmışdır. Nəzəriyyənin əsasında yeni əmtəələri və xidmətləri yaradan lider sahələrin iqtisadiyyatın strukturunda aparıcı rolu haqqında təsəvvür durur. Lider sahələrin müəssisələrinin yerləşdiyi iqtisadi məkanın mərkəzləri istehsal amillərinin qütblərinə çevrilirlər, çünki onlar bu amillərin daha effektiv istifadəsini təmin edirlər. Buradan da iqtisadi artım qütblərinin formalaşdırlmasını şərtləndirən müəssisələrin ərazi təmərküzü irəli gəlir.

Perrunun ideyalarının inkişafına artım qütblərinin və yeniliklərin diffuziyasının əsasında urbanizasiya proseslərini analiz edən X.R. Lasuenin və artım qütblərinin

təsnifatını hazırlamış və konkret mərkəzlərin və sahələrin öyrənilməsinə keçidi təklif etmiş D.Darventin böyük töhfəsi olmuşdur (42).

Ümumi halda istehsalın ərazi yerləşdirilməsinin iqtisadi əsaslandırılma metodları özündə aşağıdakı vacib mərhələləri birləşdirir:

- Müasir inkişafın və yerləşdirilmənin analizini;
- Sahənin və ayrı-ayrı müəssisələrin perspektivdə inkişafının əsas şərtlərinin və amillərinin təyin edilməsini;
- Variantların seçimini və optimal inkişaf variantının müəyyən edilməsini.

Birinci mərhələdə istehsalın inkişafında və yerləşdirilməsində disproporsiyalar (ayrı-ayrı mərhələlər arasında uyğunsuzluqlar), istehsal rezervləri öyrənilir, yəni inkişafda və yerləşdirilmədə qüsurlar üzə çıxarılır və onların təkmilləşdirilməsi yolları müəyyən edilir. Bununla belə aşağıdakı göstəricilər nəzərə alınır:

1. xammal resursları ilə təminat;
2. məhsulun naturada və dəyər ifadəsində istehsal həcmi;
3. maya dəyəri;
4. material tutumu;
5. enerji tutumu;
6. kapital qoyuluşları;
7. gəlirlilik (rentabellik);
8. əsas fondların dəyəri, kapital məhsuldarlığı, istehsal obyektlərinin hərəkətə gəlməsi;
9. əmək məhsuldarlığının göstəriciləri.

İstehsalın vacib inkişaf amili bu sahədə istehsal-texniki xüsusiyyətlərin və elmi-texniki tərəqqinin səviyyəsinin nəzərə alınmasıdır. Belə ki, müxtəlif texnoloji proseslərin köməyi ilə eyni məhsul buraxan müəssisələr müxtəlif yerləşdirilmə amilləri ilə xarakterizə olunurlar.

Bir çox istehsalların yerləşdirilməsi üçün resurs amili həlledici məna kəsb edir. Müxtəlif sahələr və onların struktur bölmələri öz istehsal-texnoloji spesifikası vasitəsilə göstəricilərə görə məhsul vahidinin istehsalına göstərilən resursların xərclərini nəzərə alan enerji, material, su, əmək, kapital tutumlarını fərqləndirirlər. İstehsalın yerləşdirilməsində ekoloji amillərin rolunun gücləndirilməsi ilə əlaqədar olaraq istehsalın ətraf mühitə mənfi təsirinin azaldılmasının səviyyəsini xarakterizə edən istehsalın ekoloji tutumluluq göstəriciləri (normativlər və standartlar) aktualdır.

İstehsalın yerləşdirilməsi üçün nəqliyyat və istehlak amilləri də böyük əhəmiyyət kəsb edir. Nəqliyyat və istehlak amillərinin nəzərə alınması metodlarından biri istehsal-satış zonalaşmanın və bərabər istehsal-nəqliyyat xərclərinin iqtisadi sərhədlərinin təyin edilməsidir.

Elm tutumlu istehsalın yerləşdirilməsi zamanı elmi mərkəzlərin və yüksək ixtisaslı kadrların mövcudluğu, onların öyrədilməsi imkanları nəzərə alınır.

Üçüncü mərhələdə müəssisələrin yerləşməsinin seçilmiş yerlərinin və istehsal həcmlərinin əsasında bir neçə mümkün inkişaf istiqamətləri (variantlar) hazırlanır (45).

Sənaye müəssisələrinin yerləşdirilməsi variantlarının iqtisadi səmərəlilik meyarı yerləşdirmənin müxtəlif variantlarında məhsulun istehsalına və istehlakçılara daşınmasına çəkilən ümumi xərclərin azaldılma dərəcəsidir.

Yerləşdirmə variantlarının müqayisəli iqtisadi səmərəlilik göstəriciləri investisiya qoyuluşlarının iqtisadi səmərəliliyini müəyyən edərkən tətbiq edilən göstəricilərdir. Yerləşdirmənin səmərəliliyini müəyyən etməkdə keyfiyyət təhlili olduqca mühüm işdir, çünki yerləşdirmənin həmin variantının nəticələri çox vaxt uzun müddət ərzində özünü göstərir ki, bu da səmərəliliyin kəmiyyətcə təzahür etməsini çətinləşdirir. Yerləşdirmənin ən səmərəli variantı çəkilmiş xərclərin minimuma və ya xalis cari dəyərin maksimuma bərabər olduğu variantdır.

Rayonların eyni olmaması istehsal xərclərinin səviyyəsində, investisiya qoyuluşlarının həcmində, istehsal və qeyri-istehsal fondlarının məsrəfləri arasındakı

nisbətdə təzahür edir. Buna görə də, hər hansı bir istehsalın yerləşdirmə variantını əsaslandırarkən ayrı-ayrı rayonların fərqlərini nəzərə almaq lazımdır. Əks halda seçilmiş yerləşdirmə rayonunun iqtisadi səmərəliliyi təhrif edilmiş olar.

Yerləşdirmə variantlarının müqayisəli iqtisadi səmərəliliyini müəyyən edərkən mühüm məsələ məhsulun istehlak olunduğu yerdə onun maya dəyərinin əsasında variantların müqayisə edilməsidir. Bunun üçün variantlardan hər biri üzrə istehsal xərcləri bilavasitə müəssisədə deyil, həm də nəqliyyat xərcləri, yükvurma və yükboşaltma xərcləri, daşınılan sənaye yüklərinin saxlanması xərcləri də müəyyən edilməklə hesablanmalıdır. Nəqliyyat xərclərini müəyyən edərkən quru və su yollarının vəziyyətini, iqlim şəraitini, məhsulun istehsal məntəqəsindən istehlak məntəqəsinədək olan məsafəni və daşınma xərclərinə təsir edən başqa şərtləri nəzərə almaq lazımdır. Nəqliyyat xərclərinin kəmiyyəti nəqliyyatın texnika ilə təchizatı, mal dövriyyəsinin həcmi, sərbəst yükdaşıma vasitələrindən istifadəni nəzərə almaqla müəyyən edilir.

Yerləşmə variantlarının müqayisəli səmərəliliyini hesablayarkən məhsulu istehlak edən bütün rayonlar üçün orta maya dəyərindən istifadə etmək lazımdır. Orta maya dəyəri məhsulun istehsalının maya dəyərinə, onun istehlak məntəqəsinədək daşınma maya dəyərinə, məhsul istehlakının məqsədəuyğun sərhədinə, məhsulun ümumi istehlakında ayrı-ayrı maddələrin nisbətinə əsasən hesablanır.

Yerləşdirmə variantlarının iqtisadi səmərəliliyi təkcə əsas istehsal fondlarına çəkilən məsrəflərdən deyil, həm də müəssisələrin yerləşdirilməsi şərtlərindən irəli gələrək, yaradılan qeyri-istehsal fondlarına çəkilən xərclərdən də çox asılıdır. Buna görə də qeyri-istehsal təyinatlı fondların yaradılmasına çəkilən əlavə məsrəfləri nəzərə almaq lazımdır. Bir qayda olaraq, sənaye obyektlərinin tikintisinin yerləşdirilməsi rayonun müvafiq təsərrüfatına və təbii ehtiyatlarına zərərlə müşayiət olunur. Aydındır ki, sənaye tikintisi ilə əlaqədar olan itkilər nəzərə alınmalı, onların ödənilməsinə çəkilən məsrəflər isə yerləşdirilən müəssisənin aid olduğu sahənin ümumi xərclərinə daxil edilməlidir.

Yerləşdirmə variantlarının müqayisəli iqtisadi səmərəliliyini müəyyən etmək üçün xammal və yanacağın xüsusi sərfi, fəhlələrin orta istehsal norması və s. natural texniki-iqtisadi göstəricilər sistemindən geniş istifadə etmək lazımdır. Yerləşdirmə variantlarının müqayisəli iqtisadi səmərəliliyinin müəyyən edilməsi tam investisiya qoyuluşlarını və məhsulun cəmiyyət baxımından maya dəyərini uçota almağı nəzərdə tutur.

İqtisadi rayonun daxilində sənaye müəssisəsinin tikiləcəyi məntəqənin seçilməsi həm tikintinin iqtisadiyyatına (onun davamiyyətinə və dəyərinə), həm də işə salındıqdan sonra müəssisənin işinin iqtisadi səmərəliliyinə təsir göstərir. Tikinti məntəqəsini iqtisadi cəhətdən əsaslandırarkən nəzərə almaq lazımdır ki, iri şəhərlərdə sənayeni həddən artıq təmərküzləşdirmək yolverilməz haldır; əlverişli iqtisadi şəraitdə müəssisələri orta və xırda şəhərlərdə yaratmaq lazımdır; bir qayda olaraq, müəssisələri vahid energetika bazası və ümumi kommunikasiyası olan istehsal kompleksləri şəklində yerləşdirmək daha məqsədəuyğundur; yaşayış yerlərinin inkişaf şəraiti və planlaşdırılmasını nəzərə almaq lazımdır; müəyyən olunmuş sanitariya-gigiyena tələblərinə və normalarına, habelə mülki müdafiə tələblərinə riayət etmək lazımdır.

Sənaye müəssisəsinin yerləşmə məntəqəsini əsaslandırmaq üçün onun ölçüsü, profili və ixtisaslaşma xarakteri, habelə onun kombinələşmə tipi barədə məlumatlara malik olmaq lazımdır. Bu məlumatlar yerləşdirmə rayonunu əsaslandırarkən, müəyyən vaxt ərzində həmin sahə müəssisələrinin optimal ölçü normativləri və rayonlararası kooperativləşmə nəzərə alınmaqla hesablanmış xammal, yanacaq və hazır məhsulun rayon balanslarına əsasən işlənib hazırlanır.

Sənaye müəssisəsinin tikinti məntəqəsinin əsaslandırılmasında da rayon yerləşdirilməsindəki amillər nəzərə alınır.

Nəqliyyat xərclərini azaltmaq məqsədilə tikinti üçün seçilən məntəqə maksimal dərəcədə xammal mənbələrinə və hazır məhsulun istehlak yerlərinə yaxınlaşdırılmalıdır. Bu zaman ayrı-ayrı xammal növlərinin və hazır məhsulun daşınıla bilinməsi - çəkisi, həcmi, taranın xarakteri və s. nəzərə alınmalıdır.

Seçilmiş tikinti məntəqəsi nəqliyyat yollarının olması ilə (və ya onların çəkilməsi üçün əlverişli şəraitin olması ilə), elektrik təchizatı mənbələrinin, tikinti materiallarının, həddən artıq əsaslı vəsait qoyuluşları tələb etməyən su təchizatı mənbələrinin və çirkab sularının axıdılması üçün imkanların olması ilə səciyyələnməlidir.

Müəssisənin yerləşmə məntəqəsini seçərkən sənayenin hər bir sahəsi öz tələblərini təqdim edir. Məsələn, metallurgiya zavodu tikilməsi üçün məntəqə seçərkən onun yaxınlığında ilkin xammalın olmasına, metallurgiya zavodunun işləməsi üçün lazım olan, uzaqdan gətirilməsi sərfəli olmayan, tikinti materiallarının, odadavamlı materialların, flüslərin olmasına diqqət verilir; həmçinin xeyli sututarların olması da lazımdır. Hasiledici sənaye sahələrində müəssisənin yerləşmə yerinin seçilməsində ən mühüm problem qazıntı yataqlarının kəmiyyət və keyfiyyətini iqtisadi cəhətdən qiymətləndirməkdir.

Müəssisənin yerləşdirilməsinin bir neçə variantını müqayisə etmək və optimalını tapmaq üçün bir sıra iqtisadi göstəricilərdən istifadə edilir ki, bunların da əsasları aşağıdakılardır: əlaqədar sahələrin - xammal və yanacaq, energetika, su təchizatı, nəqliyyat, mənzil tikintisinin inkişafına çəkilən məsrəfləri də nəzərə almaqla tikilməkdə olan müəssisənin güc vahidinə əsaslı vəsait qoyuluşları; məhsulun maya dəyəri və onun istehlakçıya çatdırılmasının dəyəri; əsaslı vəsait qoyuluşlarının ödənmə müddəti (səmərəlilik əmsalı); xalis cari dəyər göstəricisi.

# II FƏSİL
# RESPUBLİKA RAYONLARINDA SƏNAYE MÜƏSSİSƏLƏRİNİN ƏRAZİ ÜZRƏ TƏŞKİLİNİN MÜASİR VƏZİYYƏTİ

## 2.1 Respublikanın rayonlarında sənaye istehsalının müasir vəziyyəti

Azərbaycan Respublikasının keçmiş SSRİ-nin tərkibində olduğu müddətdə respublikada sənaye müəssisələrinin qeyri-səmərəli yerləşdirilməsi şəhərlə kənd arasında kəskin fərqlərin yaranmasına səbəb olmuşdur. Bu fərqlərin azaldılması və ölkədaxili regionlarda sosial-iqtisadi inkişafa nail olmaq məqsədilə son on bir il ərzində ölkə Prezidenti tərəfindən “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları(2004-2008, 2009-2013 və 2014-2018-ci illər)” təsdiq edilmişdir.

“Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)”na əsasən ölkədə Bakı istisna olmaqla 10 iqtisadi rayon müəyyən olunmuşdur.Bu iqtisadi rayonlara Abşeron iqtisadi rayonu (Abşeron və Xızı rayonları, Sumqayıt şəhəri), Gəncə-Qazax iqtisadi rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncəvə Naftalan şəhərləri), Şəki-Zaqatala iqtisadi rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları), Lənkəran iqtisadi rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları), Quba-Xaçmaz iqtisadi rayonu (Dəvəçi, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları), Aran iqtisadi rayonu (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri), Yuxarı Qarabağ iqtisadi rayonu (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri), Kəlbəcər-Laçın iqtisadi rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları), Dağlıq Şirvan iqtisadi rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları), Naxçıvan iqtisadi rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonları) aiddir.

Son illər ölkə iqtisadiyyatının prioritet sahələrinə investisiyaların yönəldilməsi nəticəsində istehsal və emal müəssisələrinin fəaliyyəti bərpa edilmiş, iqtisadiyyatın

balanslaşdırılmış inkişafının sürətləndirilməsi yeni müəssisələrin açılmasına şərait yaratmışdır.2014-cü ildə ölkədə 7679 yeni müəssisə yaradılmışdır ki, bunların 57,4 faizi Bakıda, 9,8 faizi Aran iqtisadi rayonunda, 7,9 faizi Abşeron iqtisadi rayonunda, 7,0 faizi Lənkəran iqtisadi rayonunda, qalanları isə digər bölgələrdə qeydiyyatdan keçmişdir. 78 faizi rayonlara yönəldilmiş güzəştli kreditlər hesabına 2014-cü ildə 39 iri istehsal, emal və infrastruktur müəssisəsi istifadəyə verilmişdir (47).

Ümumilikdə isə rayonlar üzrə Azərbaycanda fəaliyyət göstərən müəssisələrin sayı 2005-2014-cü illər üzrə aşağıdakı cədvəldəki kimi olmuşdur:

Cədvəl 2.1

**Rayonlar üzrə fəaliyyət göstərən müəssisələrin sayı**

| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə) | 1302 | 1349 | 1422 | 1410 | 1380 | 1245 | 1215 | 1219 | 1249 | 1225 |
| Abşeron iqtisadi rayonu | 217 | 235 | 245 | 257 | 259 | 258 | 213 | 213 | 218 | 235 |
| Gəncə-Qazax iqtisadi rayonu | 283 | 287 | 287 | 289 | 292 | 288 | 270 | 269 | 264 | 271 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 106 | 103 | 104 | 109 | 108 | 115 | 107 | 113 | 113 | 116 |
| Lənkəran iqtisadi rayonu | 78 | 80 | 82 | 79 | 84 | 92 | 84 | 75 | 76 | 77 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 76 | 85 | 91 | 87 | 87 | 84 | 76 | 79 | 75 | 79 |
| Aran iqtisadi rayonu | 326 | 331 | 334 | 344 | 378 | 367 | 336 | 339 | 323 | 321 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 27 | 25 | 24 | 25 | 29 | 29 | 28 | 29 | 30 | 31 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 39 | 40 | 38 | 37 | 38 | 39 | 40 | 40 | 40 | 39 |
| Naxçıvan iqtisadi rayonu | 96 | 127 | 136 | 136 | 135 | 135 | 135 | 135 | 135 | 135 |

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Qeyd etdiyimiz kimi, respublikadaxili regionlarımızdan biri də Abşeron iqtisadi rayonudur.Bu iqtisadi rayon Azərbaycan Respublikasının iqtisadi və sosial cəhətdən ən inkişaf etmiş iqtisadi rayonudur. Bu rayon respublikada əsas nəqliyyat qovşağı hesab olunur. Abşeron iqtisadi rayonu, Bakı şəhəri daxil olmaqla ölkənin faydalı qazıntılarla zəngin rayonlardandır. İqtisadi rayon neft, qaz, mişar daşı, əhəng daşı, sement xammalı, kvars və tikinti qumları ehtiyalarına malikdir.

Ölkədə istehsal olunan sənaye məhsulunun 90 faizdən çoxu Bakı şəhəri daxil olmaqla, bu iqtisadi rayonun payına düşür. Rayonun sənayesi yerli neft-qaz, tikinti materialları və kənd təsərrüfatı xammalının emalına əsaslanır. Sənaye müəssisələrinin əksəriyyəti istehsal vasitələri istehsal edən sahələrdən ibarətdir. Sənaye rayonu olan Abşeron iqtisadi rayonunun, Bakı şəhəri daxil olmaqla iqtisadiyyatında neft və qazçıxarma, neft emalı, neft kimyası və kimya, maşınqayırma, qara və əlvan metallurgiya, energetika, elektrotexnika, yüngül və yeyinti sənayesi üstünlük təşkil edir.İqtisadi rayon, Bakı şəhəri daxil olmaqla respublikada neft-qaz hasilatının hamısını, əlvan və qara metalların 68-88 faizini, maşınqayırma, metal emalı məhsulunun 90 faizini, meşə, ağac emalı və sellüloz-kağız emalı məhsulunun 70 faizini, yeyinti və yüngül sənaye məhsullarının 30-50 faizini istehsal edir. Tikinti, nəqliyyat, rabitə, xidmət sahələrinin 65 faizi bu iqtisadi rayonda cəmləşmişdir. Abşeron iqtisadi rayonu, Bakı şəhəri daxil olmaqla respublika sənaye müəssisələrinin 40 faizini, tikinti, nəqliyyat, rabitə və xidmət sahələrinin 50 faizə qədərini özündə cəmləşdirmişdir (48).

Bu iqtisadi rayonun sənayesinin inkişafında neft sektoru ön planda durur. Son zamanlarda yeni neft, qaz yataqlarının istismarı bu rayonun strateji mövqeyini gücləndirmiş və dünya təsərrüfatında onun əhəmiyyətini artırmışdır.

Bakı şəhəri daxil olmaqla, bu iqtisadi rayonun sənayesində metallurgiya müəssisələri üstün çəkiyə malikdirlər. Rayonun sənayesinin strukturunda metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsal payının yüksək olması Sumqayıt alüminium zavodunun və “Azərboru” səhmdar cəmiyyətinin istehsalı bərpa etmələri ilə əlaqədar olmuşdur.

Bakı şəhəri daxil olmaqla, iqtisadi rayonun sənaye strukturunda kimya və neft-kimya sənayesi də mühüm yer tutur. Bu sənaye sahəsində texniki spirt və kauçuk, plastik kütlələr, sintetik qətranlar, müxtəlif növ gübrələr, kimyəvi yuyucu tozlar və mühafizə vasitələri, avtomobil şinləri, polietilen, etilen-propilen, maye xlor və s. istehsal olunur.Son illərdə kimya sənayesinin inkişafı isə, əsasən, dünya neft bazarında qiymətlərin artmasının təsiri hesabına baş vermişdir. Belə ki, “Azərkimya” Dövlət Şirkəti neft-kimya sənayesi üçün

zəruri xammal olan ilkin qovulma benzinini güzəştli qiymətlərlə neft emalı müəssisələrindən alır.

İqtisadi rayon güclü yanacaq-energetika bazasına malikdir. Ölkədə çıxarılan neftin və qazın, istehsal edilən elektrik enerjisinin xeyli hissəsi bu rayonun payına düşür. Yerli yanacaq xammalı əsasında təşkil olunmuş yanacaq-energetika kompleksi respublikada elektrik enerjisi istehsalının 50 faizini, yanacaq sənayesi məhsulunun 94 faizini verir.

Azərbaycan maşınqayırmasının yeni və sürətlə inkişaf edən sahələri – cihazqayırma, elektrotexnika və radioelektronika Abşeron iqtisadi rayonunda, Bakı şəhəri də daxil olmaqla cəmləşmişdir. İqtisadi rayonda maşınqayırma sənayesinin mühüm hissələrindən biri olan təmir bazası mövcuddur.

İqtisadi rayonda həmçinin tikinti sənayesi müəssisələrində şüşə, polimer tikinti materialları və s. istehsal olunur. Rayonda tikinti materialları - şüşə (Bakı və Sumqayıt şəhərlərində), divar daşı (Qaradağ, Güzdək, Korgöz və.s), sement (Qaradağ), polimer tikinti materialları (Sumqayıt), dəmir-beton konstruksiyaları məmulatları və s. istehsal edən iri müəssisələr vardır. Abşeron iqtisadi rayonu tikinti materialları sənayesinin inkişafına görə respublikanın digər iqtisadi rayonları ilə müqayisədə yüksək kompleksliliyi və intensivliyi ilə fərqlənir. Respublikada istehsal edilən mişar daşının səksən faizi Abşeron iqtisadi rayonunun payına düşür(43).

Son illərdəBakı şəhəri daxil olmaqla, bu iqtisadi rayonda bir sıra yeni sənaye müəssisələri yaradılmışdır. Bu müəssisələrə “Azbentonit”, “BİSMAK” biskvit və makaron istehsalı müəssisəsi, tikinti materialları istehsalı ilə məşğul olan “Maqnum-S” şirkəti, “Azkompozit” boru istehsalı zavodu,“Norm” MMC sement zavodu, “Dizayn-Genay Azərbaycan” polietilen və polipropilen boru zavodunu, Zeytun emalı və qablaşdırılması zavodu, “Azərbaycan Alüminiumu” ASC-nin Sumqayıt “Alüminium” istehsalat sahəsində 1 və 2 nömrəli elektroliz korpuslarını və s. müəssisələri misal göstəmək olar. Lakin buna baxmayaraq, rayonda sənaye müəssisələrinin yenidən qurulmasına, bir sıra yeni müəssisələrin yaradılmasına ehtiyac vardır.

Abşeron iqtisadi rayonunda, Bakı şəhəri xaric olmaqla sənaye müəssisələrinin yerləşməsini məqsədəuyğun edən əsas amillərə bu rayonda satış bazarının nisbətən böyük olmasını (Bakı şəhərinə yaxınlıqla əlaqədar), inkişaf etmiş infrastruktura və ixtisaslı işçi qüvvəsinə malik olmasını və s. aid etmək olar.

Cədvəl 2.2

**Abşeron iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 217 | 236 | 245 | 257 | 259 | 247 | 213 | 213 | 218 | 235 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 630 | 755 | 899 | 1111 | 1164 | 1289 | 1397 | 1511 | 1039 | 1178 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, milyon manat | 224.7 | 303.8 | 344.7 | 424.4 | 251.6 | 298.6 | 475.9 | 512.8 | 501,0 | 543,8 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 15.2 | 20.7 | 28.1 | 29.1 | 41.0 | 36.9 | 37.6 | 52.4 | 44,2 | 40,4 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 12691 | 14894 | 39305 | 28886 | 29468 | 12944 | 25756 | 55765 | 30226 | 27202 |
| İşçilərin orta siyahı sayı, nəfər | 18493 | 20023 | 23038 | 23103 | 21452 | 18378 | 17982 | 17241 | 20899 | 21985 |
| İlin axırına siyahı tərkibində olan işçilərin sayı, nəfər | 19254 | 20109 | 22998 | 22211 | 19945 | 18345 | 17467 | 17087 | 22383 | 23368 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 98.2 | 142.8 | 190.6 | 236.3 | 231.7 | 293.0 | 330.2 | 370.9 | 448,8 | 489,5 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 775.0 | 786.0 | 886.5 | 993.8 | 1388 | 1448 | 1485 | 1622 | 1720 | 1794 |
| əvvəlki ilə nisbətən, faizlə | 100.7 | 101.4 | 112.8 | 114.2 | 139.7 | 104.3 | 101.1 | 109,2 | 106,1 | 104,2 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Yuxarıdakı cədvəl Bakı şəhəri xaric olmaqla, Abşeron iqtisadi rayonunun bəzi statistik göstəricilərini əks etdirir. Bu cədvələ nəzər saldıqda görürük ki, göstərilən on il ərzində vəziyyət qənaətbəxşdir. Çünki göstəricilərdə hər il əvvəlki ilə nisbətən artım müşahidə olunmuşdur. Düzdür bəzi illərdə əvvəlki ilə nisbətən geriləmə baş vermişdir. Lakin 2013-2014-cü illərə nəzər saldıqda göstəricilərin əvvəlki illərdən daha böyük

olduğunu müşahidə edə bilərik. Məsələn, əsas istehsal fondlarında, işçilərin orta sayında, sənaye məhsulunun həcmində və s. ən böyük göstəricilər 2014-cü ilin payına düşmüşdür.

Aşağıdakı cədvəldə isə Bakı şəhərinin bəzi statistik göstəriciləri əks olunmuşdur. Cədvəlin məlumatlarına əsasən deyə bilərik ki, fəaliyyət göstərən müəssisələrin sayında stabillik müşahidə olunur. Bu, o cəhətdən yaxşıdır ki, Bakı şəhərində sənaye müəssisələrinin səmərəsiz artımı baş vermir. Bakı şəhərinin sənayesində daha bir müsbət cəhət sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisinin getdikcə artmasıdır. Və hal-hazırda bu rəqəm təqribi 80 faiz təşkil edir. Biz həmçinin sənaye işçilərinin orta aylıq əmək haqqında da hər il artımın olduğunu müşahidə edə bilərik.

Cədvəl 2.3

**Bakı şəhərinin sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 1302 | 1349 | 1422 | 1410 | 1380 | 1245 | 1215 | 1219 | 1249 | 1225 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdisahibkarların sayı, nəfər | 3343 | 3554 | 3764 | 4232 | 4044 | 4400 | 4877 | 5555 | 5717 | 6379 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin qiymətləri ilə, milyon manat | 7725 | 13586 | 20327 | 27368 | 20402 | 25251 | 31783 | 30877 | 30225 | 28179 |
| Sənaye məhsulunun ümumi qeyri-dövlət sektorunun həcmində xüsusi çəkisi, faizlə | 72.9 | 75.8 | 80.3 | 82.4 | 78.3 | 80.6 | 81.4 | 80.5 | 81,9 | 79,9 |
| İstehsal edilmiş hazır məhsulun ilin axırına qalığı, milyon manat | 209.4 | 108.2 | 192.7 | 168.3 | 138.9 | 149.1 | 128.8 | 176.0 | 162,6 | 239,5 |
| İşçilərin orta siyahı sayı, min nəfər | 104.1 | 104.5 | 107.1 | 107.9 | 97.9 | 99.6 | 92.3 | 96.4 | 102,3 | 102,6 |
| İlin axırına siyahı tərkibli işçilərin sayı, min nəfər | 106.3 | 107.8 | 109.6 | 107.6 | 98.1 | 96.9 | 94.0 | 99.8 | 101,7 | 104,9 |
| Bir işçinin orta aylıq əmək haqqı, manat | 283 | 350 | 457 | 564 | 567 | 584.4 | 684.3 | 800.5 | 853,0 | 952,0 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 15389 | 17892 | 25069 | 26907 | 29180 | 32074 | 35794 | 39661 | 45896 | 57536 |
| əvvəlki ilə nisbətən, faizlə | 121.7 | 116.2 | 118.2 | 110.8 | 108.5 | 108.3 | 103.1 | 113.3 | 115,4 | 115,8 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Quba-Xaçmaz iqtisadi rayonunun sosial-iqtisadi inkişafında sənaye sektorunun payı çox kiçikdir. Ölkədə istehsal edilən sənaye məhsullarının 1,2 faizi bu iqtisadi rayonun payına düşür. İqtisadi rayonun sənayesinin əsasını yüngül və yeyinti sənayesi təşkil edir ki, bu da başlıca olaraq meyvə-tərəvəz, şərab və süd məhsulları emalına əsaslanır.Kənd təsərrüfatının inkişafı, eyni zamanda, emal sənaye sahələrinin - yüngül və yeyinti sənayesinin inkişafına təkan vermişdir. Rayonun aqrar - sənaye kompleksinin əsasını meyvə-tərəvəz konservi istehsalı (Xaçmaz, Xudat, Quba), balıq emalı (Xudat), xalça toxuculuğu (Quba, Xaçmaz, Qusar, Qonaqkənd, Pirəbədil) sahələri təşkil edir. Xaçmazda və Dəvəçidə taxıl və süd məhsulları emal edilir (48).

Quba-Xaçmaz iqtisadi rayonunun əsas təbii sərvətləri neft, təbii qaz, yanar şist, qum, çınqıl, gil və mineral sulardır (Qubada Xaltan, Cimi, Xaşı, Siyəzəndə Qalaaltı).

Neft və qaz hasilatı (Siyəzən), elektrotexnika zavodu (Quba), metal qırıntılarının emalı (Xaçmaz) iqtisadi rayonun ağır sənayesinin əsasını təşkil edir. Quba, Siyəzən və Xaçmazda kərpic zavodları, tara müəssisələri var. Siyəzən, Çarxı və Dəvəçidə quşçuluq kompleksləri vardır.

Son vaxtlarda Xaçmazda və Qubada Modul İES-lər qurulmuşdur. İqtisadi rayon ərazisindən keçən telekommunikasiya xətləri ölkənin nəqliyyat-iqtisadi əlaqələrinin inkişafında mühüm rola malikdir (43).

Son illərdə Quba-Xaçmaz rayonunda bir sıra yeni sənaye müəssisələri yaradılmışdır. Bu müəssisələrə Qubada “Azkon” biskvit məmulatları müəssisəsi, Xaçmaz rayonunda “Qafqazkonserv” müəssisəsi və “Azplodeksrort MMC” və s. müəssisələri misal göstəmək olar.

Cədvəl2.4

**Quba - Xaçmaz iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 76 | 85 | 91 | 87 | 87 | 84 | 76 | 79 | 75 | 79 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 490 | 530 | 516 | 534 | 485 | 531 | 612 | 702 | 790 | 871 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, min manat | 37705 | 39371 | 64872 | 80085 | 60744 | 64006 | 89284 | 77136 | 81720 | 77683 |
| Sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 50.1 | 58.9 | 36.6 | 45.6 | 55.2 | 57.1 | 43.0 | 35.4 | 45 | 33.9 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 1855 | 3447 | 2890 | 5204 | 7757 | 8293 | 5587 | 5850 | 6288 | 7257 |
| İşçilərin orta siyahı sayı, nəfər | 4386 | 4548 | 4998 | 4756 | 4355 | 4552 | 4087 | 4810 | 4999 | 4875 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 117.5 | 156.9 | 232.2 | 305.7 | 306.9 | 319.7 | 363,0 | 393.5 | 453,6 | 449.4 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 166.3 | 244.3 | 254.0 | 271.7 | 296.2 | 423.8 | 477.7 | 507.1 | 539,6 | 572.9 |
| əvvəlki ilə nisbətən, faizlə | 105.3 | 152.1 | 103.5 | 107.0 | 110.6 | 143.1 | 110.5 | 106.3 | 106,6 | 106.5 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Quba-Xaçmaz iqtisadi rayonun sənaye məhsulunun həcmi göstərilən on il müddətində təqribən 2 dəfədən çox artmışdır. Baxmayaraq ki, son illərdə fəaliyyət göstərən müəssisələrin sayında nisbətən azalma müşahidə olunur, lakin bu, istehsal olunan məhsulun həcminə təsir göstərməmişdir.Yəni on il əvvəlki ilə təqribi eyni sayda müəssisə fəaliyyət göstərsə də məhsul istehsalı on il əvvələ nisbətən iki dəfədən çox olmuşdur.Sənaye məhsulunun həcmindəki belə yüksək göstəricilər əhalinin orta aylıq əmək haqqlarının artmasına da səbəb olmuşdur. Cədvələ əsasən əsas sənaye-istehsal fondlarının həcmində 5 dəfədən çox artım,sənayedə qeyri-dövlət sektorunun payında isə azalmanın olmasını müşahidə edə bilərik.

Şəki-Zaqatala iqtisadi rayonunun ərazisi faydalı qazıntılarla zəngindir. Azərbaycan Respublikasının mis ehtiyatlarının hamısı, kükürd kolçedanın 90 faizi, sinkin 99 faizi bu iqtisadi rayonun payına düşür. Qafqazın iri polimetal yataqlarından olan Filizçay yatağı bu rayonun ərazisində yerləşir. Dağlıq və dağətəyi yerlərdə çınqıl, qum və digər tikinti materialları mövcuddur.

Ölkənin ümumi sənaye məhsulunun 1 fazi bu iqtisadi rayonun payına düşür. Şəki-Zaqatala iqtisadi rayonunun sənayesi yeyinti və yüngül sənayedən ibarətdir.

Yeyinti sənayesi iqtisadi rayonun ümumi sənaye məhsulunun 95 faizini təşkil edir və bu sənaye müəssisələrinin fəaliyyəti, əsasən, yerli kənd təsərrüfatı xammalına əsaslanır. Yeyinti sənayesi bağçılıq, tütünçülük və heyvandarlıq məhsullarının emalına əsaslanır.Şəki yeyinti kombinatı və şərab zavodları, Qəbələ, Qax, Balakən, Nic meyvə-tərəvəz konserv zavodları, Zaqatala fındıq və qızıl gül yağı zavodu, çay fabriki, Şəki ət kombinatı yeyinti sənayesinin əsas müəssisələridir. Bundan başqa, yerli tələbatı ödəyən çörəkbişirmə, şərq şirniyyatı, spirtsiz içkilər istehsal edən kiçik müəssisələr də fəaliyyət göstərir (48.s.42).

Yüngül sənayenin əsasını isə ipəkçilik, toxuculuq və tikişçilik təşkil edir.Bütün rayon mərkəzlərində müxtəlif ölçülü tikiş sənayesi müəssisələri fəaliyyət göstərir. Şəkidə kustar üsulla bəzəkli toxumaları olan ipək parçalar, pərdələr, kəlağayılar, yaylıqlar toxunur. Tütünçülüyün inkişafı ilə əlaqədar Şəki, Qəbələ, Balakən və Zaqatala tütün fermentasiya zavodları fəaliyyət göstərir.

Sənayenin digər sahələrinə yerli xammal bazasına əsaslanan Zaqatala mebel fabrikini, kərpic zavodunu, Balakən tara müəssisəsini aid etmək olar (43).

Şəki-Zaqatala iqtisadi rayonunda yeni açılan müəssisələrə misal olaraq Zaqatalada gül yağı emalı zavodunu, Cənubi Qafqazda bu tipli ən böyük konserv zavodu olan “Qəbələ konserv zavodu”nu, “Gilan” tikinti materialları istehsalı kompleksini və yeyinti məhsulları istehsalı müəssisəsini, Qaxda “Kapital-N” firmasının mineral və süfrə suyu istehsalı müəssisəsini, Oğuzda yeni konserv zavodlarını, Şəkidə meyvə şirələri və konserv zavodlarını, illik istehsal gücü 20 milyon ədəd kərpic olan Kərpic zavodunu göstərə bilərik.

Cədvəl 2.5

**Şəki-Zaqatala iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 106 | 103 | 104 | 109 | 108 | 115 | 107 | 113 | 113 | 116 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 757 | 798 | 787 | 779 | 687 | 765 | 868 | 994 | 1081 | 1144 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, min manat | 21006 | 40600 | 41571 | 55522 | 48117 | 60166 | 75686 | 75735 | 74835 | 87246 |
| Sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 34.0 | 15.4 | 48.0 | 56.0 | 58.3 | 66.3 | 62.5 | 58.5 | 61 | 67.5 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 3077 | 16170 | 5008 | 6635 | 4931 | 6045 | 8829 | 12279 | 13084 | 12910 |
| İşçilərin orta siyahı sayı, nəfər | 4462 | 4219 | 4586 | 4448 | 3931 | 4551 | 4556 | 4992 | 5348 | 5345 |
| İlin axırına siyahı tərkibində olan işçilərin sayı, nəfər | 4152 | 4131 | 4171 | 4298 | 3536 | 4338 | 4419 | 4640 | 4811 | 5539 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 65.1 | 80.2 | 116.7 | 146.6 | 169.2 | 194.0 | 239.5 | 276.7 | 305,1 | 305.2 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, min manat | 66006 | 195956 | 187394 | 183631 | 180296 | 344137 | 262565 | 293240 | 317881 | 317269 |
| əvvəlki ilə nisbətən, faizlə | 105.3 | 2.8d. | 95.6 | 97.2 | 98.2 | 189.7 | 110.9 | 112.9 | 108,2 | 99.8 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Cədvəldən göründüyü kimi rayonların sosial-iqtisadi inkişaf proqramları öz nəticələrini verməkdədir. Belə ki, sənaye məhsulunun həcmində 4 dəfədən çox, işçilərin orta aylıq əmək haqqında 5 dəfə, əsas sənaye-istehsal fondlarının həcmində isə 4 dəfədən çox artımın şahidi ola bilərik.

Neft, təbii qaz, yanar şist Dağlıq Şirvan iqtisadi rayonunun əsas sərvətləridir. Lakin Şirvan iqtisadi rayonu faydalı qazıntılarla zəngin deyildir. Rayonda, əsasən, daş, çınqıl, qum, əhəng və digər tikinti materialları mövcuddur. Şamaxı, Ağsu, İsmayıllı rayonlarının gil yataqları mühüm tikinti əhəmiyyətinə malikdir.

Dağlıq-Şirvan iqtisadi rayonunun sənayesinin əsas aparıcı sahəsini yeyinti və yüngül sənaye təşkil edir. İqtisadi rayonun yüngül sənayesi, əsasən, şərabçılıq, tikiş və

xalçaçılıq sahələri ilə təmsil olunmuşdur. Yeyinti sənayesində əsas yeri yerli üzüm məhsulunun emalı olan şərabçılıq tutur. Konserv, yağ-pendir zavodları, tara müəssisələri fəaliyyət göstərir. Bundan əlavə, rayonun iqtisadiyyatında meşə və ağac emalı, tikinti materialları istehsalı (İsmayıllı rayonunda ağac emalı müəssisəsi, Şamaxı, Qobustan rayonlarında Daş karxanaları, kərpic zavodu), kənd təsərrüfatı texnikasının təmiri müəssisələri mövcuddur (43).

Bununla yanaşı, Şamaxı rayonunda "Star MMC" televizor zavodu, "Azsamand" avtomobil zavodu, "Azerelektronika" məişət avadanlıqları istehsalı zavodu, xalçaçılıq fabriki fəaliyyət göstərir.

Dağlıq Şirvan iqtisadi rayonunun on illik (2005-2014-cü illər) bəzi iqtisadi göstəricilərinin təhlili göstərir ki, istehsal olunan sənaye məhsulunun həcmi on il ərzində təqribən 3 dəfə, işçilərin sayı təqribən 2 dəfə, işçilərin orta aylıq əmək haqqı təqribən 5 dəfə, əsas sənaye istehsal fondları isə 1.7 dəfə artmışdır. Lakin bunlara baxmayaraq, bu iqtisadi rayonda fəaliyyət göstərən müəssisələrin sayında demək olar ki, heç bir dəyişiklik baş verməmişdir. Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun payında isə 8 faizlik cüzi artım olmuşdur.

Cədvəl2.6

**Dağlıq Şirvan iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 39 | 40 | 38 | 37 | 38 | 39 | 40 | 40 | 40 | 39 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 114 | 125 | 135 | 154 | 179 | 208 | 256 | 319 | 369 | 393 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, min manat | 5972 | 12142 | 14120 | 12909 | 10840 | 10265 | 9733 | 13234 | 15039 | 18672 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 42.7 | 54.8 | 73.6 | 65.5 | 47.9 | 19.3 | 23.4 | 40.8 | 46,6 | 51,2 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 673.3 | 160.5 | 5154 | 4325 | 4680 | 4433 | 4259 | 1798 | 1639 | 1659 |
| İşçilərin orta siyahı sayı, nəfər | 1289 | 1540 | 1559 | 1555 | 1350 | 1564 | 1721 | 1826 | 1955 | 2054 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İşçilərin orta aylıq əmək haqqı, manat | 61.7 | 87.8 | 124.1 | 182.5 | 192.2 | 195.1 | 234.1 | 266.7 | 279,6 | 297,1 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 53.4 | 45.8 | 37.1 | 42.7 | 35.5 | 53.2 | 46.6 | 59.4 | 73,2 | 93,2 |
| əvvəlki ilə nisbətən, faizlə | 103.1 | 85.7 | 117.4 | 113.4 | 84.8 | 149.6 | 87.6 | 127.7 | 123,2 | 127,4 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Gəncə-Qazax iqtisadi rayonu öz iqtisadi əhəmiyyətinə görə Abşeron iqtisadi rayonundan sonra ölkədə ikinci yeri tutur. İqtisadi rayonun sənayesi hasiledici və emaledici sahələrdən ibarətdir.

Gəncə-Qazax iqtisadi rayonu Azərbaycanın faydalı qazıntılarla zəngin rayonlarından biridir. Kükürdlü kalçedan, kobalt, barit, dəmir filizi, alunit, əhəng-daşı, mərmər, gips, seolit, bentonit gili, sement xammalı iqtisadi rayonun əsas yeraltı ehtiyatlarıdır. Daşkəsənin dəmir filizi, Zəylik alunit, qızıl, mis, Xoşbulaq əhəng daşı ehtiyatları sənaye əhəmiyyətlidir. Kür çayının buradan axan hissəsi hidroenerji ehtiyatları ilə zəngindir və bu imkanlardan geniş istifadə edilir.

Rayonun sənaye məhsulu 2014-cü ildə 2005-ci ilə nisbətən 1.9 dəfə artmışdır. Bu artıma "Azəraliminium" ASC-nin Gəncə gil torpaq sahəsində məhsul istehsalının artması əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Belə ki, rayonun sənayesinin təqribən 62 faizi bu müəssisənin payına düşmüşdür.

Goranboyda lak-boya məhsulları istehsalı müəssisəsi, Gəncədə "NEON" firmasının un dəyirmanı və tikinti materialları istehsalı müəssisəsi, ət məhsulları istehsalı ilə məşğul olan "Elbu" şirkəti, "OKA" avtomobillərinin yığımı müəssisəsi, "Cardin Royal" şokolad fabriki, "DET AL" Alüminium MMC-nin Gəncə alüminium zavodu kompleksi, Gəncə avtomobil zavodu və s. fəaliyyət göstərir. Yüngül sənaye üzrə Dəliməmmədlidə pambıq emalı, Gəncədə toxuculuq kombinatı, Gəncə, Qazax və Daşkəsəndə xalça sexləri vardır.

Gəncədə və Daşkəsəndə qara və əlvan metallurgiya xammalının hasilatı, onların ilkin emalı müəssisələri yerləşir.

Maşınqayırma sənaye sahəsi üzrə iqtisadi rayonda cihazqayırma, rabitə avadanlığı istehsalı, avtomobillərin və kənd təsərrüfatı maşınlarının təmiri müəssisələri fəaliyyət göstərir.

Kimya sənayesi Gəncə şəhərində fəaliyyət göstərən zavodlarda sulfat turşusu, kalium kübrəsi istehsalı ilə təmsil edilir.

Tikinti sənayesinin əsas müəssisələri iri panelli evtikmə kombinatı, dəmir-beton, kərpic-kirəmit, mərmər zavodlarıdır.

Yaşayış məntəqələrində, həmçinin ağac emalı, tikinti materialları, xalq istehlakı malları istehsal edən obyektlər vardır.

Yüngül və yeyinti sənayeyə aid olan müəssisələrdə, əsasən, yerli xammallar emaldan keçir.Yüngül sənaye iqtisadi rayonun sənaye məhsulunun çox hissəsinin payına düşür və əsas istehsal edilən məmulatlar pambıq və yun parça, xalça, tikiş və toxuculuq istiqamətlidir.İqtisadi rayonun yüngül sənayesi (Dəliməmmədlidə pambıq mahlıcı, Gəncədə pambıq parça, yun parça, trikotaj məmulatları istehsalı, Gəncə, Qazax və Daşkəsəndə xalça toxuculuğu müəssisələri) yerli xammalın emalına əsaslanır. Xalq istehlakı malları istehsal edən sahələrə Gəncədə yerləşən çini-saxsı qablar istehsalı aiddir (48).

Kənd təsərrüfatı məhsullarının emalına əsaslanan yeyinti sənayesi şərab, konyak, ət-süd məhsulları, qənnadı məmulatı, konserv məhsulları istehsalı, əsasən, yerli və regional tələbatı ödəyir. İqtisadi rayonun yeyinti sənayesi meyvə-tərəvəz konservi, ət, şərab, yağ-piy, süd, unüyütmə, çörəkbişirmə, çörək məmulatları, qənnadı vəs. sahələrlə təmsil olunur.

Gəncə-Qazax iqtisadi rayonunda mineral mənşəli təbii-tikinti materialları ehtiyatı çoxluq təşkil edir. Gəncə-Qazax iqtisadi rayonunda maşınqayırma, cihazqayırma, avtomobil təmiri, rabitə avadanlığı, kənd təsərrüfatı texnikasının təmiri istiqamətli müəssisələr vardır (43).

Cədvəl 2.7

**Gəncə - Qazax iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 283 | 287 | 287 | 289 | 292 | 288 | 270 | 269 | 264 | 271 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 656 | 808 | 920 | 1052 | 1065 | 1204 | 1411 | 1654 | 1753 | 1966 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, milyon manat | 169,5 | 231.1 | 187,0 | 217 | 151,4 | 269.8 | 263.6 | 332.8 | 304,8 | 329,3 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 23.5 | 22.2 | 33.2 | 41.8 | 43.5 | 45.0 | 49.0 | 66.0 | 59 | 54,2 |
| İstehsal edilmiş hazır məhsulun ilin axırına qalığı, min manat | 4451 | 7295 | 7391 | 10317 | 9692 | 12253 | 28273 | 26960 | 19704 | 24568 |
| İşçilərin orta siyahı sayı, nəfər | 15574 | 15644 | 16207 | 14813 | 12503 | 13040 | 13117 | 12505 | 15035 | 13359 |
| İlin axırına siyahı tərkibində olan işçilərin sayı, nəfər | 15798 | 15909 | 16061 | 14863 | 12094 | 13231 | 13423 | 14038 | 13923 | 14499 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 88.3 | 113.4 | 162.7 | 212.5 | 224.2 | 259.4 | 283.9 | 303.1 | 331,7 | 370,7 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 566.8 | 542.5 | 517.9 | 553.1 | 584.8 | 563.2 | 773.6 | 918.2 | 1073 | 1171 |
| əvvəlki ilə nisbətən, faizlə | 105.4 | 96.2 | 95.0 | 105.9 | 105.2 | 119.1 | 128.0 | 118.7 | 109,7 | 109,2 |

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Yuxarı Qarabağiqtisadi rayonunun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının vəXankəndi şəhərinin əraziləri tamamilə, Ağdamrayonunun (hazırda inzibati mərkəzi Ağdam şəhəri də daxil olmaqla) ərazisinin böyük bir hissəsi erməni işğalı altındadır.

Yuxarı Qarabağ iqtisadi rayonunun əsas təbii sərvətləri polimetal filizləri (Mehmanə yatağında), neft, təbii qaz, müxtəlif tikinti materiallarıdır (mərmər, sement xammalı, tikinti daşı). Meşələrdə olan xammal ehtiyatları yerli ağac emalı müəssisələrini xammalla təmin etmək üçün kifayət qədərdir. Yuxarı Qarabağ iqtisadi rayonunda olan mineral bulaqlardan (Turşsu, Şırlan), meşələrdən istirahət və müalicə üçün istifadə etmək olar.

İqtisadi rayonun sənayesi yerli kənd təsərrüfatı xammalının emalına əsaslanır. Şərabçılıq, konserv məhsulları istehsalı, digər kənd təsərrüfatı məhsullarının emalı yeyinti sənayesinin əsas sahələridir (43).

Növbəti cədvəldə göstərilən on il müddətində, demək olar ki, fəaliyyət göstərən müəssisələrin sayında ciddi irəliləyişlər baş verməmişdir. Lakin buna baxmayaraq Yuxarı Qarabağ iqtisadi rayonunda sənaye məhsulunun həcmi 6.4 dəfə artmışdır,işləyənlərin sayı 1.4 dəfə, onların orta aylıq əmək haqqı isə 5.4 dəfə artmışdır. Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün fərdi sahibkarlar isə yalnız 2012-ci ildən etibarən qeydə alınmışdır.

Cədvəl2.8

**Yuxarı Qarabağ iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 27 | 24 | 25 | 25 | 29 | 29 | 28 | 29 | 30 | 31 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | - | - | - | - | - | - | - | 163 | 194 | 230 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, min manat | 3728 | 3594 | 8803 | 9094 | 9605 | 10249 | 11640 | 14529 | 18112 | 23913 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 52.7 | 36,6 | 19 | 22.6 | 24.6 | 13.6 | 8.5 | 13.9 | 14,6 | 11,3 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 245 | - | - | 190.3 | 172.1 | 155.1 | 113.6 | 649 | 1160 | 720,2 |
| İşçilərin orta siyahı sayı, nəfər | 1098 | 1039 | 1220 | 1368 | 1417 | 1502 | 1440 | 1303 | 1485 | 1597 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 52.8 | 66,8 | 115,9 | 164.2 | 154.7 | 172.3 | 198.0 | 268.0 | 274,3 | 287,4 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 25,7 | 28,5 | 36 | 81,2 | 89.8 | 82,7 | 90.6 | 102,6 | 158,3 | 156,6 |
| əvvəlki ilə nisbətən, faizlə | 101 | | | | 103.0 | 92.2 | 109.4 | 113,3 | 154,2 | 98,9 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Kəlbəcər-Laçın iqtisadi rayonunun ərazisində qızıl, civə, xromit, mərmər, üzlük tikinti daşları koral, perlit və s. faydalı qazıntı ehtiyatları vardır. Burada İstisu, Minkənd, Tutqunçay kimi mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri kurort-rekreasiya məqsədləri üçün istifadə edilə bilər.

Sənaye nıüəssisələri tütünçülük, üzümçülük, meyvəçilik, taxılçılıq kimi xammal növlərinin emalına əsaslanmışdır. İqtisadi rayonda ət-süd məhsulları emal edilir, xalça

toxunurdu.Kəlbəcər-LaçıniqtisadirayonuErmənistan işğalçı qüvvələri tərəfindən zəbt olunduğu üçün onların iqtisadiyyatı tamamilə dağıdılmışdır (43).

Aran iqtisadi rayonu ölkəmizin iqtisadiyyatında inkişaf etmiş çoxsahəli sənaye rayonu kimi tanınır. İqtisadi rayon sənaye potensialına görə Abşeron və Gəncə-Qazax iqtisadi rayonlarından sonra üçüncü yeri tutur. İqtisadi rayonun sənaye strukturunda yanacaq-energetika,kimya və neft-kimya, maşınqayırma və metal emalı, tikinti materialları, yüngül və yeyinti sənayesi əsas yeri tutur. Burada tikinti materialları, yeyinti sənayesi məhsulları, xalq istehlakı malları istehsal edən müəssisələr yaradılmışdır.Ölkənin sənaye məhsulunun 3 faizini verir.

Araniqtisadi rayonunun əsas yeraltı sərvətləri neft, təbii qaz, yodlu və bromlu mədən suları, müxtəlif tikinti materiallarıdır (mişar daşı, qum-çınqıl və s.). Neft və təbii qaz yataqları Şirvanda, Salyanda, Neftçalada, Kürdəmirdə, İmişlidə və Zərdabda yerləşir.

Şirvanda və Mingəçevirdə DRES-lər, Mingəçevirdə və Varvarada SES-lər işləyir. Ona görə də elektroenergetika burada təsərrüfatın inkişaf etmiş və ixtisaslaşmış sahələrindən biridir. Belə ki, rayonun sənaye məhsulunun 49,5 faizi elektrik enerjisi, qaz və suyun istehsalı, bölüşdürülməsi sahəsinin payına düşür. Şirvan istilik elektrik stansiyası yenidən qurulduqdan sonra isə öz imkanlarını daha da artıracaqdır.

Kimya sənayesi müəssisələri Mingəçevir, Salyan və Neftçala şəhərində fəaliyyət göstərir. Salyanda plastik kütlə zavodu, Neftçalada yod-brom zavodu vardır. Son illərdə Salyan plastik kütlə zavodu özəlləşdirilib və yeni mülkiyyətçilər zavodun fəaliyyətini qismən bərpa ediblər.

Mingəçevir, Şirvan və Salyan maşınqayırmanın əsas mərkəzləridir. Aran iqtisadi rayonunun maşınqayırma sənayesini Mingəçevir kənd təsərrüfatı maşınqayırma zavodu, Şirvanda məişət cihazlarının avtomat idarə vasitələri istehsalı, Şirvan şəhərindəki polimer avadanlığı zavodu, Bərdədə dənəvər, yumşaq və konsentrat halında yem hazırlamaq üçün avadanlıq zavodu və digər müəssisələr təmsil edir. Ölkəmizin digər iqtisadi rayonlarındakı kimi bu iqtisadi rayonda da avtomobil təmiri müəssisələri geniş yayılmışdır.İqtisadi

rayonun maşınqayırma sənayesinə daxil olan sahələrdən biri də yol və kommunal maşınqayırma sahələridir. Belə müəssisələrdə istehsal olunan kiçik mexanizmlər, əsasən, yol tikintisi və meliorativ işlərdə istifadə edilir. Bu müəssisələrə Mingəçevirdə yerləşən təcrübə eksperimental "Yoltexnika" zavodu, "Mingəçeviryolmaş" zavodları aiddir. Aran iqtisadi rayonunda maşınqayırma sənayesi üzrə 83 min ədəd güc transformatoru, 4,8 min ədəd yüksək gərginlikli cihaz, 2400 min ədəd elektrik lampası, 1931 ədəd mancanax dəzgahı istehsal edilmişdir.

İqtisadi rayon ərazisindəki bütün inzibati rayonlarda yüngül və yeyinti sənayesi müəssisələri mövcuddur. Bu sahəyə aid müəssisələr arasında pambığın ilkin emalını həyata keçirən pambıqtəmizləmə zavodları məhsul istehsalına görə yüksək xüsusi çəkiyə malikdir. Bu rayonda pambıq parça istehsalı, yunun ilkin emalı, xalçaçılıq, meyvə-tərəvəz, balıq konservləri və s. yüngül və yeyinti müəssisələrinin inkişaf etdirilməsi imkanları mövcuddur.İqtisadi rayonda bir sıra pambıqtəmizləmə zavodları, sapəyirmə, pambıq-parça toxuma, tütün fermentləmə, xalça toxuma, gön-dəri və s. müəssisələr fəaliyyət göstərir. Rayonun yeyinti sənayesi çörək, yağ-süd, pendir, unüyütmə və konserv zavodları və s. ilə təmsil olunur (37).

Aran iqtisadi rayonunun təhlilləri göstərir ki, iqtisadi rayona daxil olan rayonlarda sahibkarlıq iqtisadiyyatın əksər sahələri ilə təmsil olunur. Kənd təsərrüfatı sahəsi aparıcı sahə olmaqla, elmtutumlu sahibkarlığın inkişafı istiqamətində müəyyən irəliləyiş hiss olunur. İqtisadi rayonda maşınqayırma və kimya sənayesi sahələri üzrə kredit müraciətlərinin dinamikasında müsbət tendensiya vardır. Sahibkarlıq subyektləri tərəfindən Sahibkarlığa Kömək Milli Fonduna təqdim olunan istehsal və emal yönümlü investisiya layihələrinin əsas məğzi isə məhsul istehsalı prosesinə müasir, beynəlxalq standartlara cavab verən texnologiyaların tətbiq edilməsidir. İnvestisiya layihələri üzrə güzəştli kredit vəsaitinin təyinatı müəyyən tikinti-quraşdırma işlərinin aparılmasına, maşın və mexanizmlərin, avadanlıqların, nəqliyyat vasitələrinin alınması və s. olmuşdur (48).

Aran iqtisadi rayonunda fəaliyyət göstərən müəssisələr: Şirvan şəhərindəki "Telemexanika" zavodu, Biləsuvar rayonunda "Biləsuvar Aqro" süd məhsulları istehsalı zavodu, Neftçalada "Azər-Yod" MMC-nin eyniadlı müəssisəsi, "Kürdəmir-Taxıl" ASC, Göyçaydakı "Göyçay-Konserv" ASC, "Kərpic-San" MMC, "Göyçay-Süd" ASC, Ağdaş rayonunda "Orelay" qənnadı fabriki, Bərdədəki "Qarabağ-Pambıq", "Bərdə Yağ-Pendir", mini makaron fabriki, Mingəçevir şəhərindəki "Azərkabel", Yevlaxdakı "Yevlax-təmir" ASC, "Lalə Tekstil", ARFA mebel fabriki, Salyanda süd emalı zavodu, Mingəçevirdə meyvə şirəsi və pivə istehsalı ilə məşğul olan "Zeynalabdin-94" firması, beton dayaqlar və elektron avadanlıqlar zavodu, İmişlidə "Araz" konservləşdirilmiş şirə və konyak istehsalı müəssisəsi, şəkər zavodu və s.

Rayonda sənaye çoxsahəlidir. 2014-cü ilin məlumatlarına görə onun sənaye müəssisələrində 23.9 min işçi çalışır. Sənayedə qeyri-dövlət sektorunun xüsusi çəkisi 55.5 faiz təşkil etmişdir.Növbəti cədvəldən aydın olur ki, fəaliyyət göstərən müəssisələrin sayında 2009-cu ildən sonra azalma müşahidə olunmuşdur. Lakin buna baxmayaraq sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayında biz hər il artım müşahidə edirik. Həmçinin göstərə bilərik ki, sənaye məhsulunun həcmi 2.5 dəfə, işçilərin orta aylıq əmək haqqı 3 dəfə, əsas sənaye istehsal fondlarının həcmi isə 3.3 dəfə artmışdır.

Cədvəl 2.9

**Aran iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 333 | 331 | 334 | 344 | 378 | 367 | 336 | 339 | 323 | 321 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 640 | 669 | 666 | 746 | 781 | 927 | 1139 | 1335 | 1540 | 1782 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, milyon manat | 373.5 | 540.1 | 658.7 | 771.5 | 581.0 | 629.3 | 791.1 | 821.5 | 858,9 | 958,9 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 31.1 | 47.9 | 48.3 | 58.7 | 59.0 | 64.1 | 62.5 | 60.3 | 60,9 | 55,5 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 10333 | 14669 | 23958 | 25338 | 15507 | 14437 | 27720 | 27842 | 25895 | 33059 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| İşçilərin orta siyahı sayı, nəfər | 22919 | 24819 | 26604 | 25554 | 22172 | 22561 | 22412 | 22267 | 24085 | 23922 |
| İşçilərin orta aylıq əmək haqqı,manat | 147.5 | 168.6 | 252.1 | 308.5 | 317.0 | 320.1 | 352.7 | 378.3 | 412,4 | 465,0 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 979.0 | 1020 | 1179 | 1294 | 1529 | 1699 | 2067 | 2320 | 2722 | 3275 |
| əvvəlki ilə nisbətən, faizlə | 104.8 | 104.7 | 115.2 | 110.4 | 118.2 | 111.1 | 114.2 | 109.5 | 117,3 | 121,0 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Lənkəran iqtisadi rayonundafaydalı qazıntılar azdır, qeyri-filizlərdən tikinti qumu, gil, çaydaşı, gips ehtiyatları vardır, zəngin termal və mineral sulara malikdir.

Sənaye sahələri kənd təsərrüfatı xammallarının emalı əsasında inkişaf etmişdir və becərilən kənd təsərrüfatı məhsullarının və Xəzər dənizindən tutulan balıqların emalına əsaslanır. Lənkəran iqtisadi rayonunun iqtisadiyyatının əsasını aqrar-sənaye kompleksi təşkil edir (43).

Bununla yanaşı bu rayonda yeyinti sənayesi müəssisələrinin inkişafı üçün böyük imkanlar vardır. Belə ki, kənd təsərrüfatının tərəvəzçilik, üzümçülük, çayçılıq və digər sahələrinin inkişafı bu rayonda kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılması və inkişafını perspektivli edir. Yeyinti sənayesində balıq emalı, çay, meyvə-tərəvəz konservi və şərab istehsalı mühüm yer tutur, ət, süd, pendir, çörəkbişirmə müəssisələri fəaliyyət göstərir.Astarada yeni konserv zavodları, Masallıda şirniyyat fabriki, Lənkəranda "Ş-Mari" firmasının pivə istehsalı müəssisəsi, istehsal gücü 60 ton süd olan "Nur-Süd" süd emalı müəssisəsi fəaliyyət göstərir.

2006-cı ildə Astara rayonunda modul tipli elektrik stansiyasının istifadəyə verilməsi sənaye müəssisələrinin elektrik enerjisi ilə təminatı baxımından mühüm əhəmiyyətə malikdir (37).

Son illərdə ölkənin bütün rayonlarında olduğu kimi Lənkəran iqtisadi rayonunda da iqtisadi artım baş vermişdir. Belə ki, 2005-2014-cü illər ərzində rayonun sənaye məhsulunun həcmi 4 dəfə artmışdır.Nəticə etibarı ilə isə işçilərin orta aylıq əmək haqqı 4 dəfə, əsas sənaye-istehsal fondlarının həcmi isə təqribən 3 dəfə artmışdır.

Cədvəl 2.10

**Lənkəran iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | 2005 | 2006 | 2007 | 2008 | 2009 | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 78 | 80 | 82 | 79 | 84 | 92 | 84 | 75 | 76 | 77 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 250 | 261 | 299 | 299 | 321 | 390 | 482 | 609 | 716 | 1144 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin qiymətləri ilə, min manat | 18170 | 23513 | 34763 | 40983 | 42616 | 49510 | 65920 | 19085 | 65170 | 70995 |
| Sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 70.2 | 50.4 | 54.8 | 49.7 | 53.7 | 56.2 | 59.8 | 59.9 | 59,9 | 58.7 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 2839 | 1802 | 1240 | 1036 | 1922 | 2608 | 2763 | 3150.2 | 4513 | 4716 |
| İşçilərin orta siyahı sayı, nəfər | 3069 | 3098 | 3134 | 3500 | 3153 | 3895 | 3913 | 4363 | 5560 | 5827 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 63.3 | 83.3 | 142.3 | 175.8 | 180.4 | 212.5 | 232.6 | 254.8 | 270,5 | 284.9 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 83.4 | 128.0 | 142.6 | 152.0 | 135.6 | 172.4 | 170.4 | 145.5 | 192,4 | 217.9 |
| əvvəlki ilə nisbətən, faizlə | 102.0 | 172.8 | 109.4 | 104.6 | 88.8 | 127.1 | 98.8 | 109.7 | 107,1 | 113.5 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Naxçıvan iqtisadi rayonunda polimetal filizləri, mis, molibden, daş duz, tikinti materialları (mərmər, travertin, tikinti daşı), dolomit, gips kimi mühüm təbii sərvətlər vardır. Azərbaycan Respublikasının molibden və dolomit ehtiyatlarının hamısı, mineral su ehtiyatlarının 60 faizi Naxçıvan iqtisadi rayonunun payına düşür. İqtisadi rayon Badamlı, Sirab, Vayxır və s. kimi 200-dən çox qiymətli mineral su bulaqlarına malikdir.

Naxçıvan sənayesi yüksək inkişaf etmiş iqtisadi rayonlardan biridir. Ölkənin sənaye məhsulunun 2,8 faizi bu rayonun payına düşür. Elektroenergetika (Araz su qovşağı), elektrotexnika (Naxçıvan), alüminium qablar, mebel və butulka (Naxçıvan), avtomobil təmiri (Şahbuz) müəssisələri sənayenin aparıcı sahələrini təmsil edir.

Naxçıvaniqtisadirayonumineraltikintimateriallarınınböyükmiqdardaehtiyatınamalikdir. Tikinti materiallarının sənayesi üzrə dəmir-beton konstruksiyaları (Naxçıvan, Şərur), üzlük material zavodları, qum-çınqıl karxanası işləyir.

Muxtar Respublikada energetika sənayesi "Araz" su elektrik stansiyası və istilik elektrik stansiyası ilə təmsil olunur. 1970-ci ildə istifadəyə verilmiş Araz SES-in gücü Azərbaycan və İran tərəflərində olmaqla hər birində 22 meqavatta bərabərdir (39).

Muxtar Respublikanın maşınqayırma və metal emalı sənayesi Alüminium Qablar Səhmdar cəmiyyəti, Filiz İdarəsi, "Araz" Təcrübə Zavodu, Elektrotexnika Zavodu, Ordubad Elektron Zavodu və Şahbuz avtomobil təmiri zavodundan ibarətdir. Bu sənaye sahələri, əsasən, hazır məhsullar istehsal etmələri baxımından çox əhəmiyyətlidir. Lakin qeyd etmək lazımdır ki, hazırda bu müəssisələrin əksəriyyəti iflas vəziyyətindədirlər və işləmirlər, bəziləri isə öz istehsal profilini dəyişmişdir.

Yüngül və yeyinti sənaye sahələri rayonun iqtisadiyyatında mühüm yer tutur. Naxçıvan şəhərində sənaye məhsulunun 70 faizdən çoxu yeyinti sənayesinin, 10 faizi isə yüngül sənayenin payına düşür. İqtisadi rayonun yüngül sənayesi tikiş (Naxçıvan, Culfa), ipəkəyirmə (Ordubad), xalçaçılıq, trikotaj (Naxçıvan) müəssisələri, yeyinti sənayesi isə konserv (Ordubad, Şərur), tütün-fermentasiya, mineral su doldurulması, ət emalı, balıq zavodu (Naxçıvan, Şahbuz, Şərur) müəssisələri ilə təmsil olunmuşdur. Konserv sənayesi ixtisaslaşmış sənaye sahələrindən olmaqla, əsasən, Ordubad və Şərur meyvə-tərəvəz konserv zavodlarından ibarətdir. Ordubad şəhərində yerləşən meyvə konservi kombinatının bir sexi və altı yardımçı sexi vardır ki, burada da ən çox ərik, qızılgül, qoz, heyva və s. yüksək keyfiyyətli konserv məhsulları istehsal edilir (41).

Son illərdə rayonlarda aparılan sosial-iqtisadi inkişaf tədbirləri öz nəticəsini Naxçıvan iqtisadi rayonunda daha qabarıq göstərmişdir. Belə ki, 2005-ci illə müqayisədə 2014-cü ildə sənaye məhsulunun həcmi 21.6 dəfə artmışdır.

Cədvəl 2.11

**Naxçıvan iqtisadi rayonunun sənayesinin iqtisadi göstəriciləri**

| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 96 | 127 | 136 | 136 | 135 | 135 | 135 | 135 | 135 | 135 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 221 | 252 | 319 | 332 | 350 | 390 | 421 | 470 | 520 | 586 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin faktiki qiymətləri ilə, min manat | 41,2 | 70444 | 122,7 | 164,5 | 212,5 | 318,6 | 680.9 | 799.5 | 863 | 891,5 |
| Sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə | 66.6 | 77.0 | 69.3 | 82.3 | 84.3 | 87.7 | 91.8 | 92.6 | 92,6 | 62,6 |
| Hazır məhsul ehtiyatının ilin axırına qalığı, min manat | 92.7 | 30.3 | 177.1 | 376.4 | 352.7 | 2099 | 2301 | 2049 | 1909 | 3238 |
| İşçilərin orta siyahı sayı, nəfər | 3831 | 4530 | 6021 | 7701 | 9376 | 12855 | 14454 | 15095 | 15385 | 15551 |
| İşçilərin orta aylıq əmək haqqı, manat | 108.7 | 122.0 | 168.4 | 206.7 | 243.3 | 295.1 | 338.6 | 347.8 | 356,3 | 358,8 |
| Əsas sənaye-istehsal fondları, ilin axırına, balans dəyəri ilə, milyon manat | 120.5 | 146.1 | 152.4 | 174.3 | 241.2 | 719.2 | 797.5 | 805.6 | 850,3 | 861,4 |
| əvvəlki ilə nisbətən, faizlə | 110.3 | 123.1 | 103.8 | 111.9 | 138.4 | 102.6 | 110.9 | 101.6 | 105,6 | 101,3 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Ölkənin ayrı-ayrı iqtisadirayonlarındasənayeninistehsalınınmövcud vəziyyətinin təhlili onu göstərirki, son illərdə qəbul edilən Dövlət Proqramları öz nəticələrini göstərməkdədir. Belə ki, ölkənin ayrı-ayrı iqtisadi rayonlarında sənaye istehsalının həcmi artır, rayonlarda tarazlı inkişafa nail olunur.

## 2.2. Regionlarda sənaye müəssisələrinin inkişaf problemlərinin təhlili

Hazırda Azərbaycanın müxtəlif regionlarında sosial-iqtisadi inkişafın ümumi səviyyəsinə görə müşahidə edilən böyük fərqlər əvvəllər uzun müddət istehsalın ərazi üzrə təşkilində buraxılan səhvlərin nəticələridir (40).

Apardığımz təhlillərdən məlum olur ki, son dövrlərdə, xüsusilə də ölkə Prezidenti tərəfindən təsdiq olunan "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər)" həyata keçirildikdən sonra regionların sosial-iqtisadi inkişafının göstəricilərində artım meylləri əmələ gəlmişdir. Belə ki, regionlarda yeni müəssisələr yaradılmış və onun da əsasında yeni iş yerləri açılmışdır.Regionlarda yeni yaradılmış müəssisələrin sayında kəskin fərqlənmələr mövcud

olmuşdur. Bu, çox səmərəli meyldir və perspektiv üçün daha da gücləndirilməlidir. Lakin buna baxmayaraq ölkənin ayrı-ayrı regionları üzrə sənaye istehsalı qeyri-bərabər inkişaf etməkdədir və onların ümumi istehsaldakı xüsusi çəkiləri çoxfərqlidir.

Regionlarda sənayenin bu cür zəif inkişafı bir çox amillərlə əlaqədardır. Məlumdur ki, sənaye istehsalının cari və perspektiv inkişafına təsir edən əsas amillərdən biri müəssisəyə qoyulan investisiya qoyuluşundan asılıdır. Çünki investisiya iqtisadiyyatın sabitləşdirilməsinin və perspektiv inkişafının əsas vasitələrindən biri kimi çıxış etməklə real ümumi kapitalın artırılmasında iqtisadi səmərəliliyin stimullaşdırılmasında, bir sözlə rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında mühüm rol oynayır. Onun istifadə nəticəliliyinin və yığım səviyyəsinin yüksəldilməsi real istehsalın canlandırılmasının və iqtisadiyyatın yeni sektorlarının yaradılması və inkişafının əsas əlaməti olmaqla böhranlı hadisələrin aradan qaldırılmasına və ölkənin milli sərvətinin artırılmasına zəmin yaradır.

Azərbaycan iqtisadiyyatına yönəldilmiş istər daxili, istərsə də xarici investisiyaların ölkənin rayonları üzrə bölgüsündə kəskin fərqlər mövcuddur. Növbəti cədvəlin məlumatlarının təhlilindən məlum olur ki, 2014-cü ildə ölkədə əsas kapitala yönəldilmiş investisiyanın 71.92 faizi Bakı şəhərinin, 3.36 faizi Abşeron iqtisadi rayonunun, 4.95 faizi Gəncə-Qazax iqtisadi rayonunun, 1.38 faizi Şəki-Zaqatala iqtisadi rayonunun, 1.93 faizi Lənkəran iqtisadi rayonunun, 2.24 faizi Quba-Xaçmaz iqtisadi rayonunun, 6.98 faizi Aran iqtisadi rayonunun, 0.59 faizi Yuxarı Qarabağ iqtisadi rayonunun, 1.04 faizi Dağlıq Şirvan iqtisadi rayonunun və 5.61 faizi Naxçıvan iqtisadi rayonununpayına düşmüşdür.

Cədvəl2.12

**Əsaskapitalainvestisiyaqoyuluşlarınınregionalstrukturu (min. man)**

| İqtisadi rayonlar | 2014-cü il |
|---|---|
| Azərbaycan Respublikası | 16481714,1 |
| Bakı şəhəri | 11853003,0 |
| Abşeron iqtisadi rayonu | 553132,0 |
| Gəncə-Qazax iqtisadi rayonu | 816498,4 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 227259,8 |

| | |
|---|---|
| Lənkəran iqtisadi rayonu | 318333,3 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 368760,3 |
| Aran iqtisadi rayonu | 1150465,5 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 97836,8 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 198,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 171598,1 |
| Naxçıvan iqtisadi rayonu | 924628,6 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanıb.

Həyata keçirilən kapital qoyuluşlarının ərazi quruluşu Abşeron iqtisadi rayonunun, xüsusilədə Bakı şəhərinin sənaye potensialının respublikanın sənaye potensialının həcmində xüsusi çəkisinin daha da artmasına gətirib çıxaracaqdır. Hal-hazırda respublikamızın iqtisadiyyatının indiki vəziyyətində, xüsusilə investisiya qıtlığı şəraitində, təkcə daxili imkanlar hesabına həyata keçirilməsi mümkün olmayan sənaye istehsalının ərazi quruluşunun təkmilləşdirilməsinə və rayonların mövcud resurslarından səmərəli istifadə olunmasına nəzərə çarpacaq dərəcədə təsir göstərmək və investisiya qoyuluşunun artırılması üçün həmin rayonlarda müştərək müəssisələrin inkişafının dəstəklənməsi zəruridir.

Bazar iqtisadiyyatı şəraitində regionlarda sənayenin inkişafına nail olunmasında sahibkarlıq fəaliyyətinin inkişaf səviyyəsinin xüsusi əhəmiyyəti vardır. Belə ki, ölkənin regionlarında mövcud sənaye müəssisələrinin əksəriyyətinin uzun müddət işləməməsi onların yenidən qurulmasını tələb edir. Sənaye müəssisələrinin yenidən qurulmasına mane olan əsas amillərə ilk növbədə, yerli sahibkarlığın zəif inkişafı təsir göstərir. Aparılan təhlil göstərir ki, hal-hazırda regionların əksəriyyətində sahibkarlıq fəaliyyətinin,xüsusilə də sənaye sektorunda sahibkarlığın inkişaf səviyyəsi olduqca zəifdir. Bunun nəticəsidir ki, regionların əksəriyyətində istehsal olunmuş sənaye məhsulunun həcmində özəl bölmə çox kiçik paya malikdir.

Cədvəl 2.13

**İqtisadi rayonlar üzrə sənaye məhsulunun həcmində qeyri-dövlət sektorunun xüsusi çəkisi, faizlə**

| | **2005** | **2006** | **2007** | **2008** | **2009** | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|---|---|---|---|---|

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə) | 72,9 | 75,8 | 80,3 | 82.4 | 78.3 | 80,6 | 81,4 | 80,5 | 81,9 | 79,9 |
| Abşeron iqtisadi rayonu | 15.2 | 20.7 | 28.1 | 29.1 | 41.0 | 36,9 | 37,6 | 52,4 | 44,2 | 40,4 |
| Gəncə-Qazax iqtisadi rayonu | 23.5 | 22.2 | 33.2 | 41.8 | 43,5 | 45,0 | 49,0 | 66,0 | 59,0 | 54,2 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 34,0 | 15,4 | 48,0 | 56,0 | 58,3 | 66,3 | 62,5 | 58,5 | 61,0 | 67,5 |
| Lənkəran iqtisadi rayonu | 70,2 | 50,4 | 54,8 | 49.7 | 53,7 | 56,2 | 59,8 | 58,6 | 59,9 | 58,7 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 50.1 | 58.9 | 36.6 | 45.6 | 55,2 | 57,1 | 43,0 | 35,4 | 45,0 | 33,9 |
| Aran iqtisadi rayonu | 31,1 | 47,9 | 48,3 | 58,7 | 59,0 | 64.1 | 62,5 | 60,3 | 60,9 | 55,5 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 52,7 | 36,6 | 19,0 | 22.6 | 24.6 | 13.6 | 8,5 | 13,9 | 14,6 | 11,3 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 42.7 | 54,8 | 73,6 | 65.5 | 47,9 | 19,3 | 23,4 | 40,8 | 46,6 | 51,2 |
| Naxçıvan iqtisadi rayonu | 66,6 | 77,0 | 69,3 | 82.3 | 84.3 | 87,7 | 91,8 | 92,6 | 92,6 | 92,6 |

Qeyd: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Hal-hazırda regionlarda sahibkarlıq fəaliyyətinin inkişafına bir çox amillər təsir edir. Bu amillər, əsasən, aşağıdakılardan ibarətdir:

– regionlarda əlverişli sahibkarlıq mühitinin hələdə tam formalaşmaması;

– regionlarda sənaye müəssisələrində iqtisadi islahatların, o cümlədən özəlləşdirmə prosesinin zəif aparılması;

– müəssisələrin yaradılması, qeydiyyatı və fəaliyyəti ilə əlaqədar təşkilati və bürokratik maneələrin rayonlarda hələdə çox olması. Xüsusilədə 2008-ci ilin yanvar ayından tətbiq olunan “vahid pəncərə” sistemindən istifadənin mümkünlüyünün çox zəif olması və s.

Regionlarda sənaye inkişafında olan ciddi problemlərdən biri, hal-hazırda proqressivləşən sənayenin maddi-texniki bazasının əsası kimi çıxış edən əsas fondların texnoloji və yaş strukturunun pisləşməsidir. Şübhəsizki, bu da regionlarda sənaye müəssisələrində əsas istehsal fondlarının yeniləşmə və sıradan çıxma əmsalının aşağı olması ilə əlaqədardır.Aparılan təhlillərdən məlum olur ki, 2014-cü ildə respublikamızın regionları içərisində sənaye müəssisələrində əsas istehsal fondlarının ən çox yeniləşməsi Bakı şəhərində olmuşdur, yəni 23,7 faiz olmuşdur. Bundan fərqli olaraq, bu göstəricilər digər rayonlarda, məsələn, Sumqayıt şəhərində 1,0 və 0,3 faiz, Şəki şəhərində 4,3 və 0,1 faiz,

Xaçmaz rayonunda 0,2 və 0,4 faiz, İmişli rayonunda 2,1 və 0,1 faiz olmuşdur. Respublikanın bütün regionlarında sənayedə əsas istehsal fondlarının təzələnmə əmsalı nisbətən yüksək olduğu halda sıradançıxma əmsalı kiçikdir. Belə ki, 2014-cü ildə təzələnmə əmsalı sıradan çıxma əmsalından bir neçə dəfə yüksək olmuşdur. Göstərilən rəqəmlərdən məlum olur ki, sənayedə, əsasən,mövcud əsas istehsal fondlarının yenidən qurulması deyil, yenilərinin yaradılması həyata keçirilir ki, bunun da hesabına onların dəyərinin artım sürəti yüksək olur.

Göründüyü kimi, regionların sənaye müəssisələrində köhnəlmiş avadanlığın dəyişilməsi prosesi hədsiz ləng baş verir, müəssisələr isə bu prosesi tezləşdirmək imkanına malik deyillər.

Regionlarda sənaye müəssisələrinin inkişaf problemlərindən biri regionlarda bu sahədə kadr çatışmazlığıdır. Son beş ildə, yəni 2010-2014-cü illər ərzində regionlarda sənaye müəssisələrində sənaye işçilərinin sayında cüzi artım müşahidə olunmağına baxmayaraq, bu göstərici iqtisadi rayonların əhalisinin sayında azlıq təşkil edir. Belə ki, göstərilən 5 il ərzində sənaye müəssisələrində çalışanların sayı aşağıdakı cədvəldəki kimi olmuşdur:

Cədvəl 2.14

**Regionlar üzrə sənaye müəssisələrində işləyənlərin sayı, nəfər**

| | **2010** | **2011** | **2012** | **2013** | **2014** |
|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə) | 98635 | 92311 | 96420 | 102338 | 102571 |
| Abşeron iqtisadi rayonu | 18378 | 17982 | 17241 | 20899 | 21985 |
| Gəncə-Qazax iqtisadi rayonu | 13040 | 13117 | 12505 | 15035 | 13359 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 4551 | 4556 | 4992 | 5348 | 5345 |
| Lənkəran iqtisadi rayonu | 3895 | 3913 | 4363 | 5560 | 5827 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 4552 | 4087 | 4810 | 4999 | 4875 |
| Aran iqtisadi rayonu | 22561 | 22412 | 22267 | 24085 | 23922 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 1502 | 1440 | 1303 | 1485 | 1597 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1564 | 1721 | 1826 | 1955 | 2054 |
| Naxçıvan iqtisadi rayonu | 12855 | 14454 | 15095 | 15385 | 15551 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında hazırlanıb.

Regionlarda sənaye müəssisələrində işçi axıcılığının əsas səbəblərindən biri həmin müəssisələrdə əmək haqqının digər sahələrə nisbətən aşağı səviyyədə olmasıdır. Belə ki, ölkənin ayrı-ayrı regionlarının sənayesində orta aylıq əmək haqqının səviyyəsi arasında kəskin fərqlər mövcuddur. Aşağıdakı cədvəlin məlumatlarından göründüyü kimi, ən yüksək orta aylıq əmək haqqı Bakı şəhərindəki sənaye müəssisələrində olmuşdur. Bu isə sənaye sahələrindəki yüksək ixtisaslı kadrların regionlardan ölkənin paytaxtına və xarici ölkələrə miqrasiyasına səbəb olur.

Cədvəl 2.15

**2010-2014-cü illərdə iqtisadi rayonlarda sənaye işçilərinin orta aylıq əmək haqqı (manat)**

| | 2010 | 2011 | 2012 | 2013 | 2014 |
|---|---|---|---|---|---|
| Bakışəhəri | 584.4 | 684.3 | 800.5 | 853,0 | 952,0 |
| Abşeron | 300.0 | 337.5 | 389.1 | 475,4 | 519,6 |
| Gəncə- Qazax | 259.4 | 283.9 | 303.1 | 331,7 | 370,7 |
| Şəki-Zaqatala | 194.0 | 239.5 | 276.7 | 305,1 | 305.2 |
| Lənkəran | 212.5 | 232.6 | 270,5 | 270,5 | 284.9 |
| Quba-Xaçmaz | 319.7 | 363,0 | 393.5 | 453,6 | 449.4 |
| Aran | 320.1 | 352.7 | 378.3 | 412,4 | 465,0 |
| YuxarıQarabağ | 172.3 | 198.0 | 268.0 | 274,3 | 287,4 |
| Dağlıq-Şirvan | 195.1 | 234.1 | 266.7 | 279,6 | 297,1 |
| Naxçıvan | 295.1 | 338.6 | 347.8 | 356,3 | 358,8 |

Qeyd: Cədvəl Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin materialları əsasında müəllif tərəfindən hazırlanıb.

Təhlil göstərirki, regionlardakı yüksək səviyyəli mütəxəssis və fəhlə kadrların iri şəhərlərdə cəmləşməsi nəticəsində bir çox sənaye müəssisələrində uzun illər ərzində toplanmış istehsal, texnoloji biliklərin itirilməsi baş vermişdir və bu da müasir şəraitdə istehsalların bərpası işlərində kadr problemini həlledici amillərdən birinə çevirmişdir. Rayon əhalisinin sənaye yönümlü ixtisas-peşə səviyyələrinin aşağı olduğuna görə sənaye müəssisələrində əmək məhsuldarlığı aşağı düşmüşdür.

Regionlarda mövcud olan sənaye müəssisələrinin əksəriyyətinin maliyyə vəziyyətləri yaxşı olmadığına görə bu cür müəssisələrdə texniki silahlanma işi kifayət qədər aparılmır və ya heç aparılmır. İnkişaf etmiş ölkələrin təcrübələrindən də məlum olur ki, belə

müəssisələrin texniki səviyyələrinin yaxşılaşdırılmasında regionlarda fəaliyyət göstərən lizinq kompaniyalarının rolu böyük olar. Lakin nəninki, regionlarda, hətta ümumilikdə respublikada istehsal vasitələrinin icarəyə verilməsi ilə məşğul olan lizinq müəssisələri fəaliyyət göstərmir. Bu baxımdanda regionlarda sənaye müəssisələrinə xidmət göstərən lizinq kompaniyalarının fəaliyyəti stimullaşdırılmalıdır. Belə ki, həmin müəssisələrə vergi güzəştlərinin edilməsini məqsədəuyğun hesab edirik.

İstər ölkə, istərsədə region miqyasında maddi istehsal sahələrinin, o cümlədəndəsənaye sahələrinin inkişafının əsas hərəkətverici qüvvələrindən biri infrastruktur – istehsal və bazar infrastruktur sahələrinin inkişaf səviyyəsidir. İnfrastruktur sahəsinin inkişafı ictimai istehsalın yerləşdirilməsinin səmərəliliyinin yüksəldilməsinə daha çox təsir göstərir. Müasir istehsal məhsuldar qüvvənin əsas elementi olan insan amilinə, xüsusi olaraq onun keyfiyyət xarakteristikası qarşısında yeni tələblər qoyur. Belə ki, işçilərin ixtisasının, peşə hazırlığının, əmək və məişət şəraitinin, istirahətinin, bütün maddi və sosial tələbatlarının tam ödənilməsi məsələsi ön plana keçir. Buna isə yalnız xidmət sahəsinin yüksək səviyyədə inkişaf etməsi hesabına nail olmaq olar.

Hazırki şəraitdə infrastruktur sahəsinin regionlar üzrə inkişafı sahəsində bir sıra geriliklər vardır:

– Respublikanın rayonları üzrə istehsal və xidmət sahəsi qeyri-mütənasib şəkildə yerləşdirilmişdir;

– Xidmət sahəsinin maddi-texniki bazasının geri qalması və göstərilən xidmətlərin keyfiyyətinin aşağı olması;

– Respublikanın rayon, şəhər və kənd yerlərində xidmət müəssisələrinin maddi-texniki bazası, fondlarla təmin olunması, müasir elmi-texniki tərəqqinin istehsalata tətbiqi və idarəetmə metodları bir-birindən kəskin fərqlənir.

Regionun istehsal infrastrukturu digər sistemlərdə olduğu kimi özündə giriş, proses və çıxış kimi elementləri birləşdirir. Burada istehsal infrastrukturu sisteminə "giriş" aspekti

qismində inkişafa təsir edərək əməyin ərazi bölgüsü kimi yaranan yerli təbii və digər resurslardan istifadəni birləşdirən istehsal faktorlarına baxılması məqsədəuyğundur.

İstehsal infrastrukturunun fəaliyyət “proses”ini ərazi təsərrüfat sistemi üçün məhdud keyfiyyət və kəmiyyətdə istifadə olunan resursların material istehsalı və təkrar istehsalına şəraitin yaradılması əks etdirir.

İstehsal infrastrukturunun “çıxış”ı keyfiyyətində isə regionun davamlı inkişafını təmin edən material istehsalının fəaliyyət nəticəliliyi çıxış edir.Bazar münasibətləri şəraitində vahid kompleks kimi regionun istehsal infrastrukturunun fəaliyyətləndirilməsində, yeri və rolunun dəqiqləşdirilməsində, optimal istehsal-sahəvi strukturunun təminatında, idarəetmə sistemində, yerli və mərkəzi orqanlarla qarşılıqlı münasibətlərində bir sıra nəzəri və metodoloji problemlər mövcuddur. Bu problemlər kəskinliyi ilə dayanmasa da kompleks daxilində inkişaf edən bazar münasibətləri ilə bağlı daim təkmilləşmələr tələb edir. Bu problemlərin qarşısının alınması, onların mülayimləşdirilməsi regionun istehsal infrastrukturunu xarakterizə edən göstəricilər sisteminin dəqiq təyinatı və metodoloji baxımdan tənzimlənməsini şərtləndirir. Regionun istehsal infrastrukturu, eləcə də bütövlükdə onun sosial-iqtisadi inkişafının göstəricilər sistemi özündə bir sıra mürəkkəb struktur elementlərini də əks etdirir. Bu göstəricilər sistemi daha çox idarəetmə məsələlərində bir sıra meyarların nəzərə alınmasını şərtli edir. Buraya sosial, iqtisadi, şəhər tikintisi kimi inkişaf effektlərini əhatə edən göstəricilər daxildir. Ümumi mənzərədə regionun istehsal infrastrukturun göstəriciləri bir sıra mühüm sosial-iqtisadi parametrlərdə səciyyələnən bütövlükdə regionun əhalisinin həyat səviyyəsini əks etdirməlidir (35.s.95).

Hər bir region özünün sosial-iqtisadi tərkibi, inkişaf səviyyəsi və digər xarakterik cəhətləri ilə unikallıq təşkil edir. Bu xüsusiyyətlilik regionun istehsal infrastrukturunun onun sosial infrastrukturu ilə qarşılıqlı əlaqəliliyinin təyinatında mühüm əhəmiyyət daşıyır. Bununla belə, bütün regionlar ölkənin vahid sosial və iqtisadi məkanı çərçivəsində, iqtisadiyyatı daxilində inkişaf tapırlar. Bu qarşılıqlı əlaqəliliyin təyinatında infrastrukturların təsiri biri digərinə keçir. Nəticədə əvvəlcə nəzərdə tutulanın əksi yaranaraq qarşılıqlı keçid

formalaşır. Bu dövriyyə spiralvari formada bütün növ infrastrukturların qarşılıqlı əlaqəliliyini əks etdirir. Bununla belə, burada hər bir infrastruktur vahid bənd olaraq yalnız xassəlik əlamətinə görə qarşılıqlı əlaqəlilikdə olur. Buna görə də regional idarəetmə istehsal infrastrukturu ilə sosial infrastrukturun inkişaf stimullarını tapmaqla yanaşı, onların ümumi olan xassəvi əlamətlərinə təsir etmə alətlərinə də malik olmalıdır. Əslində real həyatda da istehsal infrastrukturu ilə sosial infrastrukturun ayrıca mövcudluğu mümkün deyildir.

Təcrübədə regional iqtisadi artımın istehsal infrastrukturundan asılılığı əhəmiyyətli dərəcədə inkişaf etmiş sosial infrastrukturdan asılıdır. İnkişaf etməmiş sosial infrastrukturinsanlara sosial motivasiyalarını dolğun reallaşdırmağa imkan vermir. Buna görə də regionun istehsal infrastrukturunun inkişaf proqramlarını həyata keçirərkən onun tərkib hissəsi olan sosial infrastrukturun inkişaf proqramı da hazırlanıb reallaşdırılmalıdır. Regional istehsal infrastrukturunun inkişaf strategiyasında belə yanaşma zəruridir və bu reallıq özündə bir sıra digər istiqamətlərin də həyata keçirilməsini şərtləndirir. Burada əsas istiqamət regionun pasport tərtibatında ideoloji dəyişiklik və təkmilləşmələrin aparılması ilə bağlıdır. Hazırda bir çox ölkələrdə regionun infrastrukturunun müxtəlif obyektlərinin inventarizasiyasını aparmaq məqsədilə belə pasportlar yaradılır. Bu sənəd regionun bütün infrastruktur növlərinin qarşılıqlı əlaqəliliyinin təminatında, xüsusən də istehsal infrastrukturunun qarşılıqlı əlaqəliliyində mühüm rol oynayır.

Hər bir region özünəməxsus iqtisadi göstəriciləri ilə fərqlənir. Lakin müasir regionun iqtisadi gücü, sosial keyfiyyəti ümumi olan formalaşmış göstəricilər sisteminə malikdir. Burada əsas rolu istehsal infrastrukturu və sosial infrastrukturun təkmilliyi, sənaye və kənd təsərrüfatı məhsulunun həcmi, istehlak qiymətləri, real pul gəlirləri, məşğulluğun səviyyəsi, əsas kapitala investisiyalar və sair bu kimi göstəricilər oynayır.

Aparılan təhlil nəticəsində regional istehsal infrastrukturunun fəaliyyətləndirilməsi və inkişafının metodoloji əsasında tədqiqi bir daha göstərir ki, hər bir region özünün coğrafi mövqeyi, ərazi komponentləri, iqtisadi və sosial quruluşuna görə ümumi olduğu qədər də fərqlidir. Bu fərqlilik bir sıra iqtisadi göstəricilərlə xarakterizə olunur. Nəzəri və praktiki

materialların araşdırılması, regionların müasirlik, rəqabətlilik baxımından deyil, məhz təbii resurs bazası, əhali sayı, onun iqtisadi aktivliyi və digər ərazi komponentləri ilə ixtisaslaşaraq fərqləndiyini göstərir. Bu ixtisaslaşma isə müvafiq təsnifat prinsiplərini əks etdirərək ərazi strukturunda formalaşan, təşəkkül tapan istehsal gücləri ilə xarakterizə olunur.

İnkişaf edən bazar münasibətləri idarəetmənin, menecment texnologiyalarının təkmilləşməsi bütün səviyyələrində struktur dəyişiklikləri ilə müşayiət olunur. Müasir zamanda regionun inkişaf səviyyəsi bazar seqmentlərinin genişliyi və modernliyi ilə bağlıdır. Regionun funksional strukturu təbii resurs, sosial, iqtisadi, dini, demoqrafik və s. amil və əlamətlər vəhdətdədir. Bu funksionallığı isə dörd mühüm infrastruktur – istehsal, sosial, ekoloji və institusional infrastrukturlar müəyyənləşdirilir. Bununla belə, bu strukturda informasiya, maliyyə-kredit və kommersiya elementlərini özündə birləşdirən əsas təkanverici qüvvəyə malik olan bazar ifrastrukturu da çıxış edir. Hər birinfrastruktur elementi və ya bazar seqmenti regionun funksional strukturunda məxsusi yer tutur. Müasir zamanda iqtisadi inkişaf etmiş region isə özünün istehsal infrastrukturu ilə üstünlük təşkil edir.

Nəzəri tədqiqatlar göstərir ki, region təkcə xüsusi iqtisadi maraqların daşıyıcısı və iqtisadi münasibətlərin subyekti olaraq deyil, təbii və insani resursların yerləşməsi kimi, həm də əmtəələrin istehsal və istehlakı, xidmət sferasının cəmləşməsi region-bazar məkanı kimi çıxış edir.

Regional infrastrukturun fəaliyyətləndirilməsi və inkişafında mühüm yeri isə bütövlükdə bu infrastrukturun tərkib hissəsi olan material, maliyyə, əmək resursları və təbii sərvətlərdən istifadəni özündə əks etdirən istehsal infrastrukturu tutur. Buna görə də regional inkişaf strategiyasında mövcud istehsal infrastrukturunun xüsusiyyətləri, problemləri, onun digər infrastruktur formaları ilə qarşılıqlı münasibətlərinin nəzərə alınması vacibdir. Bu münasibətlər isə ölkədaxili iqtisadi və sosial durumla bağlı olsa da qlobal meyllərdən də əhəmiyyətli dərəcədə asılıdır (35.s.95-97).

# IIIFƏSİL

# SƏNAYE İSTEHSALININ ƏRAZİ ÜZRƏ TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Azərbaycanda regionların iqtisadi inkişafının əsas istiqamətləri

Azərbaycanda məhsuldar qüvvələrin səmərəli yerləşdirilməsi və ayrı-ayrı regionların iqtisadi potensialından tam istifadə olunması ölkənin iqtisadi inkişafı baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan Respublikası üçün məhsuldar qüvvələrin ərazicə qeyri-bərabər yerləşməsi xarakterikdir. Belə ki, hələ sovetlər dönəmində respublikada regionlar arasında sosial-iqtisadi inkişaf səviyyəsinə görə böyük fərqlər var idi. Ölkənin məhsuldar qüvvələrinin çox hissəsi Bakı şəhəri və onun ətrafında cəmlənmişdir ki, bu meyl müasir dövrdə də davam edir. Ölkə iqtisadiyyatının bazar münasibətlərinə keçidi dövründə ayrı-ayrı regionlarda istehsalın azalması nəticəsində işsizlik səviyyəsinin yüksəlməsi sosial-iqtisadi vəziyyətin ağırlaşmasına, əhalinin regionlardan Bakıya və xarici ölkələrə axınına, bütövlükdə isə ölkənin iqtisadi potensialından tam istifadə edilməməsinə və əlavə sosial problemlərin yaranmasına səbəb olmuşdur. Buna görə də müasir dövrdə respublikanın iqtisadi rayonlarında mövcud olan iqtisadi potensialdan tam və səmərəli istifadə etməklə onların sosial-iqtisadi inkişaf səviyyələrinin artırılması ölkədə aparılan iqtisadi islahatların strateji istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Bütövlükdə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunması regionların təbii-iqtisadi, demoqrafik, ekoloji və digər şərait və xüsusiyyətlərinin hərtərəfli nəzərə alınması əsasında mümkündür. Buna görə də regionlarda mövcud problemlərin həlli, iqtisadi resursların təsərrüfat dövriyyəsinə cəlb edilməsi məsələləri dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindəndir.

Müasir dövrdə ölkə iqtisadiyyatının bazar münasibətlərinə əsaslanması iqtisadi inkişafın idarə olunmasında direktiv planlaşmadan indikativ planlaşmaya keçidi zəruri etmişdir. Məlum olduğu kimi planlı iqtisadiyyatda planların qanun qüvvəsi və yerinə yetirilməsi icbari xarakterə malik idi. Bazar münasibətləri şəraitində də planlaşdırma həyata keçirilir. Belə ki, hökumət iqtisadi inkişafın prioritet istiqamətlərini müəyyən

etməli, bu sahədə həyata keçiriləcək tədbirləri dəqiqləşdirməli və müəyyən olunmuş məqsədlərin yerinə yetirilməsi üçün tənzimləmə metodlarından istifadə etməlidir. Bu metodlar inzibati və iqtisadi metodlara bölünür. Hökumət bu metodlardan istifadə edərək qarşıya qoyulmuş məqsədlərə nail olur.

Hökumətin iqtisadi siyasətinin prioritet istiqamətlərindən biri də məhsuldar qüvvələrin ərazi üzrə rasional yerləşdirilməsinə nail olmaqdır. Bu isə hər bir iqtisadi rayonda inkişaf prioritetlərinin müəyyən olunmasını zəruri edir. Hazırda hökumətin əsas məqsədi ölkənin rayonlarında mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluğun səviyyəsinin, xüsusilə də gənclərin faydalı əməyə cəlb olunmasının artırılmasına və ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Azərbaycanda istənilən regionun sosial-iqtisadi inkişafının qarşısında duran məqsədlərə aşağıdakılar daxildir:

- iqtisadi rayonda davamlı iqtisadi artımın təmin olunması;
- regionun iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi;
- iqtisadi rayonda əməkqabiliyyətli əhalinin məşğulluq probleminin həlli;
- bir işçiyə düşən əmək haqqının və adambaşına real gəlirlərin artırılması;
- iqtisadi rayonda istehsalın texniki-iqtisadi səviyyəsinin və istehsal olunan məhsul və xidmətlərin rəqabətqabiliyyətinin yüksəldilməsi;
- əhalinin həyat səviyyəsinin yüksəldilməsi və sosial bərabərsizliyin azaldılması.

Qarşıya qoyulan məqsədlərə çatmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

- müəssisələrin istehsal fəaliyyətini bərpa etmək və yeni istehsal müəssisələri yaratmaq;
- yerli resurslardan istifadənin səmərəsini artırmaq;

– regionların inkişafı üçün zəruri infrastrukturun yaradılmasını və inkişafını təmin etmək;

– aqrar sektorda islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək məqsədilə müxtəlif servis mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texnika ilə təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirləri həyata keçirtmək;

– investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;

– yeni iş yerlərinin yaradılmasını həvəsləndirmək;

– əhalinin kommunal xidmətlərlə təminatını yaxşılaşdırmaq (40).

Qeyd edilənlər baxımından, regionlarda sənayenin inkişafı əhalinin məşğulluğunun təmin edilməsi və sosial vəziyyətinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir. Müasir şəraitdə ölkə regionlarının sənayesinin inkişafında dövlət sosial-iqtisadi inkişafa nail olmaq məqsədi ilə özəl bölmənin inkişafını stimullaşdırmalı, dövlət tənzimlənməsi vasitələrindən səmərəli istifadə etməli, münasib bazar və istehsal infrastrukturlarının formalaşdırılması və təsərrüfat subyektlərinə bəzi xidmətlərin göstərilməsi istiqamətində fəaliyyət göstərməlidir. Qeyd edilənlərlə yanaşı, dövlət yeni müəssisələrin yaradılmasında və onların inkişaf edirilməsində iştirak edə bilər və ya bəzi müəssisələr tamamilə dövlət mülkiyyətində yaradıla bilər. Çünki təhlil göstərir ki, müasir dövrdə ölkədə (xüsusilə regionlarda) xüsusi sahibkarlıq ölkənin iqtisadi inkişafı qarşısında duran bir çox məsələləri həll etmək iqtidarında deyildir. Bu baxımdan dövlət özünün səfərbəredici imkanlarından istifadə edərək iqtisadi inkişafa əhəmiyyətli təsir göstərən iri müəssisələri dövlət mülkiyyətində və ya xüsusi sahibkarlarla əməkdaşlıq şəklində yarada bilər.

Qeyd edilən vəzifələrin içərisində mühüm əhəmiyyət kəsb edəni işgüzar təşəbbüslərin sürətlənməsinə səbəb olacaq əlverişli sahibkarlıq mühitinin yaradılması yolu ilə özəl sektorun fəaliyyətini, yeni müəssisələrin yaradılmasını stimullaşdırmaq və onların fəaliyyətini dəstəkləməkdir. Belə ki, xüsusi mülkiyyətin qorunması, qanunların

aliliyi, bürokratik maneələrin aradan qaldırılması və şəffaflıq iqtisadi inkişafın əsasını təşkil edir. Regionda münasib nəqliyyat və kommunikasiya sistemlərinin inkişafı, su və enerjinin istehsal-təsərrüfat obyektləri üçün fasiləsiz verilməsi kimi məsələlər də iqtisadi inkişaf üçün zəruri şərtlərdir. Dövlət tənzimləmə vasitələrindən səmərəli istifadə etməklə, məhsulların bazara çıxarılması və satışı zamanı yaranan problemlərin həllinə kömək etməli və haqsız rəqabətin aradan qaldırılması üçün tədbirlər görməlidir.

Ölkənin regionlarında mövcud sənaye müəssisələrinin əksəriyyətinin uzun müddət işləməməsi və maliyyə çətinlikləri ilə əlaqədar onların texniki iqtisadi səviyyəsinin aşağı düşməsi bu müəssisələrin bəzilərinin profilinin dəyişdirilməsini, bəzilərinin isə köklü şəkildə yenidən qurulmasını tələb edir. Sənaye müəssisələrinin yenidən qurulmasına mane olan əsas amillərə ilk növbədə, yerli sahibkarlığın zəif inkişafı təsir göstərir. Sahibkarların maliyyə imkanlarının aşağı olması, həmçinin onların biliklərinin xarici bazarlarda səmərəli fəaliyyət baxımından arzu olunan səviyyyəni təmin edə bilməməsi xarici ticarətdən asılı sənaye müəssisələrinin bərpasına maneəçilik törədən amillərdəndir. Təhlil göstərir ki, sənaye müəssisələrinin əksəriyyəti daxili bazara istiqamətlənmişdir.

Son illərdə ölkənin regionlarında kənd təsərrüfatı istehsalının artımını nəzərə alaraq, istehsal olunmuş məhsulun bazara çıxarılması məqsədilə onun markalanması və qablaşdırılmasının təşkil olunması bu sahənin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir. Regionlarda ət, süd və dəri emalı müssisələrinin, eləcə də süd və dəri tədarükü məntəqələrinin yaradılması həmin müəssisələrlə ilkin istehsalçılar, eyni zamanda müvafiq müəssisələrin özləri arasında kooperasiya əlaqələrinin qurulması regionda heyvandarlığın inkişafı baxımından səmərəli nəticələr verə bilər. Həmçinin, qoyunçuluğun inkişafı üçün yun tədarükü müəssisələrinin yaradılması və inkişaf etdirilməsinin dəstəklənməsi də vacibdir.

İqtisadi rayonların bir çoxunda (Lənkəran-Astara, Gəncə-Qazax və s.) şərabçılığın inkişaf etdirilməsi məqsədəuyğundur. Son dövrlərdə regionlarda üzüm bağlarının salınması və kənd təsərrüfatının bu sahəsinin inkişaf imkanlarının böyük olması üzüm emalı müəssisələrinin yaradılmasını məqsədəuyğun edir. Fikrimizcə, emal müəssisələrinin

yaradılması və bunun üzüm bağlarının salınması ilə əlaqələndirilməsi regionun iqtisadi inkişafına əhəmiyyətli dərəcədə təsir göstərə bilər.

Ölkənin regionlarında böyük həcmdə meyvə-tərəvəz məhsulları istehsal edilir. Fikrimizcə, bu məhsulların emalı üçün müəssisələrin yaradılması və inkişafının dəstəklənməsi zəruridir. Eyni zamanda, rayonlarda heyvandarlıq məhsullarının inkişafı sahəsində tədbirlərin görülməsi vacibdir. Bu sahədə mövcud olmuş ət və süd kombinatlarının ləğv olunması heyvandarlıq məhsullarının kompleks emalının sıradan çıxması ilə nəticələnmişdir. Qeyd etmək lazımdır ki, son dövrlərdə meyvə-tərəvəz və heyvandarlıq məhsullarının istehsalının artımı konserv, ət-süd məhsullarının istehsalı üçün xammal təminatı baxımından əlverişli şərait yaratmışdır.

Regionlarda kənd təsərrüfatı emalı müəssisələrinin inkişafındakı mühüm problemlərdən biri onlarla təsərrüfatlar arasında əlaqələrin yaradılmasıdır. Hazırda kəndli təsərrüfatlarında istehsalın həcmi kiçikdir. Bu da tədarük xərclərinin artmasına gətirib çıxarır. Eyni zamanda, kənd təsərrüfatı xammalı kompleks emal tələb edir. Belə ki, bəzən kənd təsərrüfatı xammalının 10-15 faizi həcmində əsas məhsul alınır. Belə halda əsas məhsulla yanaşı, istehsal edilən məhsulların alıcılarının olması vacibdir. Bəzən bu alıcılar kəndli təsərrüfatlarının özləri olurlar. Bu baxımdan, regionda tədarük-satış müəssisələrinin yaradılması və kənd təsərrüfatı məhsullarının tədarükü üçün təsərrüfatların zəruri avadanlıqlarla təmin olunması vacibdir. Məsələn, rayonlarda südün tədarükü üçün pasterizə aparatlarının olması tələb olunur.

Yerli əhalinin istehlak qabiliyyətliliyinin və məşğulluğunun təmin edilməsinin zəruriliyini nəzərə alaraq, iqtisadi rayonlarda yüngül sənayenin tikiş, toxuculuq, trikotaj, xalçaçılıq sahələrinin inkişaf etdirilməsi məqsədəuyğundur. Qeyd etmək lazımdır ki, vaxtilə ölkədə istehsal olunan yüngül sənaye məhsullarının əhəmiyyətli hissəsi regionların payına düşürdü.

Tikiş sahəsi sənayenin yüksək əməktutumulu və nisbətən aşağı fondtutumlu sahəsidir. Burada bir iş yerinin yaradılması üçün nisbətən az investisiya qoyuluşu tələb

olunur. Buna görə də bu sahənin inkişaf etdirilməsi əmək qabiliyyətli əhalinin məşğulluğunun təmin edilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

Qarışıq yem istehsalı sahəsində də müəssisənin optimal ölçüsü nisbətən kiçikdir. Bu baxımdan, regionlarda qarışıq yemə olan tələbatı ödəmək məqsədilə qarışıq yem istehsalı müəssisəsinin yaradılması məqsədəuyğundur. Ölkənin heyvandarlıq üçün imkanları böyük olan regionlarında bu sahənin yaradılması kənd təsərrüfatının inkişafına da əhəmiyyətli dərəcədə təsir göstərərər. Bu baxımdan, regionlarda heyvandarlığın yüksək qidalı yemlərlə təmin olunması məqsədilə qarışıq yem istehsal edən sexlərin yaradılması da stimullaşdırılmalıdır.

İqtisadi rayonların bir çoxu mineral sularla zəngindir. Məsələn, Naxçıvanda “Badamlı”, “Sirab” mineral sularının, Gədəbəy rayonundakı Slavyanka kəndində "Nazran", “Mor-mor” və s. mineral sularının istehsalı və qablaşdırılması imkanları böyükdür. Bu baxımdan bu sahənin inkişaf etdirilməsi üçün sudoldurma müəssisələri tərəfindən düzgün marketinq siyasəti həyata keçirilməklə, satışın həcmini artırmaq olar.

İqtisadi rayonlarda tikinti materialları sənayesinin inkişaf imkanları böyükdür. Məsələn, Naxçıvan, Abşeron və digər regionlarında tikinti xammalının böyük ehtiyatları mövcuddur.

İqtisadi rayonlar yerli sənaye sahələri ilə yanaşı, maşınqayırma və metallurgiya sahələrinin inkişaf imkanlarına da malikdir. Məsələn, Gəncə-Qazax iqtisadi rayonunda sənayenin mühüm sahələrindən biri də maşınqayırma sahəsidir. Burada Gəncə Cihazqayırma, Billur Elm-İstehsalat Birliyinin, “Rabitəsənaye” zavodunun bərpası imkanları böyükdür. Bu zavodların yenidən qurulması imkanlarının və inkişaf imkanlarının öyrənilməsi, eləcə də müvafiq istiqamətdə tədbirlərin həyata keçirilməsi vacibdir. Gəncə şəhərində avtomobil zavodunun tikilib başa çatdırılması və tam gücü ilə işləməsinin təmin edilməsi regionun iqtisadi gücünü artıracaq, əhalini işlə təmin edəcək və regionda avtomobil sənayesinin təməlini qoyacaq. Bu məsələnin həll edilməsi strateji baxımdan əhəmiyyətlidir. Eyni zamanda, Gəncə-Qazax iqtisadi rayonunun mühüm sahələrindən biri

də metallurgiya sənayesidir. Dağ-mədən sənayesinin böyük hissəsi Daşkəsən rayonunun ərazisində yerləşir. Bunlara Daşkəsən dəmir filizi yataqları, Zəylik alunit mədəni, Covdar qızıl yataqları, Gədəbəy mis yataqları və s. aiddir. Bu sahədə son dövrlərdə bəzi işlər görülsə də hələ ki, bu yataqlar istifadəyə verilməmişdir. Qeyd etmək lazımdır ki, dağ-mədən sənayesi vaxtilə Daşkəsən rayonunun iqtisadiyyatının əsasını təşkil edirdi. Fikrimizcə, bu sahələrin istifadəyə verilməsi bu rayonda, o cümlədən digər rayonlarda məşğulluğun artmasına gətirib çıxarar. Eyni zamanda, ölkənin metallurgiya sahəsinin əsas müəssisələri olan "Azərboru" Açıq tipli səhmdar cəmiyyəti və "Azəralüminium" şirkəti Sumqayıt şəhərində yerləşdirilmişdir. Bu müəssisələrin inkişafı Sumqayıt şəhərinin iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərir.

Ölkənin kimya sənayesinin əsas hissəsi Sumqayt şəhərində yerləşmişdir. "Azər-kimya" şirkətinə daxil olan Səthi aktiv maddələr zavodu, Üzvi sintez zavodu, Sintetik kauçuk zavodu, etilen-propilen zavodu ölkənin neft kimya sənayesinin əsasını təşkil edirlər. Eyni zamanda, hazırda bərpa edilən Salyan plastmas məmulatları zavodunun inkişaf etdirilməsi neft-kimya sənayesinin inkişafı baxımından mühüm əhəmiyyətə malikdir.

İqtisadi rayonlarda yeni yaradılan sənaye müəssisələrinin stimullaşdırılması üçün sənaye zonalarının yaradılması məqsədəuyğundur. Təcrübə göstərir ki, hazırki dövrdə regionlarda iqtisadi inkişafa nail olmaq kiçik və orta müəssisələrin yaradılması hesabına mümkündür. Buna görə də onlarda istehsal edilən məhsulların maya dəyərini aşağı salmaq, istehsalda xidmət keyfiyyətini artırmaq üçün sənaye zonalarının yaradılmasına ehtiyac vardır. Bu sənaye zonalarında infrastruktur obyektlərindən ümumi istifadə, müəssisələrin qarşılıqlı fəaliyyəti, onlara xidmət göstərən təchizat və satış müəssisələrinin yaradılması son nəticədə istehsal edilən məhsulun rəqabətqabiliyyətinin artmasına gətirib çıxarır.

Beləliklə, qeyd edilən amillərin nəzərə alınması regionlarda sənayenin səmərəli şəkildə inkişaf etdirilməsinə kömək edər.

### 3.2. Regionlarda sənaye istehsalının perspektivinkişafistiqamətləri

Hazırda özəl bölmə ilə əməkdaşlıq şəklində yeni müəssisələrin yaradılması və mövcud olanların isə inkişaf etdirilməsi məqsədilə Azərbaycan İnvestisiya Şirkəti yaradılmışdır. Bu şirkəti xarici firmalarla əməkdaşlıq şəraitində bir sıra layihələrin həyata keçirilməsi üzrə işlər həyata keçirir. Lakin fikrimizcə, İnvestisiya Şirkətinin ölkədə inkişafın lokomotivinə çevrilə bilən iri yerli müəssisələrin yaradılması istiqamətində işlər həyata keçirməsi məqsədəuyğundur. Eyni zamanda, bu şirkət tərəfindən yerli və xarici ekspertlərin iştirakı ilə ayrı-ayrı regionlarda yaradıla biləcək müəssisələrin müəyyən edilməsi və onların yaradılmasının texniki-iqtisadi əsaslandırılması ilə əlaqədar işlərin aparılması məqsədəuyğundur. İnvestisiya Şirkətinin aktiv iştirakı ilə yeyinti sənayesində bir neçə iri şirkətin yaradılması regionlarda bu sahənin inkişafı ilə yanaşı, kənd təsərrüfatının inkişafına da kömək edər və ixrac potensialının artımına gətirib çıxara bilər. Fikrimizcə, dövlət regionlarda sənaye müəssisələrinin yaradılması və inkişafı məqsədilə inkişaf institutlarının yaradılması istiqamətində tədbirləri davam etdirməlidir.

Qeyd etmək lazımdır ki, İnvestisiya Şirkətinin aktiv rolu və hökumətin regionlarda sənaye müəssisələrinin yaradılması və inkişafı istiqamətində işlər aparması yeni yaradılacaq və ya inkişaf etdiriləcək müəssisələrin səmərəli fəaliyyəti üçün zəruri infrastrukturun formalaşdırılması, kadr hazırlığı və s. digər məsələləri əlaqələndirməyə imkan verər.

Regionlarda real sektorun prioritet sahələrinin inkişafı və məhsulların rəqabətqabiliyyətinin artırılması innovasiya tədbirlərinin həyata keçirilməsindənbirbaşa asılıdır. Fikrimizcə, müəssisələrin mövcud vəziyyətini nəzərə almaqla innovasiyaların tətbiqinə geniş şəraitin yaradılması üçün aşağıdakı istiqamətdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

– innovasiyaların tətbiqinin kompleks dəstəklənməsi və istehsal edilən məhsulların rəqabətqabiliyyətinin artırılması sisteminin yaradılması;

– informasiya təminatı sistemi, ekspertiza sistemi, maliyyə sistemi və eləcə də kadrların hazırlanması da daxil olmaqla innovasiya prosesinin infrastrukturunun inkişafı;

– istehsalın səmərəliliyinə və rəqabətqabiliyyətinə əhəmiyyətli təsir göstərən uyğun sahələrdə yeni texnologiyalara keçidin təmin edilməsi.

Regionlarda sənayenin inkişafı investisiya mühitinin əlverişli olmasından əhəmiyyətli dərəcədə asılıdır. İnvestisiya riski yüksək olan regiona investisiyanın cəlb olunması çətinləşir. Belə ki, yüksək investisiya riski şəraitində nəzərdə tutulan mənfəət normasının səviyyəsi də yüksək planlaşdırılır. Nəzərdə tutulan mənfəət norması investisiya riski və faiz dərəcəsinin səviyyəsindən asılı olduğu halda, əldə edilə bilən mənfəət norması infrastrukturun inkişafından, kadrların ixtisasından və s. asılıdır. Bu baxımdan regionda investisiya fəallığını təmin etmək üçün investisiya riskinin aşağı salınması üçün tədbirlərin görülməsilə yanaşı, mənfəət normasına təsir göstərən amillərin də nəzərə alınması vacibdir. Praktikada bu amillər qarşılıqlı əlaqədə olurlar, yəni mənfəət normasına təsir edən amillər, həm də investisiya riskinin səviyyəsinə təsir göstərir.

İnvestisiya siyasəti ayrı-ayrı investisiya layihələrinin maliyyələşdirilməsi üçün əhalinin və müəssisələrin vəsaitlərinin cəlb edilməsinin, qiymətli kağızlar bazarının, lizinq əməliyyatlarının, ipoteka kreditləşməsinin, sığorta şirkətlərinin inkişafının stimullaşdırılması məqsədilə reallaşdırılır. İnvestisiya qoyuluşlarının daxili mənbələrinin məhdud olduğu şəraitdə xarici investisiyanın cəlb edilməsinin iqtisadi inkişaf üçün əhəmiyyəti artır. Lakin qeyd etmək lazımdır ki, investisiya siyasəti xarici investisiyanın cəlb olunmasına nail olmaq üçün deyil, ümumiyyətlə regionlarda sahibkarlıq mühitinin yaxşılaşdırılmasına istiqamətlənməlidir.

İnvestisiya siyasətinin məqsədlərinə nail olmaq üçün regionlarda əlverişli investisiya mühitinin yaradılması vacibdir. Bu da aşağıdakıları tələb edir:

– regionlarda investisiya mühitinin əlverişliliyini artıran etibarlı və stabil hüquqi-normativ bazanın yaradılması, sahibkarlar və yerli dövlət orqanları arasında sıx təşkilati-işgüzar əlaqələrin yaradılması;

– ərazinin infrastrukturunun inkişaf etdirilməsi, tikinti bazasının, kommunikasiya şəbəkəsinin (nəqliyyat, rabitə, informatika) inkişaf etdirilməsi.

Regionlarda büdcə vəsaitlərindən investisiya qoyuluşu üçün səmərəli istifadə edilməsi iqtisadi inkişaf baxımından mühüm əhəmiyyət kəsb edir. Fikrimizcə, sosial obyektlərlə yanaşı, investisiya qoyuluşları aşağıdakı istiqamətlərdə də həyata keçirilə bilər:

– iqtisadi inkişaf prioritetlərinə uyğun layihələrin özəl sektorun nümayəndələrinin iştirakı ilə müştərək maliyyələşdirilməsi məqsədilə birbaşa dövlət investisiyalarının həyata keçirilməsi;

– sənaye müəssisələrinin sanasiyası ilə əlaqədar tədbirlərə investisiya qoyuluşlarının həyata keçirilməsi;

– ixrac əməliyyatlarının kreditləşdirilməsi.

Qeyd etdiyimiz kimi, respublikamızın regionları sənayenin inkişafı baxımından geniş imkanlara malikdirlər. Belə rayonlardan biri də Aran iqtisadi rayonudur. Aran iqtisadi rayonunda əhalinin nisbətən yüksək təbii artımı sayəsində ərazinin əmək ehtiyatları ilə təminatı qənaətbəxşdir. Buna görə də bu iqtisadi rayonda əməktutumlu sənaye sahələrinin yerləşdirilməsi perspektivli hesab edilə bilər.

Ərazinin ən böyük təbii sərvəti münbit torpaqlarıdır. Buna görə də Aran iqtisadi rayonunda ölkənin əsas aqrar-sənaye kompleksi məhsullarının istehsalı daha da genişləndirilə bilər və bu da daxili tələbatın ödənilməsinə yardımçı ola bilər.

Burada sənayenin tərkibində təmsil olunan və çox böyük inkişaf imkanları olan pambıqtəmizləmə, pambıq toxuculuğu, unüyütmə, ət-süd, alkoqolsuz içkilər, çörəkbişirmə, şərabçılıq, konserv, müxtəlif tikinti materialları istehsalı, şəkər tozu və qənd sənayesi, balıqçılıq, pivə, polietilen məhsulları, ağac materialları emalı, rezin məmulatları və şüşə lifindən iplik istehsalı və digər sənaye sahələri ilə təmsil olunmuşdur.

Aran iqtisadi rayonunun sənaye potensialının genişləndirilməsi və artırılması üçün başqa imkanlar da çox böyükdür. Onun Mingəçevir, Yevlax, Şirvan və Salyan şəhərlərində keçmişdən qalan sənaye müəssisələrinin müasir texnologiyalar əsasında yenilənməsi, ərazinin sənaye potensialını artıra bilər. Bundan başqa burada kənd təsərrüfatı təmayüllü maşınqayırma sənayesinin inkişafı da ön plana çəkilməlidir. Aran iqtisadi rayonu

balıqçılığın inkişafı üçün də əlverişli şəraitə malikdir və bu imkanlardan səmərəli istifadə edilməsi əhalinin qida məhsullarına olan tələbatını daha tam ödəyə və çeşidini xeyli yaxşılaşdıra bilər.

Azərbaycanın başqa regionları kimi Gəncə-Qazax iqtisadi rayonu da böyük iqtisadi inkişaf perspektivlərinə malikdir. Burada yerli xammal əsasında ilk növbədə neft sənayesinin tələbatını ödəyəcək nəhəng polad-boru zavodu tikilir. Yenə də yerli sərvətlərin səmərəli mənimsənilməsi hesabına (Zəylik alunit yatağı) Gəncədə illik məhsul hasil etmək gücü 100 min tondan artıq olacaq alüminium zavodu inşa edilir. Bu müəssisənin yaradılması respublika iqtisadiyyatının müxtəlif sahələri üçün alüminium əsasında geniş çeşiddə hazır məhsullara olan tələbatı ödəmək məqsədilə əlavə müxtəlif istehsal sahələri təşkil etməyə şərait yaradacaqdır. Gədəbəydə qızıl istehsal edilir. Hazırda Gəncə avtomobil zavodunda yığma avtomobil və traktorlar buraxmaq üçün müəssisənin istehsal gücü artırılır. Gəncə cihazqayırma zavodunda qaz istifadəçiləri üçün sayğaclar istehsal edilir, eyni zamanda qənnadı fabriki yenidən qurulur.

Bu iqtisadi rayonun gələcək yüksək iqtisadi inkişafı ilə əlaqədar bir məsələyə də toxunmaq məqsədəuyğundur. Hal-hazırda istehsalın Abşeron iqtisadi rayonunda həddən artıq təmərküzləşməsi, ətraf mühiti qorumaq üçün paytaxtda fəaliyyət göstərən iki neftemalı zavodundan birini Gəncə-Qazax iqtisadi rayonunun ərazisinə köçürmək perspektivli olardı. Bu müəssisənin Gəncə-Qazax iqtisadi rayonunda tikilməsi bu ərazidə neftemalı sənaye sahəsi ilə yanaşı əlaqədar sənaye sahələrin də inkişafına səbəb olacaqdır.

Şəki-Zaqatala iqtisadi rayonunda son zamanlar məhsuldar qüvvələrin dirçəlməsi özünü əhəmiyyətli dərəcədə büruzə verir. Regionda ilk növbədə iqtisadiyyatın, xüsusən sənayenin ənənəvi sahələri bərpa edilməklə yanaşı, yeni istehsal növləri inkişaf etdirilir. Burada ilk növbədə regionun inkişafı üçün uzun müddət həlledici əhəmiyyət daşıyan ipək toxuculuq sənayesinin dirçəldilməsi həyata keçirilir. İndi ipək kombinatında pambıq xammalından da məhsullar istehsal edilir.

Ərazidə konserv, tikiş, ət-süd, tikinti və s. istehsal sahələrinin də müasir tələblər səviyyəsində yenidən qurulması tədricən həyata keçirilir. Eyni zamanda yeni müəssisələr yaradılmaqda davam edir.

Gələcəkdə Şəki-Zaqatala iqtisadi rayonunda sənayenin inkişaf potensialını əsaslı şəkildə artırmaq üçün ərazidə aşkar edilən böyük ehtiyata malik polimetal yataqlarının mənimsənilməsi mühüm əhəmiyyət kəsb edəcəkdir. Zəngin tərkibli bu faydalı qazıntı yataqlarının əsasında filizin saflaşdırılması və sonrakı emalı ərazidə nəhəng kimya-metallurgiya kombinatını yaratmağa imkan verir. Faydalı qazıntı ərazisinin yaxınlığından dəmiryol xəttinin keçməsi onun daha da səmərəli istifadə edilməsinə əlverişli şərait yaradır. Bu yataqlardakı zəngin mis ehtiyatları hər şeydən əvvəl Azərbaycan iqtisadiyyatının müstəqil inkişafı üçün çox vacibdir. Ancaq məsələ ondadır ki, xammal çıxarıldıqdan sonra həmin ərazidə onun bütün mərhələləri üzrə sonrakı emalı təbiəti qorumaq işinə xidmət edən zəngin meşə sahələrinin mühafizəsinə xələl gətirə bilər. Odur ki, xammal çıxarıldıqdan sonra düzgün olardı ki, onun ardıcıl emalı yaxında yerləşən və kənd təsərrüfatı üçün yararlı olmayan, habelə təbiəti qorumaq işinə zərər gətirməyən, dəmiryolu xəttinə yaxın yerləşən ərazidə yerləşdirilsin.

Regionda sənayenin bir çox mühüm sahələrinin yerli xammal ehtiyatlarından səmərəli istifadə edilməsi, əhalinin və xalq təsərrüfatının daxili tələbatını ödəmək əsasında inkişafı sənayenin quruluşunun xeyli təkmilləşməsinə səbəb olacaqdır.

Müstəqillik şəraitində Lənkəran iqtisadi rayonunun gələcək sosial-iqtisadi inkişafı üçün imkanlar çox böyükdür. Ərazidə sənaye əhəmiyyətli faydalı qazıntı ehtiyatlarının hələlik aşkar edilməməsi və yaxud yüngül və yeyinti sənaye sahələrinə yararlı torpaq sahələrinin azlığı heç də burada məhsuldar qüvvələrin yerləşdirilməsinə məhdudiyyət yaratmır.

Lənkəran iqtisadi rayonu Abşeron iqtisadi rayonundan sonra əhalinin ən yüksək sıxlığı olan ərazidir. Məhz bu amili nəzərə alaraq regionda əmək ehtiyatlarının sürətli artımı

ilə Lənkəran iqtisadi rayonunda yüksək əməktutumlu sənaye sahələrinin inkişafı perspektivlidir.

Regionun iqtisadi inkişafını səmərəli əsasda sürətləndirmək üçün hər şeydən əvvəl burada ölkə üçün əhəmiyyətli və xeyli gəlirli çayçılıq sahəsinin geniş miqyasda inkişaf etdirilməsi diqqət mərkəzində olmalıdır. Ərazinin xeyli əlverişli iqlim şəraitində bağçılıq və bostançılığın inkişaf etdirilməsi bu ərazidə yeyinti sənaye sahəsinin inkişafını perspektivli edəcəkdir.

Quba-Xaçmaz iqtisadi rayonunun strateji əhəmiyyətini müəyyən edən əsas səbəblərdən biri də ölkənin paytaxtı Bakı şəhərinə yaxınlığıdır. Bakı şəhərinə yaxınlıq Qubada və digər rayonlarda istehsal edilən kənd təsərrüfatı məhsullarının çevik bir şəkildə paytaxt bazarlarına gətirilməsinə imkan verir. Bu isə o deməkdir ki, Bakının ərzaq malları, habelə digər aqrar-sənaye məhsulları ilə təmin edilməsində Quba-Xaçmaz iqtisadi rayonunun xüsusi rolu vardır. Bakıya yaxınlıq, həmçinin imkan verir ki, gələcəkdə regionda yeni-yeni aqrar-sənaye müəssisələri açılsın. Potensialda həmin müəssisələrin rentabelli fəaliyyəti artıq kommunikasiya problemlərinin olmaması səbəbi ilə təmin edilə bilər. Eləcə də Bakıya yaxınlıq regiona investisiya kanallarının güclənməsinə təsir göstərə bilir.

Bölgə, əhalisinin məskunlaşmasının xarakterinə görə də potensial imkanlara malikdir. Əhali resursu gələcəkdə bu bölgədə bir sıra əməktutumlu sahələrin inkişafına kömək edə bilər. Eyni zamanda əhalinin işgüzarlıq dərəcəsi də kifayət qədər yüksəkdir.

Quba-Xaçmaz iqtisadi rayonunun sosial-iqtisadi inkişaf imkanları xeyli genişdir. Burada ilk növbədə onun təbii şəraitinə xeyli uyğun gələn tərəvəzçiliyin və meyvəçiliyin, onların verdiyi xammal əsasında isə konserv sənayesinin daha geniş miqyasda inkişafı üçün yerli əlverişli şəraitdən dolğun istifadə edilməlidir. Konserv sənayesinin gözlənilən böyük inkişafı respublikanın və həmsərhəd ölkələrin böyük tələbatını da nəzərə almaqla regionda konserv sənayesi üçün texnoloji xətlər və avadanlıq, qablaşdırma məhsulları hasil edən zavodların tikilməsi zəruriyyətini irəli sürür. Bunun üçün böyük tələbatla yanaşı, ərazidə daim artan əmək ehtiyatlarından səmərəli və tam istifadə edilməsinin imkanlarından, habelə

regionun son dərəcə əlverişli nəqliyyat şəraitindən düzgün istifadə edilməsinin məqsədəuyğunluğunu tələb edir.

Dağlıq-Şirvan iqtisadi rayonu sənayenin ayrı-ayrı sahələrinin inkişafında diqqətəlayiq yer tutur. Onun hələ qədim zamanlardan ən çox qiymətləndirilən sənaye sahələrindən biri şərabçılıq sənayesidir. Əsas mərkəzi Şamaxı rayonudur. Son zamanlar bu sahə regionun başqa ərazi hissələrində inkişaf etdirilsə də onun ümumi səviyyəsi indi xeyli aşağı düşmüşdür. Son zamanlar isə tədricən bərpa edilir.

Bu iqtisadi rayonda sənayeni inkişaf etdirmək imkanları xeyli böyükdür. Burada üzümçülüyün və taxılçılğın inkişafı sayəsində müvafiq sənaye sahələrinin inkişaf imkanları mövcuddur. Həmçinin meyvəçilik təsərrüfatının genişləndirilməsinin əsasında meyvə istehsalının böyük həcmdə artımı və burada konserv sənayesinin inkişafına da əlverişli imkan yaradır.

Bildiyimiz kimi Naxçıvan MR ərazisində aşkar edilmiş sənaye əhəmiyyətli təbii sərvətlər xeyli çoxdur. Burada qızıl, gümüş, sink, qurğuşun, müxtəlif tərkibli mis-molibden, dolomit, titan, kükürd, fosforit və s. yataqları mövcuddur. Bütün bu faydalı qazıntıların iqtisadi rayonda mövcudluğu burada resurstutumlu qara və əlvan metallurgiya zavodlarının yerləşdirilməsini perspektivli edir.

Naxçıvan iqtisadi rayonunun mühüm xüsusiyyətlərindən biri də odur ki, burada keçmişdən qalan müəssisələrin bugün də onun sosial-iqtisadi inkişafı məsələlərinə uyğun gələn çoxlu istehsal sahələrinin (konserv, ipəkçilik, xalçaçılıq, trikotaj, elektrotexnika, şərabçılıq, tütün-fermentasiya, şüşə qablar, mineral sular, tikinti materialları və s.) yenidən qurulması və daha da genişləndirilməsi məhsuldar qüvvələrin böyük miqyasda artımına təkan verər.

Naxçıvan iqtisadi rayonunun təbii şəraiti və əhalinin tarixən əkinçilik təcrübəsi göstərir ki, göstərilən ərazi hissələri çoxillik bitkilər üçün daha çox əlverişlidir. Bu sahələrdə meyvəçiliyin və baramaçılığın geniş miqyasda inkişaf etdirilməsi əsasında

ipəkçilik və konserv sənayesi sahələrində artıq güclü istehsal gücləri yaradılmış və yerli mütəxəssislər hesabına onun həcmi xeyli artırıla bilər (33.s.59-109).

## 3.3. Müasirşəraitdəregionlardasənayeninəraziüzrətəşkilinindövləttənzimlənməsininəsas istiqamətləri

Müasirdövrdəölkəsənayesininərazistrukturundamövcudolanqeyri-bərabərliksənayeninəraziüzrəoptimalyerləşdirilməsinindövləttənzimləməsinizəruriedir. İnkişafetmişölkələrintəsərrüfattəcrübəsigöstərirki, məhsuldarqüvvələrininkişafıregionalinkişafınhüquqiəsası – dövlətinregionalsiyasətiolmadanuğurlahəyatakeçiriləbilməz.

Regional siyasət sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissələrindən biri olmaqla bütövlükdə həmin siyasətin yerinə yetirilməsinə xidmət edir. Regional iqtisadi inkişaf siyasətinin başlıca xüsusiyyətlərindən biri özəl sektorun, xüsusilə kiçik sahibkarlığın hərtərəfli dəstəklənməsi, onun daha da genişlənməsi üçün əlverişli mühitin yaradılması, bu sahədə dövlət tərəfindən müxtəlif yardım və təşviq mexanizmlərinin tətbiq edilməsidir. Regional siyasətin həyata keçirilməsində mütləq hər bir regionun özünəməxsus coğrafi şəraiti və həmin regionun əhalisinin tarixən məşğul olduğu sahə nəzərə alınmalıdır. Çünki hər bir regionun əhalisi müxtəlif sahə üzrə ixtisaslaşmış və təkmilləşmişdir.

Digər tərəfdən sosial-iqtisadi inkişaf siyasətinin hər hansı növünə nisbətən regional siyasət mürəkkəbdir. Regional siyasətin həyata keçirilməsinə həm ümumrespublika xarakterli amillər, həm də hər regionun konkret şəraitindən irəli gələn amillər təsir göstərir. Regional siyasətin müvəffəqiyyəti üçün prioritet sahələrin düzgün seçilməsi və inkişaf istiqamətlərinin düzgün müəyyən edilməsi vacib şərtlərdəndir. Məsələn, ölkədə və onun regionlarında sosial-iqtisadi inkişafda ədalətlilik və səmərəlilik prinsipləri real şəraitə uyğun olaraq əlaqələndirilməlidir. Eyni zamanda ölkə üçün prioritet sahələrin inkişafının

regionlarda prioritet təsərrüfat sahələrinin və infrastruktur sahələrinin inkişafı ilə nə dərəcədə düzgün əlaqələndirilməsi nəzərə alınmalıdır (36.s.86).

Bazar iqtisadiyyatı dövlətin iqtisadi proseslərə birbaşa müdaxiləsini inkar etsə də tənzimləyici funksiyaların rolunu daha da artırır. Təbii ki, bütün bunlar ümumi iqisadiyyata aid olduğu kimi, eyni dərəcədə də milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə və regional iqtisadiyyata da aiddir. Ona görə də regional inkişafın dövlət tənzimlənməsinin səmərəli təşkili, zaman keçdikcə müvafiq təkmilləşdirilmələrin aparılması çox mühüm əhəmiyyət kəsb edir. Bunun əsasında bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq mühüm dövlət tədbirlərinin qəbul edilməsi zəruridir. Beynəlxalq təcrübə göstərir ki, regionların inkişafına nail olmadan ölkə iqtisadiyyatını gücləndirmək, eləcə də məhsuldar qüvvələrin yerləşdirilməsini təkmilləşdirmək qeyri-mümkündür.

Dünyatəcrübəsinəəsasənsəmərəliregionalsiyasətitəminedəbiləcəkregionalidarəetməüsullarınıninkişafınıbirneçəmərhələyəayırırlar:

– birincimərhələ 20-ciəsrin 30-cuilləriniəhatəedir. 1929 – 1933-cüillərböhranındansonraregionalinkişafproblemlərininöyrənilməsininzəruriliyişübhədoğurmurdu;

– ikincimərhələ 40-50-ciilləriəhatəedir. Budövristehsalıntənəzzülü, əsasən, sənayeninənənəvisahələrindəenməiləxarakterizəolunur. Bu,müharibədənsonrakıiqtisadiböhranlaəlaqədaridi;

– üçüncümərhələ 60-70-ciilləriəhatəedir. BudövrdəregionalsiyasətsistemininformalaşdırılmasınıneffektivliyiəsasprinsipkimiqəbuledildivəQərbiAvropanıninkişafetmişölkələrindəgeniştətbiqedilməyəbaşlandı;

– dördüncümərhələ 70-80-ciilləriəhatəedir. 1974-cüilböhranındansonraregionalxarakterliplanlardandahaçoxmakroiqtisadixarakterdaşıyanplanlaröncərgəyəçıxır;

– beşincimərhələ 1993-cüildənsonrakıdövrüəhatəedir. 1993-cüildəMaastrixrazılaşmasıəsasında

AvropaBirliyiçərçivəsindəyeniregionalsiyasəthəyatakeçirilməyəbaşlandı, inteqrasiyaproseslərіaktivinkişafetdirilir.

Ayrı - ayrı ölkələrdə regional siyasət sahəsində mərkəzi və yerli icra hakimiyyəti arasında vəzifələrin bölgüsünün müxtəlif prinsipləri, makro və mikro alətlərin uyğunlaşdırılmasının spesifık sxemləri mövcuddur. Makroalətlərə monetar, fiskal və ticarət siyasəti, mikroalətlərə isə işçilərə (əmək) və sahibkarlara (kapitala) təsir vasitələri aiddir. Makrosiyasətin hansısa konkret alətinin seçilməsi həmin an regional idarəetmə subyektlərində həll ediləcək məsələlərdən və spesifik şəraitdən asılıdır. Məsələlərin və şəraitin müxtəlifliyinə baxmayaraq, regionlarda problemlərin həlli vasitələrinin müəyyənləşdirilməsində ümumi qanunauyğunluqlar var. Mikrosiyasətin mümkün istiqamətləri təsir obyektlərinin seçilməsi yolu ilə formalaşdırılır. Lakin unitar dövlətlərdə regional siyasət mərkəzi hökumət tərəfindən makro və mikro alətlərdən bərabər səviyyədə istifadə etməklə həyata keçirilir. Aktiv regional siyasət həyata keçirən inkişaf etmiş ölkələr üçün aşağıdakılar xarakterikdir:

– zəif inkişaf etmiş problemli regionların mənimsənilməsi (inkişaf etdirilməsi), böhranlı sənaye rayonlarının əvvəlki vəziyyətə gətirilməsi;

– sənaye istehsalının həddən çox cəmləşdiyi rayonların və aqlomerasiyaların əks mərkəzləşdirilməsi;

– mövcud sənaye mərkəzləri ilə bağlı olmayan yeni sənaye mərkəzlərinin və sənaye qovşaqlarının yaradılması.

Regional siyasətin daha uğurlu həlli məqsədilə regional siyasətin birbaşa dövlət tənzimləməsi daha çox tətbiq edilir. Məsələn, regional siyasət vasitəsi kimi birbaşa dövlət tənzimləməsi Avropa ölkələrində ağır vəziyyətdə olan regionların problemlərinin həll edilməsində fəal istifadə olunur. Xarici investisiyaların çatışmaması Avropa ölkələrini daxili potensialın stimullaşdırılması yollarını axtarmağa məcbur edirdi. Belə yol kimi aşağıdakı iki məsələni həll edəcək dövlət investisiya kompaniyalarının yaradılması seçildi:

– problemli regionlara yeni investorların cəlb edilməsi, onlara fəaliyyətlərinin genişləndirilməsi, yeni özəl firmaların yaradılması və rekonstruksiyasında köməyinedilməsi;

– regionların iqtisadi inkişafına təkan verəcək dövlət layihələrinin reallaşdırılması vasitəsilə dövlət sektorunun regional inkişafa stimullaşdıncı təsirinin gücləndirilməsi. Burada əsas diqqət yeni məhsulların istehsalına və yeni texnologiyaların tətbiqinə, istehsalın yeniləşdirilməsi və artımına, yerli və xarici kapitallı müəssisələrin təşkilinə, yeni məhsulların və texnologiyaların yaradılması üçün aparılan tədqiqat işlərinə köməyə yönəldilir.

ABŞ-da ölkənin cənub - şərqində (Tennesi çayı vadisi) yeddi ştatın ərazisini əhatə edən "problemli regionun" iqtisadiyyatını inkişaf etdirmək üçün xüsısi dövlət korporasiyası - Tennesi Vadisi İdarəsi yaradılmışdır. Belçikada inkişaf bankının funksiyalarını yerinə yetirən regional investisiya kompaniyaları var. Özəl firmaların yaradılması, rekonstruksiyası və genişləndirilməsini stimullaşdırır, yeni dövlət kompaniyalarına kömək edir, dövlətin və regionların sənaye siyasətini həyata keçirir. Bundan başqa bir sıra ölkələrdə regional inkişaf kompaniyaları mövcuddur. Bu kompaniyaların funksiyaları - regional informasiya banklarının idarəsi, pis vəziyyətə düşmüş firmaların idarəedilməsində iştirak etmək və sektor maraqlarının müdafiəsi və s. kimi seçilir. İsveçdə geridə qalmış regionların inkişafına kömək etmək məqsədilə dövlət regional kompaniyalar yaradır. Bu kompaniyalara maliyyə yardımı edir, yeni məhsulların istehsalında iştirak edir, kiçik və orta müəssisələrə kömək edirlər. Niderlandda beş dövlət regional inkişaf kompaniyası yaradılıb. Onların başlıca məqsədi işsizlik probleminin həllinə və regionların iqtisadi strukturunun təkmilləşdirilməsinə kömək etməkdir. Belə kompaniyalar əyalətlərin potensialının inkişafını, regional və milli sənaye arasında əlaqələrin gücləndirilməsini stimullaşdırır, mövcud firmalara, əsasən, kiçik və orta fırmalara kömək edirlər.

Regional siyasətin reallaşdırılması vasitələrindən biri də məqsədli proqram - proqnozlaşdırma üsuludur. Regional proqramlar məqsədli kompleks proqramların bir

növüdür və problemlərin həll edilməsi üçün resursların cəmləşdirilməsi üsulu kimi elmi - texniki, sosial və iqtisadi inkişafın regional strategiyasının idarəetmə və tənzimləmə aləti kimi çıxış edir (22).

Regional proqramların əsas məqsədi aşağıdakılardır:

– elmi - texniki, sosial və iqtisadi inkişaf göstəriciləri üzrə rayonlar arasındakı fərqin azaldılması;

– iqtisadiyyatın optimal ərazi və sahə strukturunun formalaşdırılması;

– bazar şəraitində tarazlaşdırılmış təsərrüfatçılıq;

– regionun əmək, material, təbii resurslarının maksimal tam və effektiv istifadəsi;

– ətraf mühitin mühafizəsi.

Proqram hazırlanarkən regionun mövcud sosial - iqtisadi vəziyyəti təhlil edilir və qiymətləndirilir. Regionun sosial - iqtisadi vəziyyəti və bu vəziyyətin region üçün nəticəsi qeyd edilir, proqram əsasında həll ediləcək prioritet problemlər seçilir. Təbii resursların və ətraf mühitin vəziyyəti qiymətləndirilir. Regionlarda təbii resursların müxtəlif növlərinin (torpaq, su, meşə, yanacaq – energetika, mineral və s.) mövcudluğu və onların kəmiyyəti, regiondaxili məqsədlərə istifadəsi və regiondan xaricə daşınma imkanları qeyd edilir, regionun ekoloji vəziyyəti və onun yaxşılaşdınlması üçün tədbirlər nəzərdən keçirilir. Regionun sosial - iqtisadi inkişafının təhlili və təbii resurslarının qiymətləndirilməsi, ekoloji vəziyyətin, demoqrafik vəziyyətin, əmək bazarının vəziyyətinin qiymətləndirilməsi regionun mövcud təsərrüfat strukturu və miqyası haqqında, material - istehsal bazası, iqtisadiyyatda üzə çıxarılmış bərabərsizliklər haqqında, əmək resurslarının sayı və əmək resurs potensialının istifadə imkanları haqqında məlumat verir. Bu məlumatlardan istifadə etməklə regionun gələcək texniki inkişaf meylləri və region qarşısında qoyulan məqsədlər hesaba alınmaqla regionun sosial - iqtisadi inkişaf konsepsiyası işlənib hazırlanır. Konsepsiyada resursların səmərəli və variantlı istifadə istiqamətləri müəyyənləşdirilir və bütöv təsərrüfat kompleksinin düzgün formalaşması yolları müəyyən edilir. Sahə, funksional və problem əlamətlərinə görə tərtib olunan əsas proqram tərkibləri (hissələri)

seçilir. Bütün bu proqram tərkiblərində (hissələrində) məqsəd və məsələlər müəy-yənləşdirilir. Proqramda nəzərdə tutulan hər bir tədbir kəmiyyət və keyfiyyət göstəricilərinə uyğun olaraq qiymətləndirilir.

Respublikamızda regional siyasətsahəsindəsonbirneçəildədövlətbəzizəruriaddımlaratmışdır. Beləki, ölkədəvəonunayrı-ayrıregionlarındasahibkarlığın, ocümlədənsənayeninyüksəkinkişafınanailolmaqüçün 11 fevral 2004-cüiltarixində“AzərbaycanRespublikasıregionlarınınsosial-iqtisadiinkişa-fınınDövlətProqramı (2004-2008-ciillərüzrə)” təsdiqolunmuşvəhəyatakeçirilmişdir. Buproqramınəsasməqsədlərindənbiridəregionlardayerlixam-malvətəbiiehtiyatlardanistifadəyəəsaslanansahibkarlığıninkişafınaəlverişlişəraitinyaradılmasıəsasındasənayenin, ocümlədəndigərsahələrininkişafınıtəminetməkdir.

Dövlətproqramınaəsasənhəyatakeçirilməlitədbirlər 3 səviyyədəmüəyyənləşdiril-mişdir:

1. makroiqtisadisabitliyinvədavamlıinkişafıntəminedilməsitədbirləri;
2. iqtisadirayonlarsəviyyəsindəhəyatakeçiriləcəktədbirlər;
3. hərbirrayonunspesifikxüsusiyyətlərinəuyğunmüəyyənedilmiştədbirlər.

Bunlarlayanaşı,Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2009-2013-cü, 2014-2018-ci illəri əhatə edən regionlarınsosial-iqtisadiinkişafınısürətlən-dirməkbaxımındanikiDövlətProqramıtəsdiqedimişdir.

Qeydolunduğukimi, birinci DövlətProqramınındavamıolaraqölkə başçısı 2009-cuilaprelin 14-dəimzaladığıfərmanla “AzərbaycanRespublikasıregionlarının2009-2013-cü illərdəsosial-iqtisadiinkişafıDövlətProqramı”nıtəsdiqetmişdir. BuDövlətProqramınınreallaşdırılmasındaəsasməqsədrespublikamızınregionlarındasosial-iqtisadiinkişafanailolmaqdır.“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafının sürətləndirilməsinə, iqtisadiyyatın diversifikasiyasına, tarazlı regional və davamlı sosial-iqtisadi inkişafa, əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına nail

olmaqdır. Dövlət Proqramında müəyyən edilmiş məqsədə nail olmaq üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulmuşdur:

– ölkənin təbii və əmək potensialından səmərəli istifadə etməklə qeyri-neft sektorunun sürətli inkişafının təmin edilməsi;

– infrastruktur təminatının yaxşılaşdırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

– ixracyönümlü məhsul istehsalının stimullaşdırılması;

– sahibkarlıq mühitinin yaxşılaşdırılması ilə bağlı məqsədyönlü tədbirlərin həyata keçirilməsi və sahibkarlığın inkişafının daha da sürətləndirilməsi;

– iqtisadiyyatın inkişafına investisiyaların cəlb olunması işinin davam etdirilməsi;

– müasir tipli infrastruktur obyektlərinin yaradılması, mövcud obyektlərin beynəlxalq standartlara uyğunlaşdırılması;

– əhalinin kommunal xidmətlərlə təminatının yaxşılaşdırılması;

– əhalinin məşğulluq səviyyəsinin artırılması istiqamətində tədbirlərin davam etdirilməsi;

– yoxsulluq səviyyəsinin azaldılması (2).

“Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda qeyd edilir ki, ölkənin uzunmüddətli iqtisadi və sosial inkişafını təmin etmək üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu sahədə əsas vəzifə iqtisadiyyatın bütün sahələrinə investisiya qoyuluşu imkanlarının genişləndirilməsi və daha əlverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bütün investorlar üçün azad rəqabət mühitinin yaradılmasından və bu sahədə mövcud normativ-hüquqi bazanın təkmilləşdirilməsindən ibarətdir. Proqramda vurğulanır ki, özəlləşdirməyə açılmış müəssisələrdə şəffaf və səmərəli özəlləşdirmə prosesinin həyata keçirilməsi davam etdirilir. Qeyri-neft sektorunda müəssisələrin investisiya fəaliyyətinin dəstəklənməsi istiqamətində məqsədyönlü işlər həyata keçirilir, müasir istehsal avadanlıqlarının idxalı təşviq edilir. Proqramda o da bildirilir ki, sənaye sahəsində əsas məqsədlərdən biri regionlardakı mövcud

sənaye müəssisələrinin fəaliyyətinin bərpası və yenidən qurulması, yeni müəssisələrin yaradılmasıdır. Burada kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpasına və ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilir. Sənaye sektorunda əsas məqsədə nail olmaq üçün növbəti tədbirlər həyata keçirilir:

– sənayenin qeyri-neft sektorunun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

– rəqabətədavamlı sənaye məhsullarının istehsalının dəstəklənməsi və ixracyönümlü istehsal sahələrinin yaradılmasının təşviqi;

– dövlət mülkiyyətində olan və ya səhmlərinin nəzarət zərfi dövlətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması və özəlləşdirilməsi;

– özəlləşdirmədən sonra müəssisələrin fəaliyyətinin dəstəklənməsi;

– istehsalın texnoloji cəhətdən yenidən qurulması;

– ixtisaslı kadrların hazırlanması (44).

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" ölkəmizin bütün bölgələrinin hərtərəfli inkişafı sahəsində məqsədyönlü siyasətin davamı olmaqla, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində müstəsna rol oynayacaq. Təkcə 2014-cü ilin birinci rübündə regionlarda 100-ə yaxın sənaye, kənd təsərrüfatı, xidmət və ticarət müəssisəsi fəaliyyətə başlayıb, 500-dək müəssisənin isə tikintisi davam etdirilir (38).

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın əsas məqsədi ölkədə qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın diversifikasiyası, regionların sürətli inkişafı istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə kəndlərin inkişafı ilə bağlı infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir. Bu məqsədlərə nail olmaq üçün regionlarda infrastruktur təminatının, o cümlədən əhalinin rifahının daha da yaxşılaşdırılması, ixracyönümlü və rəqabətədavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafının sürətləndirilməsi, əhalinin, xüsusilə kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluq

səviyyəsinin azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur (3).

Yeni Proqramın əsas hədəfi regionlardakı iqtisadi gücü tam səfərbər etməklə istifadə olunmamış iqtisadi resursları, xammal ehtiyatlarını istehsal prosesinə cəlb etməkdən ibarətdir. Bölgələrdəki istifadə olunmamış iqtisadi təbii ehtiyatların hərəkətə gətirilməsi üçün kənd təsərrüfatının, aqrar-sənaye, emal komplekslərinin müasir istehsal prosesinin tələblərinə uyğun yenidən qurulması işləri həyata keçiriləcək. Dövlət aqrar sahəni qeyri-neft sektorunun inkişafında əsas prioritet bölmə hesab edir. Aqrar sektorun inkişafı həm də əhalinin ərzaq təhlükəsizliyinin təmin edilməsində əsas rol oynayır və buna görə də Dövlət Proqramında kənd təsərrüfatının inkişafında yeni texnologiyaların tətbiqi mühüm əhəmiyyət kəsb edir.

"Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın icrası ölkə iqtisadiyyatının inkişafında mühüm əhəmiyyət kəsb etməklə, makroiqtisadi sabitliyin təmin olunmasında, regionlarda sahibkarlıq fəaliyyətinin genişlənməsində, yeni müəssisələrin və iş yerlərinin yaranmasında, irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsində, kommunal xidmətlərin səviyyəsinin yüksəldilməsində, nəticədə əhalinin rifah halının daha da yaxşılaşdırılmasında və yoxsulluq səviyyəsinin aşağı düşməsində müstəsna rol oynayacaq (48).

Lakintəəssüfləqeydetməklazımdırki, bütünbutədbirlərvərespublikamızınhərbirregionunungüclüpotensialimkanlarına (sənayeəhəmiyyətlitəbiisərvətlərə, ucuzişçiqüvvəsinə) malikolmasınabaxmayaraq, hal-hazırdaölkəmiqyasındaregionlarıninkişafsəviyyəsionlarınmalikolduğupotensialimkanlarınm övcudluğunauyğungəlmir. Əsasən,problemondanibarətdirki, həyatakeçiriləntədbirlər "regionuninkişafına" (daxilipotensialınaktivləşməsinə) yox, "regionadəstəkverilməsinə"istiqamətləniblər, budaöznövbəsindəsənayenininkişafındanisbətsizliyin (disproporsiyaların) dərinləşməsinə, birçoxsosial-iqtisadivəekolojiproblemlərinkəskinləşməsinəgətiribçıxarır.

Qeydetdiyimizkimi, respublikamızınregionlarınınsənayeistehsalındayaranmışkəskinfərqlərbusahədədövlsəttənzimləməsinizəruriedir. Sənayeninəraziüzrətəşkiliişinintənzimlənməsinəaidtədbirlərmüxtəlifmetodlarvasitəsiləhəyataкeçirilir. Bunlarainzibativəiqtisadimetodlaraiddir. İnzibatimetodlaradətənayrı-ayrıregionlarda,yənisənayemüəssisələrinincəmləşdiyiregionlardayeniyaradılacaqmüəssisələrinfəaliyyətininməhdudlaşdırılmasınayönəldilir. Adətənsənayecəhətdəninkişafetmişölkələrdə,sənayemüəssisələriüzrətəmərküzləşməsəviyyəsiyüksəkolanregionlardaəmlakavəgəlirəyüksəkdərəcəlivergitətbiqedilir, yenimüəssisələrintikintisivəyamövcudlarınıngenişləndirilməsinəkreditverilmir, müəssisəninləğvimükafatlandırılırvəs.

İqtisadimetodlarisəsənayeistehsalınınəraziüzrətəşkilinədolayıtəsirvasitələridirvəayrı-ayrıistiqamətlərdəgəlirliliyinazaldılmasıvəyaartırılmasıyoluiləonlarınfəaliyyətitənzimlənir. Əgərinzibatimetodlar, əsasən,inkişafınməhdudlaşdırılmasınayönəldiləbilərsə, iqtisadimetodlarhəminkişafınməhdudlaşdırılmasına, həmdəstimullaşdırılmasınayönəldiləbilər.

Qeydolunduğukimihal-hazırdaregionlardayeniyaradılanmüəssisələrinənbaşlıcaproblemlərindənbirionlarındövlətqeydiyyatınaalınmasıiləəlaqədardır. Bubaxımdanda“Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin “vahid pəncərə” prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında”Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli Sərəncamının icrasını təmin etmək üçün rayonlarda da müvafiq işlər həyata keçirilməlidir. Həm də “vahid pəncərə” prinsipinin yalnız müəssisələrin yaradılmasına deyil, həm də bütövlükdə sahibkarların üzləşdikləri bütün problemlərin həllinə şamil olunması məqsədəuyğun olardı.

İndiki zamanda iqtisadi rayonlarda sənayenininkişafınatəkanverənəsasşərtlərdənbirirespublikanın regionlarında Azadİqtisadi Zonalarınyaradılmasıdır.

Bildiyimiz kimi, ötən əsrin ikinci yarısından başlayaraq dünya təcrübəsində sahibkarlığın inkişafının müxtəlif təşkilati iqtisadi modelləri müvəffəqiyyətlə tətbiq edilməkdədir. Bu modellərin yaradılması vasitəsilə dövlət öncül sahələrdə və ya regionlarda sahibkarlığın inkişafını təşviq edərək sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədini güdür. Avropa və Asiya ölkələrində, Amerika Birləşmiş Ştatlarında öz məqsəd və miqyaslarına görə çox müxtəlif olan belə modellər ölkə iqtisadiyyatının strukturunun və texnoloji bazasının yeniləşməsinin, bu əsasda rəqabətqabiliyyətinin yüksəldilməsinin güclü amilinə çevrilmişdir.Artıq Azərbaycan Respublikasında da bu müsbət təcrübənin tətbiqi istiqamətində real işlərə başlanmışdır. Xüsusi iqtisadi zonaların yaradılması hazırda sahibkarlığa dövlət dəstəyinin öncül istiqamətlərindən biridir. Xüsusi iqtisadi zonaların yaradılmasında məqsəd ölkə iqtisadiyyatının öncül sahələrinin inkişafının sürətləndirilməsi, yerli və xarici investisiyaların cəlb edilməsinə və regionların iqtisadi potensialının inkişafına əlverişli şəraitin yaradılması, yüksək texnoloji sahələrin inkişafının, yeni rəqabətqabiliyyətli və səmərəli istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsidir. Azərbaycan Respublikası Prezidentinin “Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında” 6 mart, 2007-ci il tarixində imzalanmış Fərmanı ilə ölkədə xüsusi iqtisadi zonaların yaradılması və fəaliyyəti ilə əlaqədar dövlət siyasəti Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi (indiki İqtisadiyyat və Sənaye Nazirliyi) tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir. Fərmanda qeyd olunur ki, “müasir dövrdə bir sıra ölkələrdə mövcud sosial-iqtisadi problemlərin həllinə, elmi-texniki nailiyyətlərin daha geniş və səmərəli istifadəsinə və bu ölkələrin beynəlxalq əmək bölgüsündə daha fəal iştirakına xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi vasitəsilə nail olunur. Beynəlxalq təcrübə göstərir ki, xüsusi iqtisadi zonalar ayrı-ayrı ərazilərin və bütövlükdə ölkələrin iqtisadi inkişafına güclü təsir imkanına malikdir”. Daha sonra Fərmanda “ölkə

iqtisadiyyatının və onun ayrı-ayrı regionlarının inkişafı üçün əlverişli şəraitin yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadə edilməsi, rəqabətqabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olmaq məqsədi ilə Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması məqsədəuyğun sayılır". Fərmanda Nazirlər Kabinetinə xüsusi iqtisadi zonalar haqqında qanun layihəsinin və əsasnamənin, belə zonalarda güzəştli vergi və gömrük rejimi, valyuta tənzimlənməsi barədə təkliflərin, habelə belə zonaların hüdudlarında gömrük nəzarətinin, gömrük məntəqələrinin fəaliyyətinin, malların sənədləşdirilməsinin, nəqliyyat vasitələrinin və fiziki şəxslərin buraxılma rejiminin sadələşdirilmiş qaydalarının hazırlanması tapşırılır. Fərmanda verilmiş tapşırıqların icrası məqsədilə İqtisadiyyat və Sənaye Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanun layihəsini hazırlamış və Azərbaycan Hökumətinə təqdim etmişdir. Qanun layihəsində xüsusi iqtisadi zonalarda güzəştli vergi və gömrük rejimi barədə təkliflər öz əksini tapmışdır. 31 oktyabr, 2008-ci il tarixində Qanun layihəsi Azərbaycan Respublikasının Milli Məclisində qəbul olunmuşdur.

İnkişaf etmiş ölkələrdə azad iqtisadi zonaların müxtəlif növlərindən istifadə olunur. Lakin onların hamısı aşağıdakı xarakterik cəhətlərə malikdir:

- vergilərdən azad olma və ya vergilərin sayının xeyli azaldılması;
- ixrac məhsullarının istehsalı üçün idxal olunan malların gömrük rüsumundan azad olunması;
- valyuta nəzarətinin zəiflənləndirilməsi və güzəştli kreditlərin verilməsi;
- vahid idarəetmə orqanlarının yaradılması;
- 100 faiz xarici kapitallı fimaların yaradılması.

Azərbaycanda azad və birgə zonaların yaradılması baxımından əlverişli bölgələri müəyyənləşdirmək məqsədilə aparılan təhlilin nəticələri göstərir ki, ən perspektivli bölgələr Abşeron, Naxçıvan MR, Gəncə-Qazax, Lənkəran, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarıdır.

Regionlarda kənd təsərrüfatı məhsullarının emalına əsaslanan istehsal sahələrinin (qida məhsullarının hazırlanması, konservləşdirmə, texniki bitkilərin emalı, toxuculuq və tikiş istehsalları və s.) formalaşması üçün belə müəssisələri təşkil edən sahibkarlara güzəştli kreditlərin verilməsi təşkil olunmalı, onların üzləşdikləri hər cür əsassız maneələr aradan qaldırılmalıdır.

Sənaye obyektlərinin ərazi üzrə səmərəli şəkildə yerləşdirilməsinin stimullaşdırılması formalarından biri dövlət, yerli və xarici investorlar arasında müqaviləyə əsaslanan sənaye layihələridir. Bu layihələrin məqsədi ölkədə istehsal olunan xammal və materialların emallıq səviyyəsinin dərinləşdirilməsi, onların keyfiyyətinin artırılması, regionlarda mövcud olan sənaye müəssisələrin yenidənqurulması və modernləşdirilməsi ola bilər. Belə layihələrin reallaşdırılması sənaye istehsalının texniki-iqtisadi səviyyəsinin yüksəlməsinə, hazır məhsulun tərkibində yerli komponentlərin artmasına imkan verər. Hökumətin bu cür layihələrin dəyərinin 25 faizinə qədərini maliyyələşdirməsi məqsədəuyğundur. Bu, xarici investorların ölkənin ayrı-ayrı regionlarına cəlb edilməsini stimullaşdırar.

Regionlarda sənaye istehsalının inkişafını stimullaşdıran əsas vasitələrdən biri məhsul və xidmətlərin qiymətlərinin tənzimlənməsidir. Hər şeydən öncə dövlət sifariş qiymətləri və dövlət müəssisələrinin istehsal etdikləri məhsulların və infrastruktur obyektlərinin göstərdiyi xidmətlərin qiymətləri nəzərdə tutulur. Fikrimizcə, dövlətin inhisarında olan enerji daşıyıcılarının və infrastruktur obyektlərinin xidmətlərinin daxili qiymətlərinin beynəlxalq səviyyədən aşağı saxlanması hesabına istehsal xərclərinin azaldılması yerli sənaye məhsullarının rəqabətqabiliyyətinin artmasına və ixracına kömək edərdi.

Sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi üçün dövlətin kredit siyasətinin təkmilləşdirilməsi də zəruridir. Belə ki, ölkənin ucqar regionlarında yeni yaradılmış sənaye müəssisələrinin formalaşması üçün dövlət həmin müəssisələrin bir neçə il maliyyələşməsinin müəyyən hissəsini güzəştli kredit hesabına öz üzərinə götürə bilər. Eyni zamanda, dövlət sənayenin ərazi quruluşunun təkmilləşməsində nəzərəçarpacaq dərəcədə

təsir göstərən sənaye müəssisələrinə istehsalı genişləndirmək və modernləşdirmək üçün əlverişli şərtlərlə kredit verə bilər (13).

Qeyd olunduğu kimi, sahibkarlığa dövlət dəstəyinin mühüm istiqamətlərindən biri də sahibkarların güzəştli kreditlərlə təmin edilməsidir. Dövlətin sahibkarlara maliyyə dəstəyi bir neçə istiqamət üzrə həyata keçirilməkdədir. Bu mənbələr sırasında sahibkarlığa kömək Milli Fondunun fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na və "2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı"na uyğun olaraq, sahibkarlığın inkişafına dövlət dəstəyinin gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2014-cü il ərzində regionlarda 38, Bakı şəhərinin qəsəbələrində 9 olmaqla 47 işgüzar tədbir keçirilmişdir.Bu tədbirlərdə regionlarda və Bakı qəsəbələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına müvəkkil kredit təşkilatları vasitəsilə güzəştli kreditlər təqdim edilmiş, tədbirlərdə iştirak etmiş 4280 sahibkara, o cümlədən regionlarda 3550, Bakı qəsəbələrində isə 730 sahibkara “Güzəştli kreditlərin verilməsi mexanizmi, investisiya layihələrinin hazırlanması və təqdim olunması” mövzusunda maarifləndirici treninqlər keçirilmiş, onlara biznes sahəsində fəaliyyətlə bağlı iqtisadi biliklər verilmiş, nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmişdir (48).

2014-cü il ərzində Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə dövlətin güzəştli kreditləri hesabına maliyyələşdirilməsi məqsədilə müvəkkil kredit təşkilatlarına Aran iqtisadi rayonu üzrə 2351 (40.8%), Gəncə-Qazax iqtisadi rayonu üzrə 1300 (22.5%), Şəki-Zaqatala iqtisadi rayonu üzrə 220 (3.8%), Lənkəran iqtisadi rayonu üzrə 601 (10.4%), Quba-Xaçmaz iqtisadi rayonu üzrə 370 (6.4%), Dağlıq Şirvan iqtisadi rayonu üzrə 373 (6.5%), Abşeron iqtisadi rayonu üzrə 161 (2.8%), Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 143 (2.5%) və Bakı şəhərinin qəsəbələri üzrə 246 (4.3%) müraciət daxil olmuşdur.

2014-cü il ərzində Sahibkarlığa Kömək Milli Fondunun vasitəsilə Aran iqtisadi rayonu üzrə 2246 (40.4%) layihəyə 89414.5 min (30.3%) manat, Gəncə-Qazax iqtisadi

rayonu üzrə 1321(23.8%) layihəyə 36803.6 min (12.5%) manat, Quba-Xaçmaz iqtisadi rayonu üzrə 353 (6.3%) layihəyə 19230.1 min (6.5%) manat, Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 144 (2.6%) layihəyə 5663.4 min (1.9%) manat, Şəki-Zaqatala iqtisadi rayonu üzrə 207 (3.7%) layihəyə 3362.2 min (1.1%) manat, Lənkəran iqtisadi rayonu üzrə 550 (9.9%) layihəyə 29255.3 (9.9%) min manat, Dağlıq Şirvan iqtisadi rayonu üzrə 376 (6.8%) layihəyə 13746.4 min (4.7%) manat, Abşeron iqtisadi rayonu üzrə 85 (1.5%) layihəyə 31868 min (10.8%) manat və Bakı şəhərinin qəsəbələri üzrə 278 (5%) layihəyə 65656.5 min (22.3%) manat dövlətin güzəştli kreditləri verilmişdir.

2014-cü il ərzində kənd təsərrüfatı məhsullarının istehsalı yönümlü 5344 investisiya layihəsinin maliyyələşdirilməsinə 164.2 milyon manat, kənd təsərrüfatı məhsullarının emalı ilə bağlı 11 investisiya layihəsinin maliyyələşdirilməsinə 22.2 milyon manat və digər ərzaq məhsullarının istehsalı ilə bağlı 57 investisiya layihəsinin maliyyələşdirilməsinə 12.2 milyon manat güzəştli kredit vəsaiti ayrılmışdır.

Güzəştli kreditlər hesabına maliyyələşdirilən investisiya layihələrinin həyata keçirilməsi nəticəsində 12564, o cümlədən Bakı şəhərinin qəsəbələri üzrə 1501 (11.9%), Abşeron iqtisadi rayonu üzrə 447 (3.5%), Aran iqtisadi rayonu üzrə 4409 (35.1%), Gəncə-Qazax iqtisadi rayonu üzrə 2839 (22.6%), Lənkəran iqtisadi rayonu üzrə 1251 (10%), Şəki-Zaqatala iqtisadi rayonu üzrə 273 (2.2%), Quba-Xaçmaz iqtisadi rayonu üzrə 882 (7%), Dağlıq Şirvan iqtisadi rayonu üzrə 716 (5.7%) və Yuxarı Qarabağ iqtisadi rayonu üzrə 246 (2%) yeni iş yeri yaradılmışdır (48).

Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin təkmilləşdirilməsi məqsədilə geridə qalmış rayonlarda yaradılan sənaye müəssisələrinə hökumət tərəfindən dotasiya verilməsi məqsədəuyğun olardı. Rayonun inkişaf səviyyəsindən asılı olaraq dotasiyanın sənaye müəssisələrinin investisiya xərclərində payı müxtəlif ola bilər. Xüsusilə hökumət regionlarda sənaye müəssisələrinin yaradılması nəticəsində infrastruktur obyektlərinin inkişafı və genişləndirilməsinə çəkilən xərclərin böyük hissəsini öz üzərinə götürməlidir.

Beləliklə regional iqtisadiyyatın, eləcə də regionların sosial-iqtisadi inkişafının dövlət tənzimlənməsi istiqamətində aparılan tədqiqat və təhlillərdən aydın olur ki, hal-hazırda Azərbaycan Respublikasında tənzimləmə müxtəlif istiqamətlərdə həyata keçirilir. Müasir dövlət tənzimlənməsi, əsasən müvafiq Dövlət Proqramlarının qəbul edilməsi ilə həyata keçirilir. Eyni zamanda vergi, gömrük və maliyyə siyasəti vasitəsilə də tənzimləyici tədbirlər reallaşdırılır. Bütün bunlarla yanaşı regionların sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi, həyata keçirilən Dövlət Proqramlarının nəticələrinin daha da yaxşılaşdırılması və ən əsası tarazlı iqtisadi inkişafı təmin etməklə davamlı inkişafa nail olmaq üçün dövlət tənzimlənməsinin gücləndirilməsi, tənzimlənmənin müsbət təsirlərinin artırılması və s. məqsədilə aşağıdakı tədbirlərin həyata keçirilməsi zəruri hesab edilir:

– Ölkədə həyata keçirilən dövlət tənzimləməsi ilə bazar iqtisadiyyatı prinsiplərinin uzlaşdırılması vacibdir. Bu o deməkdir ki, artıq tənzimləmə tədbirləri hamı tərəfindən başa düşülən və həvəsləndirici xarakterdə olmalıdır;

– Dövlət tənzimlənməsi və regional siyasət tədbirlərinə kompleks şəkildə yanaşılmalı və bu tədbirlər biri digərini tamamlamalıdır;

– Strateji məhsul istehsalçıları, o cümlədən gündəlik tələbat məhsulları istehsal edən iş adamlarına dövlət qayğısının gücləndirilməsi, maliyyə-vergi güzəştləri və ya digər güzəşt paketlərinin təklif edilməsi məqsədəuyğundur;

– Ölkədə investisiya və kapital qoyuluşlarının istehsal sahələri və regionlar arasında inkişaf səviyyələri nəzərə alınmaqla səmərəli bölgüsünün təmin edilməsi;

– Zəif inkişaf etmiş regionlarda istehsal və xidmət sahələrinin vergidən qismən azad edilməsi və ya onlara digər güzəştlərin təklif olunması vacibdir;

– Regionlarda yeni növ məhsul istehsalı ilə məşğul olan iş adamlarına xüsusi yardım proqramlarının qəbul edilməsi məqsədəuyğun olardı. Bu həm məhsul bolluğu yaradar, həm yeni iş yerlərinin yaradılmasına təkan verər və həm də yeni müəssisələrin daha çox regionlarda yerləşdirilməsini stimullaşdırar;

– Vergi və gömrük siyasətinin ölkədə qəbul edilən Dövlət Proqramlarının, eləcə də regional siyasətin məqsədlərinə müvafiq olaraq mütəmadi olaraq təkmilləşdirilməsi;

– Ölkədə, xüsusilə regionlarda istehsalın rekonstruksiya və modernləşdirilməsinə xidmət edən vergi güzəştlərinin tətbiqi. Bu həm keyfiyyətli məhsul istehsalına, həm də ekoloji problemlərin azaldılmasına şərait yaradar;

– Ölkədə idxal limitlərinin müəyyən edilməsi və bu limitlərə hər il yenidən baxılması zəruridir.

# NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanda sənaye müəssisələrinin ərazi üzrə təşkilinin kompleks tədqiqi əsasında magistr dissertasiya işində bir sıra nəticə və təkliflər irəli sürülür. Bunlar aşağıdakılardan ibarətdir:

1. Sənaye müəssisələrinin ölkə miqyasında səmərəli yerləşdirilməsi məhsuldar qüvvələrin ərazicə təşkili məsələlərinin bir cəhəti olmaqla, milli iqtisadiyyatın inkişafı və sosial tərəqqini təmin edə biləcək mühüm təsərrüfat tədbirlərindən biridir. Sənaye istehsalının səmərəli yerləşdirilməsi təbii sərvətlərdən səmərəli istifadəni, əhalinin məşğulluq səviyyəsinin yaxşılaşdırılmasını, əmək məhsuldarlığının yüksəldilməsi və iqtisadi resurslardan qənaətlə istifadə əsasında istehsalın səmərəliliyinin yüksəldilməsini, iqtisadi rayonların optimal şəkildə sosial-iqtisadi inkişafını təmin edir. Sənaye müəssisəsinin yerləşməsi regionda nəqliyyatın, rabitənin və digər sahələrin inkişafına, istehsalın enerji və xammalla təminatının, rayonlararası və sahələrarası əlaqələrin mürəkkəbləşməsinə, ətraf mühitin qorunmasının əhəmiyyətinin artmasına və s. təsir göstərir.Bütün bunların nəticəsi olaraq ərazi üzrə səmərəli yerləşdirmə müəyyən mənada həm cəmiyyətin, həm də ölkənin inkişafında müsbət rol oynayır;

2. Aparılan tədqiqatdan məlum olur ki, respublikamızın hər bir regionu güclü potensial imkanlara (sənaye əhəmiyyətli təbii sərvətlərə, ucuz işçi qüvvəsinə) malik olmasına baxmayaraq, hal-hazırda ölkə miqyasında sənaye müəssisələrinin ərazi üzrə yerləşdirmə səviyyəsi bu potensial imkanların mövcudluğuna uyğun gəlmir. Belə ki, 2014-cü ildə ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin böyük hissəsi bir regionda cəmlənmişdir. Yəni, ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin 57,6 faizi Abşeron iqtisadi rayonunda (Bakı şəhəri daxil olmaqla) yerləşir. Bunun nəticəsi olaraq istehsal olunan sənaye məhsulunun 89,5 faizi bu rayonun payına düşür.

3. Sənaye istehsalını ərazi üzrə yerləşdirərkən elmi cəhətdən əsaslandırılmış prinsiplərə riayət edilməli və ona təsir edə biləcək bütün amillər nəzərə alınmalıdır;

4. Regionlarda sənayenin inkişafı investisiya mühitinin əlverişli olmasından əhəmiyyətli dərəcədə asılıdır. İnvestisiya siyasətinin məqsədlərinə nail olmaq üçün regionlarda əlverişli investisiya mühitinin yaradılması vacibdir. Bu da aşağıdakıları tələb edir:

– regionlarda investisiya mühitinin əlverişliliyini artıran etibarlı və stabil hüquqi-normativ bazanın yaradılması, sahibkarlar və yerli dövlət orqanları arasında sıx təşkilati-işgüzar əlaqələrin yaradılması;

– ərazinin infrastrukturunun inkişaf etdirilməsi, tikinti bazasının, kommunikasiya şəbəkəsinin (nəqliyyat, rabitə, informatika) inkişaf etdirilməsi.

5. Regionlarda real sektorun prioritet sahələrinin inkişafı və məhsulların rəqabət qabiliyyətinin artırılması innovasiya tədbirlərinin həyata keçirilməsindən birbaşa asılıdır. Fikrimizcə, müəssisələrin mövcud vəziyyətini nəzərə almaqla innovasiyaların tətbiqinə geniş şəraitin yaradılması üçün aşağıdakı istiqamətdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğundur:

– innovasiyaların tətbiqinin kompleks dəstəklənməsi və istehsal edilən məhsulların rəqabətqabiliyyətliliyinin artırılması sisteminin yaradılması;

– informasiya təminatı sistemi, ekspertiza sistemi, maliyyə sistemi və eləcə də kadrların hazırlanması da daxil olmaqla innovasiya prosesinin infrastrukturunun inkişafı;

– istehsalın səmərəliliyinə və rəqabətqabiliyyətinə əhəmiyyətli təsir göstərən uyğun sahələrdə yeni texnologiyalara keçidin təmin edilməsi.

6. Müasir dövrdə ölkə sənayesinin ərazi strukturunda mövcud olan qeyri-bərabərlik sənayenin ərazi üzrə optimal yerləşdirilməsinin dövlət tənzimlənməsini zəruri edir. İnkişaf etmiş ölkələrin təsərrüfat təcrübəsi göstərir ki, məhsuldar qüvvələrin inkişafı regional inkişafın hüquqi əsası –dövlətin regional siyasəti olmadan uğurla həyata keçirilə bilməz. Sənaye obyektlərinin ərazi üzrə səmərəli şəkildə yerləşdirilməsinin stimullaşdırılması formalarından biri dövlət, yerli və xarici investorlar arasında müqaviləyə əsaslanan sənaye layihələridir. Bu layihələrin məqsədi ölkədə istehsal olunan xammal və materialların

emallıq səviyyəsinin dərinləşdirilməsi, onların keyfiyyətinin artırılması, regionlarda mövcud olan sənaye müəssisələrinin yenidənqurulması və modernləşdirilməsi ola bilər. Belə layihələrin reallaşdırılması sənaye istehsalının texniki-iqtisadi səviyyəsinin yüksəlməsinə, hazır məhsulun tərkibində yerli komponentlərin artmasına imkan verər. Hökumətin bu cür layihələrin dəyərinin 25 faizinə qədərini maliyyələşdirməsi məqsədəuyğundur. Bu, xarici investorların ölkənin ayrı-ayrı regionlarına cəlb edilməsini stimullaşdırar.

7. Sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi üçün dövlətin kredit siyasətinin təkmilləşdirilməsi də zəruridir. Belə ki, ölkənin ucqar regionlarında yeni yaradılmış sənaye müəssisələrinin formalaşması üçün dövlət həmin müəssisələrin maliyyələşməsinin müəyyən hissəsini güzəştli kredit hesabına bir neçə il öz üzərinə götürə bilər. Eyni zamanda, dövlət sənayenin ərazi quruluşunun təkmilləşməsində nəzərəçarpacaq dərəcədə təsir göstərən sənaye müəssisələrinə istehsalı genişləndirmək və modernləşdirmək üçün əlverişli şərtlərlə kredit verə bilər.

8. Müasir şəraitdə regionlarda sənayenin inkişafına təkan verən əsas şərtlərdən biri ölkənin əlverişli regionlarında Azad İqtisadi Zonaların yaradılmasıdır. Azərbaycanda azad və birgə zonaların yaradılması baxımından əlverişli bölgələri müəyyənləşdirmək məqsədilə aparılan təhlilin nəticələri göstərir ki, ən perspektivli bölgələr Abşeron, Naxçıvan MR, Gəncə-Qazax, Lənkəran, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarıdır.

# İSTİFADƏOLUNMUŞƏDƏBİYYAT

1. “AzərbaycanRespublikasıregionlarınınsosial-iqtisadiinkişafıdövlətproqramı (2004-2008)”. Bakı 2004.

2. “AzərbaycanRespublikasıregionlarınınsosial-iqtisadiinkişafıdövlətproqramı (2009-2013)”. Bakı 2009.

3. “AzərbaycanRespublikasıregionlarınınsosial-iqtisadiinkişafıdövlətproqramı (2014-2018)”. Bakı 2014.

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramının (2004-2008-ci illər) icrasının yekunları “uğurlu siyasətin nəticələri”. Bakı – 2009

5. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Republikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

6. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı”. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamıilə təsdiq edilmişdir.

7. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dovlət proqramı”nın icrasının üçüncü ilinin yekunları. Uğurlu siyasətin nəticələri. Bakı- 2012.

8. Azərbaycansənayesi. Statistikməcmuə. B., 2015.

9. Azərbaycanregionları. Statistikməcmuə. B., 2015.

10. “Azərbaycandaiqtisadiislahatlarınhəyatakeçirilməsixüsusiyyətlərivəproblemləri”.Elmiəsərlərtoplusu. B –2001.

11. T.Ə. Hüseynov. Sənayeniniqtisadiyyatı. B., 2000.

12. T.Ə. Hüseynov. Müəssisəniniqtisadiyyatı. B., 2005.

13. T.Ə.Hüseynov, L.A.Həmidova. Maşınqayırma istehsalının iqtisadiyyatı (dərs vəsaiti), Bakı, 2015.

14. R.H.Məmmədov, Tofiq Bəhərçi, V.Z.Mehdiyeva, T.S.Quliyev. Dünyanıniqtisadi və sosial coğrafiyası. Bakı-2006.

15. A.A.Nadirov "Azərbaycan sənayesinin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri". B-1976.

16. A.A. Nadirov Bazar iqtisadi münasibətləri sistemində Azərbaycanın regionlarının iqtisadi inkişaf məsələləri // AMEA –nın Xəbərləri. İqtisadiyyat seriyası, 1998, №3, s. 3-15.

17. A.A.Nadirov "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri" B-2001.

18. A.A.Nadirov, Əbdürrəhmanov B.E, Nəbiyev N.Ə. Sənaye istehsalının təşkilinin təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 1977, 84 s.

19. ƏmiraslanovA. RegionallayihələrinhəyatakeçirilməsiAzərbaycaniqtisadiyyatınındavamlıvətarazlıinkişafınıtəminedəcək. "Xalqqəzeti". Bakı, 2004 №40.

20. NuriyevƏ.X. Sənayeninböyükşəhərlərdətəmərküzləşməsisəbəblərivəregionalinkişafsiyasəti // AMEA –nınXəbərləri. İqtisadiyyatseriyası. 2000, №3-4, s. 68-77.

21. NuriyevƏ.X. Regionalinkişafınstratejiməsələləri /AzərbaycaniqtisadiyyatınınstratejiproblemləriRespublikaelmipraktikkonfransınınmaterialları. Bakı: Elm, 2002, s 210-215.

22. H.B. Allahverdiyev"İqtisadiyyatındövləttənzimlənməsi", B-2002.

23. R.H.Məmmədov, T.B.Hüseynov, A.A.Hüseynov. Məhsuldarqüvvələrinyerləşdirilməsi. B., 1992.

24. M.M.Mahmudov, İ.M.Mahmudov. Regionaliqtisadiyyatıntənzimlənməsi. B., 2001.

25. Алиев Б.Г. Региональные проблемы переходной экономики. М. Экономика, 2002, 466 с.

26. Кушлина В.И. Государственное регулирование рыночной экономики. Москва, Издательство РАГС, 2008.

27. Алиев Б.Г. Региональные проблемы переходной экономики. М. Экономика, 2002, 466 с.

28. Государственное воздействие на размещение производительных сил в капиталистических странах, М., "СОПС", 1970.

29. Гусейнов С.К. Эффективность структуры промышленного производства в условиях его интенсификации, Б., "Елм", 1987.

30. Юзбашева Г.П. Проблемы структурной перестройки экономики Азербайджана в новых условиях развития, Б., 1994.

31. Миско К.М. Ресурсный потенциал региона, М., "Наука", 1991.

32. Государственное воздействие на размещение производительных сил в капиталистических странах, М., "СОПС", 1970.

33. A. A. Nadirov. Akademiyada regionların sosial-iqtisadi inkişaf problemləri üzrə tədqiqatların ümumi qısa tarixi səlnaməsi. Bakı: Elm, 2010.

34. İ. M. Rzayev. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı; mövcud vəziyyət və gələcək perspektivlər. Bakı: Elm, 2010.

35. R. R. Əliyev. İstehsal infrastrukturunun regional aspektləri. Azərbaycanın vergi xəbərləri, 2/2011.

36. T. H. Qurbanova. Regional siyasətin dövlət tənzimlənməsi və aqrar sahənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Azərbaycanın vergi xəbərləri – 7/2011.

37. http://gsaz.az

38. http://president.az

39. http://rytn.nakhchivan.az

40. http://www.anl.az

41. http://www.azerbaijans.com

42. http://www.grandars.ru

43. https://az.wikipedia.org

44. http://www.azerbaijan-news.az

45. http://lit-ra24.ru

46. www.economy.gov.az

47. www.stat.gov.az

48. http://anfes.gov.az

## РЕЗЮМЕ

Магистрская диссертация выполнена в теме “Теоретические проблемы регионального размещения промышленных предприятий” состоит из введения, трех частей, заключения, предложения и список литературы.

Во введении описывается актуальность темы, предмет и объект исследования, его цели и задачи, информационная база исследования, его научная новизна и практическое значение.

В первой части магистерской диссертации были исследованы теоретические вопросы регионального размещения промышленного производства. В этом разделе были указаны и исследованы, принципы, сущность и важность регионального размещения промышленного производства, факторах, влияющих на его, было указано методы экономического обоснования региональной размещения промышленных предприятий.

Вторая часть магистерской диссертации называется “Современные условия регионального размещения промышленных предприятий в регионах Республики”. В этом разделе нынешнее состояние отрасли всех внутренних экономических районов были проанализированы и нынешние проблемы в отрасли экономических районах страны были исследованы.

Последняя часть называется “Направления улучшения регионального размещения промышленного производства”. В этом разделе были исследованы указаны основные направления экономического развития Азербайджанских регионов и направлений перспективного развития промышленного производства в регионах, основные направления государственного регулирования размещения промышленности в регионах в современных условиях.

## SUMMARY

Master`s thesis executed in the subject of “Theoretical issues of regional placement of industrial enterprises” consists of introduction, three parts, conclusion and suggestions and the list of references.

The introduction describes relevance of topic, the subject and the object of research, its purpose and objectives, information base of research, its scientific novelty and practical importance.

In the first part of master dissertation the theoretical issues of regional placement of industrial production has been researched. In this section was stated and researched the essence and importance of regional placement of industrial production and the factors affecting it, was indicated the methods of economic justification of industrial enterprises in regional placement.

The second part of master dissertation is called “Contemporary conditions of regional placement of industrial enterprises in the regions of Republic”. In this section the present condition of the industry in all domestic economic districts was analyzed. The present problems in the industry of economic districts of the country were also researched.

The last part is called “The improvement directions of regional placement of industrial production”. In this section the main directions of economic development of Azerbijan`s regions and perspective development directions of industrial production in regions were researched, the main directions of governmental regulation of placement of industry in regions in contemporary conditions were indicated.